Xalqın qəzeti!

# Xalq qəzeti

№ 46 (31015) 12 mart 2026-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Avropa İttifaqı Azərbaycanın bir nömrəli ticari tərəfdaşıdır

*Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın Azərbaycana rəsmi səfəri*

## Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti ilə təkbətək görüşü



**Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ilə təkbətək görüşü olub.**

**Əvvəlcə dövlətimizin başçısı İlham Əliyev və Antonio Koşta birgə foto çəkdirdilər.**

## Türk dünyası yeni geosiyasi mərhələnin astanasında



Səhifə ➩ 5

## Hörmüz boğazı hərbi gərginlikdən boğulur



Səhifə ➩ 12

## Yeni dünya düzəninin özünəməxsus nişanələri

### Neokolonializmə qarşı çıxan dövlətlər niyə hədəfə çevrilir?

**Son dövrlər beynəlxalq münasibətlər sistemində müşahidə olunan əsas tendensiyalardan biri neokolonializmə qarşı çıxan dövlətlərin və ictimai platformaların fəaliyyətinə qarşı sistemli təzyiq mexanizmlərinin güclənməsidir. Daha dəqiq desək, siyasi müstəqillik əldə etmiş bir sıra ölkələrin iqtisadi, informasiya və təhlükəsizlik baxımından xarici təsir dairəsində saxlanılması cəhdləri davam edir. Bu təsirə qarşı çıxan aktorlar müxtəlif vasitələrlə neytrallaşdırılmağa çalışılır.**




Neokolonializm dolayı təsir alətləri, informasiya kampaniyaları, sanksiyalar, siyasi təzyiq, kiberhücumlar və beynəlxalq institutlar vasitəsilə həyata keçirilir. Müxtəlif regionlarda baş verən hadisələr göstərir ki, neokolonial təsir mexanizmlərinə qarşı çıxan ölkələr və təşkilatlar paralel şəkildə reputasiya hücumları, daxili sabitliyi sarsıtmağa yönəlmiş fəaliyyətlər və təhlükəsizlik təhdidləri ilə üzləşirlər. Mali, Burkina Faso və Niger kimi Qərbi Afrika dövlətlərində bu proses daha çox müşahidə olunur. Həmin ölkələr son illərdə keçmiş müstəmləkəçilik sisteminin iqtisadi və hərbi mirasının aradan qaldırılması istiqamətində addımlar atmaqla milli resursların idarə olunması məsələsində də sərt mövqe tutublar. Onlara qarşı beynəlxalq səviyyədə siyasi təcrid cəhdləri, sanksiya təhdidləri və daxili sabitliyi zəifləndən informasiya kampaniyalarının artması təsadüfi deyil. Oxşar tendensiya Konqo Demokratik Respublikası və Mərkəzi Afrika Respublikası kimi təbii ehtiyatlarla zəngin ölkələrdə qeydə alınır.

*(ardı 6-cı səhifədə)*

## Azərbaycanın bölgədə önəmini Aİ yaxşı anlayır



Səhifə ➩ 6

## 8 mininci şütümə, yaxud EUMA üçün nekroloq əvəzi



Səhifə ➩ 6

## Paşinyanın Strasburq çıxışında sülh gündəliyi və kilsə mübahisəsi



Səhifə ➩ 4

## Cenevrədən səslənən bəşəri çağırışlar



Səhifə ➩ 5

## Enerjidən logistikaya



Səhifə ➩ 12

## Ana südü qıtlaşdıqca, uşaq qidaları bahalaşır



Səhifə ➩ 13

## Yaxın Şərqdə hərbi qarşıdurma davam edir



Səhifə ➩ 15

# Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti mətbuata bəyanatlarla çıxış ediblər

**Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.**





## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Mən Avropa İttifaqı Şurasının Prezidentini salamlayıram. Cənab Prezident, Sizi qəbul etməkdən çox məmnunam. Ötən il iki dəfə görüşmüşük və çox yaxşı müzakirələrimiz olub. Yadınızdadırsa, mən Sizi Azərbaycana səfərə dəvət etdim. Dəvətimi qəbul etdiyinizə görə minnətdaram. Biz Sizin səfərinizə çox böyük önəm veririk. Əminəm ki, o, xüsusən də indiki dövrdə çox uğurla inkişaf edən ikitərəfli əlaqələrimizin daha da inkişaf etdirilməsində mühüm rol oyanacaq. Bizim çox fəal dialoqumuz var. Avropa Komissiyasının üzvləri ötən il və bu il dəfələrlə bizə səfər ediblər. Beləliklə, biz müxtəlif səviyyələrdə tərəfdaşlığın fəal mərhələsindəyik. Mən bəzi iqtisadi göstəricilərə nəzər saldım və gördüm ki, bu ilin yanvarında ticari dövriyyəmizin 50 faizi Avropa İttifaqı ilə bağlı olub. Ötən il dövriyyə bir az aşağı olmuşdur, lakin o, həqiqətən göstərir ki, Avropa İttifaqı bizim üçün bir nömrəli ticari tərəfdaşdır. Əminəm ki, yeni layihələr və yeni investisiya imkanları ilə sərmayələr iki istiqamətdə yatırılacaq. Hazırda biz, həmçinin Avropada fəal şəkildə sərmayə yatırırıq. Ticari dövriyyəmiz birmənalı olaraq artacaq. Tərəfdaşlığımızın mühüm hissəsi hər zaman enerji əməkdaşlığı olub, var və birmənalı olaraq olacaq. Bu, xüsusən də 2022-ci ildə Enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında sənədi Avropa Komissiyası ilə imzaladığımızdan sonra müşahidə olunur.

Həmin vaxtdan etibarən biz həm həcm, həm də ölkələrin sayı baxımından Avropa ölkələrinə qaz ixracımızı artırmışıq. Bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycandan qazı qəbul edir və ölkələrin ümumi sayı 16-ya çatıb. Bu göstəriciyə görə biz dünyada boru kəməri ilə qazı təchiz edən bir nömrəli ölkəyik. On altı ölkə bu gün Azərbaycan qazını alır və beləliklə, bir çox ölkələrin enerji təhlükəsizliyində oynadığımız rol artır.

Bizim üçün Avropa bazarı artım potensialına malik ümumi qaz ixracımızın yarısını təşkil edir. Elə bu ayın əvvəlində, biz Cənub Qaz Dəhlizi Məşvərət Şurasının illik toplantısını keçirdik və bu tədbirə Azərbaycan və Avropa Komissiyası ev sahibliyi edir. Orada öz nitqimdə mən auditoriyanı məlumatlandırdım ki, biz bu il qaz hasilatını artırmağı planlaşdırırıq. Biz qazı yeni yataqda hasil etməyə başlayacağıq. Bu gündən etibarən növbəti iki və ya üç il ərzində, - əgər hər şey cədvələ uyğun gedərsə, - bizim bugünkü həcmlə müqayisədə minimum 10 milyard kubmetr əlavə qazımız olacaq.

Enerji sahəsində əməkdaşlığımızın digər istiqaməti bərpaolunan enerji ilə bağlıdır ki, onun da böyük potensialı var. Biz külək, Günəş və su elektrik enerjisinə böyük sərmayələr yatırırıq. Planımız beş və ya altı il ərzində ixraca hazır olan 6-8 giqavatlıq bərpaolunan enerjiyə malik olmaqdır. Bir sözlə, hazırda biz Avropa tərəfdaşları ilə ötürülmə xətləri, dəniz dibi kabelləri, enerji infrastrukturunun digər fərqli hissələri üzərində çalışırıq.

Bu gün gəldiyiniz zaman hər ikimiz Bakıda çox günəşli havanı qeyd etdik. Bahar gəlir. Əslində, düşünürəm ki, bizim burada 300-dən çox günəşli günümüz olur və ola bilsin, küləkli günlər daha çoxdur. Təsəvvür edə bilərsiniz ki, külək və Günəş enerjisinin burada böyük potensialı var. Əlbəttə, biz daha sıx işləməyə çalışırıq, çünki Avropa qitəsinə daxil olmazdan əvvəl, siz bütün tranzit razılaşmaların icrası məqsədilə bir çox ölkələrlə işləməlisiniz. Təbii ki, xüsusi olaraq, Ermənistanla paraflanmış sülh sazişinə nail olduqdan sonra daşımalar ikitərəfli gündəliyimizin mühüm hissəsidir. Orta Dəhlizin genişlənməsi üçün yeni imkanların açılması, təbii ki, nikbinliyimizi artırır. Cənab Prezidentə söylədiyim kimi, biz cəmi yeddi aydır ki, sülh şəraitində yaşayırıq. Müstəqilliyimiz hələ 1991-ci ildə bərpa olunub. Bununla belə, cəmi yeddi aydır ki, sülhdə yaşayırıq. Lakin biz bunun faydasını artıq hiss edirik və əminəm ki, Ermənistanla sülh daimi olacaq. Biz, həmçinin ticarətə başlamışıq. Ermənistana mühüm neft məhsullarının təchizatına başlamışıq. Digər ölkələrdən Azərbaycan ərazisi vasitəsilə Ermənistana gedən yüklərin tranzitinə bütün məhdudiyyətləri aradan qaldırmışıq. Bu isə bir daha güclü siyasi iradəmizi göstərir, çünki biz sülhə təkcə iki ölkənin parafladığı sənəd üzərində deyil, həmçinin əyani şəkildə nail oluruq. Bu, həmçinin ona görə vacibdir ki, bəzən sənədlər uzun müddət ərzində elə kağız kimi qalır. Bizə gəldikdə, 2023-cü ilin sentyabrından Ermənistanla son qanlı hərbi toqquşmadan 2025-ci ilin avqustunda sülhə nail olmağımızdan iki ildən az vaxt keçir. Düşünürəm ki, əgər hər iki tərəf siyasi iradəni və sülhə sadiqliyini nümayiş etdirərsə, bu, dövlətlərin və xalqların barışığına dəlalət edən ən yaxşı göstəricidir. Sülhdən yaxşı heç nə ola bilməz. İnanın mənə, müharibə şəraitində yaşamağın və ya müharibə etməyin nə olduğunu bilirik. Ona görə bizim kimi ölkələr, ola bilsin, sülhü hər hansı digər ölkədən daha çox dəyərləndirir. Bir sözlə, gündəliyimiz həqiqətən çox genişdir. Biz, əlbəttə, sərhədlərimizə yaxın bölgədə təhlükəsizlik məsələlərini müzakirə etdik. Biz bu gün sonra söhbətimizi davam etdirəcəyik. Bizimlə olduğunuza görə, cənab Prezident, bir daha təşəkkür edir, Sizə xoş səfər arzulayıram.

*

Sonra Avropa İttifaqı Şurasının Prezidenti bəyanatla çıxış etdi



## Prezident Antonio Koştanın bəyanatı

– Günortanız xeyir. İlk növbədə, burada Bakıda olmaqdan məmnunam. Prezident Əliyev, xüsusilə regionda geosiyasi vəziyyətin sürətlə dəyişməsi kimi mürəkkəb şəraitdə dəvətinizə və səmimi qarşılamanıza görə Sizə təşəkkür edirəm.

Mən Avropa İttifaqının Azərbaycan xalqı ilə tam həmrəyliyini ifadə etmək istərdim. İcazə verin, Avropa vətəndaşlarının İrandan təhlükəsiz şəkildə öz ölkələrinə qayıtmasına şərait yaratdığı üçün Azərbaycanın göstərdiyi yardıma görə səmimi minnətdarlığımı çatdırım. Azərbaycan Respublikası Avropa İttifaqının əsas tərəfdaşıdır. Ötən bir il ərzində biz münasibətlərimizi yenidən canlandırmışıq. Bugünkü görüş bizim xüsusilə təhlükəsizlik, enerji, rəqəmsal və nəqliyyat sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsinə olan birgə öhdəliyimizin bariz əlamətidir. Təhlükəsizlik və insan haqları da daxil olmaqla, mövcud dialoq mexanizmlərindən tam şəkildə istifadə etmək məqsədilə hazırda biz Avropa İttifaqı ilə Azərbaycan arasında daha sıx əməkdaşlıq üçün yeni çərçivə üzərində işləyirik. Bu, bizim gələcəyə birgə baxışımıza dair güclü siqnal verir. Biz, həmçinin müdafiə və təhlükəsizlik sahələrində əməkdaşlığımızı dərinləşdirmək üçün yollar araşdırırıq.

Prezident Əliyevin söylədiyi kimi, enerji təhlükəsizliyi ikitərəfli əməkdaşlığımızın təməlini təşkil edir. Dörd il bundan əvvəl Versalda Avropa İttifaqı Şurası qaz, neft və kömürün təchizatı mənbələrinin şaxələndirilməsinə dair qərar qəbul etdi. Azərbaycan Cənub Qaz Dəhlizi sayəsində bu səylərdə həlledici rol oynadı. Bu gün nəticə göz qabağındadır. İrandakı müharibənin qlobal enerji bazarlarını sarsıtdığı bir vaxtda bizim enerji sahəsində hazırkı tərəfdaşlığımız heç zaman olmadığı kimi daha əhəmiyyətlidir. Avropa İttifaqı Azərbaycanın enerji keçidini dəstəkləmək üçün özəl investisiyaları və maliyyələşməni səfərbər etməyə hazırdır. Biz, həmçinin Avropanın təmiz texnologiyalar sahəsində fəaliyyət göstərən şirkətlərini sizin geniş planınızda daha fəal iştirak etməyə çağırırıq.

Daşımalar bizim əməkdaşlığımızın başqa bir mühüm sahəsidir. Orta Dəhlizin inkişafı yeni nəqliyyat bağlantıları üçün strateji fürsətdir. Bakı-Naxçıvan dəmir yolu əlaqəsinin tamamlanması bu mənada böyük əhəmiyyət kəsb edəcək. Avropa ilə Asiya arasında ticarət dayanıqlılığını gücləndirməklə biz iş yerləri yarada, artımı stimullaşdıra və iqtisadiyyatlarımızı birlikdə gücləndirə bilərik. Avropa İttifaqı Azərbaycanın dinc, sabit, qarşılıqlı əlaqələrə əsaslanan və çiçəklənən Cənubi Qafqaz hədəfini bölüşür. Ermənistanla sülh prosesində əldə edilən irəliləyiş tarixi əhəmiyyət kəsb edir.

Vaşinqton razılaşmaları sizin dialoq və barışığa sadiqliyinizi əks etdirir. Avropa İttifaqı bu razılaşmaların həyata keçirilməsinin dəstəklənməsində sizin yanınızdadır.

Biz həqiqi sülhün təkcə siyasi razılaşmalar, Sizin dediyiniz kimi kağız üzərində yox, insanların gündəlik həyatları, iqtisadi-ticari əlaqələr və ortaq rifah üzərində qurulduğunu bilirik. Qarşılıqlı iqtisadi asılılığın gücləndirilməsi uzunmüddətli sabitliyə aparan birmənalı yoldur və Avropa İttifaqı hamının faydası üçün bu imkanlardan yararlanmağa kömək etməyə hazırdır. Azərbaycanın regional rolu heç vaxt görünmədiyi qədər önəmlidir. Mən İranda və Yaxın Şərqdə baş verən, sizə çatmış təhlükəli hərbi eskalasiya fonunda üzləşdiyiniz çağırışları bilirəm. İcazə verin, bir daha Avropa İttifaqı adından Azərbaycan və onun xalqı ilə tam həmrəy olduğumuzu ifadə edim.

Biz bu yaxınlarda İran tərəfindən Naxçıvan hava limanına edilmiş hücumu qətiyyətlə pisləyirik. Regional sabitliyi və təhlükəsizliyi Beynəlxalq Millətlər Təşkilatının və beynəlxalq hüququn prinsiplərinə tam riayət edərək qorumaq zəruridir. Avropa İttifaqı bütün gərginliyi azaltmaq və vətəndaşları qorumaq üçün dialoq və diplomatiya vasitəsilə bütün tərəfdaşlarla işləməyə sadiqdir. Vəziyyətin daha da kəskinləşməsi təkcə Yaxın Şərqi deyil, Avropanı və daha geniş dünyanı təhlükə altına atır.

Bununla belə, cərəyan edən son hadisələr beynəlxalq hüquqa zidd olaraq zorakı fəaliyyətin narahatedici tendensiyasını bildirir. Rusiyanın Ukraynaya qarşı təcavüzkar müharibəsi artıq beşinci ildir ki, davam edir. Bu müharibə Avropa üçün ekzistensial təhlükə olaraq qalır və qlobal miqyasda vəziyyəti poza biləcək amildir.

Qlobal sabitsizlik fonunda aramızdakı əlaqələri gücləndirmək heç zaman olmadığı qədər vacibdir. Biz 2028-ci ildə Azərbaycanın Avropa Siyasi Birliyinin Zirvə Görüşünə ev sahibliyi etməsini səbirsizliklə gözləyirik.

Sonda icazə verin, bir daha vurğulayım ki, Avropa İttifaqı bu günün çağırışlarını sabahın fürsətlərinə çevirmək üçün Azərbaycanla işləməyə sadiqdir. Sizin rəhbərliyiniz zəruridir və bizim tərəfdaşlığımız güclüdür. Biz onu xalqlarımızın rifahı naminə birlikdə daha da genişləndirə bilərik.

Növbəti aylarda Sizi Brüsseldə qəbul edəcəyimə ümid edirəm.

Çox sağ olun, cənab Prezident.

# Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti ilə rəsmi nahar əsnasında geniş tərkibdə görüşü

**Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ilə rəsmi nahar əsnasında geniş tərkibdə görüşü olub.**



Söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edildi. Xüsusilə təhlükəsizlik, enerji, nəqliyyat məsələləri üzrə dialoqun uğurla aparıldığı qeyd olundu. Bir müddət əvvəl Azərbaycanda keçirilmiş Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində iclaslara toxunuldu və bu çərçivədə aparılmış müzakirələrin önəmi vurğulandı.

Etibarlı tərəfdaş kimi Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsi xüsusi qeyd olundu, 10 Avropa ölkəsinə qaz ixrac etməsi bunun tərkib hissəsi kimi qiymətləndirildi.

Görüşdə, həmçinin nəqliyyat, logistika və bağlantılar üzrə müzakirələr aparıldı, bu məsələlərdə Azərbaycanın regionda mühüm rol oynadığı bildirildi. Orta Dəhlizin tərkib hissəsi kimi TRIPP layihəsinin önəmi vurğulandı. Bu layihənin davamı olan Naxçıvan dəmir yolu xəttinin bərpasında və yenidən qurulmasında Avropa İttifaqının iştirakına toxunuldu.

Azərbaycanla Avropa İttifaqı arasında güzəştli tarif prinsipləri əsasında ticarət əlaqələrinin genişləndirilməsinin perspektivləri ətrafında müzakirələr aparıldı.

Azərbaycanla Ermənistan arasında sülh gündəliyində əldə olunmuş nailiyyətlər xüsusi qeyd edildi, Avropa İttifaqının da sülh gündəliyinin irəli aparılmasına hər zaman töhfə verməyə hazır olduğu bildirildi.

Söhbət əsnasında Azərbaycan ilə Avropa İttifaqı arasında rəqəmsal transformasiya, süni intellekt, data mərkəzlərinin yaradılması sahələrində əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Görüşün sonunda Prezident İlham Əliyevlə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın birgə mətbuat bəyanatı qəbul edildi.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın birgə mətbuat bəyanatı

1. 2026-cı il martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta Azərbaycan Respublikasında, Bakıda görüşmüşlər.

2. Prezidentlər Azərbaycan-Avropa İttifaqı (Aİ) tərəfdaşlığının strateji əhəmiyyətini vurğulayaraq, təhlükəsizlik, enerji və nəqliyyat sahələri də daxil olmaqla, son dövrdə keçirilmiş yüksəksəviyyəli görüşlərin müsbət dinamikasına əsaslanaraq siyasi dialoqun və praktiki əməkdaşlığın daha da dərinləşdirilməsinə sadiqliklərini ifadə ediblər. Bu əməkdaşlıq hər iki tərəfin ortaq maraqlarını əks etdirir, bütün Qara dəniz, Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında sülhün, sabitliyin, daşımaların və davamlı inkişafın təşviqinə töhfə verir.

3. Onlar Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasındakı münasibətlərin Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə, o cümlədən dövlətlərin suverenliyi və ərazi bütövlüyü də daxil olmaqla, beynəlxalq hüquqa tam hörmətlə yanaşılmaqla qarşılıqlı hörmət, bərabərlik və ortaq fayda əsasında qurulduğunu bir daha təsdiq ediblər.

4. Prezidentlər münasibətlərin daha da inkişaf etdirilməsi üçün möhkəm hüquqi çərçivə yaradacaq yeni əhatəli ikitərəfli saziş üzrə danışıqların tez bir zamanda yekunlaşdırılmasına sadiqliklərini bir daha vurğulayıblar. Onlar, həmçinin yenilənmiş Azərbaycan-Aİ Tərəfdaşlıq Prioritetlərinin qəbul edilməsinin və bütün sahələrdə ikitərəfli gündəliyi daha da irəli aparmaq üçün Azərbaycan-Aİ Əməkdaşlıq Şurası da daxil olmaqla, mövcud dialoq mexanizmlərindən tam istifadənin vacibliyini qeyd ediblər.

5. Prezidentlər ayırıcı xətlərdən azad, dinc, sabit, qarşılıqlı əlaqəli və inkişaf edən Cənubi Qafqaz kimi ortaq strateji məqsədi bir daha təsdiqləyərək, regionda baş verən son müsbət hadisələri, xüsusilə də Azərbaycan-Ermənistan sülh prosesindəki tarixi irəliləyişi alqışlayıblar. Onlar 2025-ci il 8 avqust tarixli Vaşinqton Zirvə Görüşünün nəticələrini və Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan sonrakı addımları yüksək qiymətləndiriblər. Avropa İttifaqı Şurasının Prezidenti iki ölkənin ikitərəfli dialoq vasitəsilə regionda davamlı sülhə nail olmaq istiqamətində səylərini Aİ-nin tam dəstəklədiyini bir daha təsdiqləyib.

6. Prezidentlər Azərbaycanın münaqişədən sonrakı dövrdə Qarabağ və Şərqi Zəngəzur bölgələrində genişmiqyaslı yenidənqurma və inkişaf səylərini vurğulayıblar. Çətinliklərin, xüsusilə də mina ilə çirklənmənin miqyasını qeyd edərək, onlar Avropa İttifaqının humanitar minatəmizləmə sahəsində aparıcı beynəlxalq donor olduğunu vurğulayıb, beynəlxalq dəstəyin artırılmasına çağırış ediblər.

7. Prezidentlər "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in həyata keçirilməsinin ticarət, daşımalar, sərmayə, iqtisadi dayanıqlılıq və təmiz enerji daxil olmaqla, müvafiq prioritet sahələrdə Azərbaycan-Aİ əməkdaşlığını genişləndirmək üçün imkanlar yaratdığını qeyd ediblər.

8. Prezidentlər Azərbaycanın regional daşımalarda, xüsusilə də Orta Dəhliz vasitəsilə Qara dəniz, Cənubi Qafqaz və Mərkəzi Asiya arasında nəqliyyat, ticarət, enerji və rəqəmsallaşma sahələrində əlaqələrin gücləndirilməsində oynadığı aparıcı rolu vurğulayıblar. Avropa İttifaqı “Qlobal Qapı” çərçivəsində daşımalar, digər müvafiq mexanizmlər, o cümlədən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında dəmir yolunun müasirləşdirilməsinə dəstək, həmçinin TRIPP-in icrası üzrə davam edən səylərlə bağlı Azərbaycanla əməkdaşlığa sadiqliyini bir daha təsdiqləyib. Onlar “Qlobal Qapı” təşəbbüsü çərçivəsində Azərbaycan-Aİ iqtisadi əməkdaşlığını və sərmayələrini gücləndirmək üçün İqtisadi Əməkdaşlıq üzrə Yüksəksəviyyəli İşçi Qrupunun yaradılmasını alqışlayıblar.

9. Prezidentlər uzunmüddətli vacib enerji tərəfdaşlığını xatırladaraq, Avropanın enerji təchizatının şaxələndirilməsində etibarlı tərəfdaş kimi Azərbaycanın rolunu etiraf ediblər və 2022-ci ildə imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumunun davamlı icrasına sadiqliklərini bildiriblər. Onlar Cənub Qaz Dəhlizi və Yaşıl Enerji Məşvərət Şurasının əhəmiyyətini, külək və Günəş enerjisi də daxil olmaqla, bərpaolunan enerji mənbələri sahəsində enerji əməkdaşlığının genişləndirilməsi potensialını, həmçinin Qara dəniz sualtı kabeli layihəsi kimi qarşılıqlı elektrik enerjisi bağlantısı təşəbbüslərini qeyd ediblər.

10. Prezidentlər 2024-cü ilin noyabr ayında Azərbaycan Respublikasının sədrliyi ilə Bakıda keçirilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyasının (COP29) uğurlu nəticələrini alqışlayaraq, iqlim dəyişmələri və ətraf mühitin mühafizəsi sahələrində əməkdaşlığı möhkəmləndirməyə hazır olduqlarını bir daha təsdiqləyibləр.

11. Prezidentlər 2026-cı ilin may ayında keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına Azərbaycanın ev sahibliyi etməsini davamlı şəhərsalma və dayanıqlı şəhər inkişafı üzrə qlobal səylərə əhəmiyyətli töhfə kimi alqışlayıblar və bu Forumdan müvafiq sahələrdə Azərbaycan-Aİ əməkdaşlığını dərinləşdirmək üçün istifadə etməyə hazır olduqlarını bildiriblər.

12. Prezidentlər mütəşəkkil cinayətkarlıq, terrorçuluq, ekstremizm, silah və narkotiklərin qanunsuz dövriyyəsi, çirkli pulların yuyulması, insan alveri və qeyri-düzgün miqrasiya kimi ortaya çıxan təhdidlərin qarşısını almaq məqsədilə müdafiə və təhlükəsizlik sahələrində daha sıx əməkdaşlığın faydasını vurğulayıblar.

13. Prezidentlər rəqəmsal transformasiya və innovasiya sahələrində əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd ediblər. Onlar süni intellekt və inkişaf etməkdə olan digər texnologiyaların artan əhəmiyyətini etiraf ediblər, innovasiyanı, iqtisadi dayanıqlılığı və inkişafı gücləndirmək, həmçinin davamlı və artıma yönəlmiş rəqəmsal ekosistemləri təşviq etmək məqsədilə bu sahədə əməkdaşlığı gücləndirməyə hazır olduqlarını bildiriblər.

14. Prezidentlər səfərlərin artırılması da daxil olmaqla, insanlar arasında təmasların vacibliyini bir daha təsdiq ediblər. Onlar qarşılıqlı səyahətləri daha da asanlaşdırmaq məqsədilə Viza Sadələşdirilməsi Sazişinin davamlı icrasını alqışlayıblar, təhsil, mədəniyyət, gənclər və tədqiqat sahələrində əməkdaşlığın gücləndirilməsinə sadiqliklərini bildiriblər.

15. Liderlər İranda və Ukraynada baş verən son hadisələr də daxil olmaqla, əsas cari geosiyasi məsələləri müzakirə ediblər.

# Azərbaycan və Rusiya prezidentlərinin telefon danışığı

**Martın 11-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Vladimir Putin Rusiya vətəndaşlarının İran İslam Respublikasından təxliyəsində göstərilən operativ köməyə, həmçinin ölkəsinin İrana göndərdiyi humanitar yardımın Azərbaycan ərazisindən keçməsinə yaradılmış şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı liderlər Yaxın Şərqdə hərbi əməliyyatların tezliklə dayandırılmasının və münaqişənin siyasi-diplomatik yollarla həllinin vacibliyini vurğulayıblar.

Dövlət başçıları ikitərəfli gündəliyin aktual məsələlərini müzakirə ediblər. Strateji tərəfdaşlıq və müttəfiqlik prinsiplərinə uyğun olaraq Azərbaycanla Rusiya arasında qarşılıqlı fəaliyyətin müxtəlif sahələrdə gələcək inkişafında qarşılıqlı niyyət təsdiqlənib.

*Prezidentin Mətbuat Xidmətinin məlumatı*

# Azərbaycan Respublikasının Prezidenti Zati–aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Azərbaycan ərazisinin İran ərazisindən pilotsuz uçuş aparatları ilə hədəfə alınması və bunun nəticəsində hava məkanınızın pozulması barədə xəbərləri narahatlıqla izlədik. Bu, beynəlxalq hüququn prinsiplərinin və dövlətlərin suverenliyinə hörmət qaydalarının açıq şəkildə pozulmasıdır.

Sudan Respublikasının rəhbərliyi, hökuməti və xalqı adından qardaş Azərbaycan Respublikası ilə tam həmrəyliyimizi ifadə edir, ölkənizin suverenliyini, təhlükəsizliyini və sabitliyini qorumaq üçün atdığınız bütün qanuni addımları dəstəklədiyimizi bildiririk.

Uca Allahdan Azərbaycan Respublikasını qorumasını, ona təhlükəsizlik və sabitlik bəxş etməsini diləyirik.

Zati-alinizə ən yüksək ehtiramımızı və hörmətimizi bildiririk.

*Abdel Fattah Al-Burhan*
*Abdelrahman AL-BURHAN,*
*Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri*

# Baş nazir Kosta Rikanın Birinci vitse-prezidentini qəbul edib



**Baş nazir Əli Əsədov martın 11-də Azərbaycanda səfərdə olan Kosta Rika Respublikasının Birinci vitse-prezidenti Fransisko Qamboa ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, görüş zamanı F.Qamboanın 13-cü Qlobal Bakı Forumunda iştirakının əhəmiyyəti vurğulanıb.

Dünyada artan gərginlik və mürəkkəb geosiyasi proseslər fonunda forumun dialoqun təşviqi, qarşılıqlı etimadın möhkəmləndirilməsi və əməkdaşlığın genişləndirilməsi baxımından mühüm platforma rolunu oynadığı bildirilib.

Həmçinin Azərbaycan-Kosta Rika əlaqələrinin iqtisadi, investisiya, yaşıl enerji, humanitar və digər sahələrdə inkişaf perspektivləri müzakirə olunub.

Görüşdə BMT-nin Ticarət və İnkişaf Konfransının Baş katibi Rebeka Qrinspan da iştirak edib.

***XQ***

# “Diplomatik xidmətə qəbul üzrə müsabiqənin keçirilməsi Qaydaları”nın və “Diplomatik xidmətə qəbul olunmaq üçün müraciət etmiş şəxslərin sənədlərinin müsahibədən əvvəl yoxlanılması Qaydası”nın təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 331 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** “Diplomatik xidmətə qəbul üzrə müsabiqənin keçirilməsi Qaydaları” təsdiq edilsin *(əlavə olunur)*.

**2.** “Diplomatik xidmətə qəbul olunmaq üçün müraciət etmiş şəxslərin sənədlərinin müsahibədən əvvəl yoxlanılması Qaydası” təsdiq edilsin *(əlavə olunur)*.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 mart 2026-cı il**

# “Fövqəladə və səlahiyyətli səfir, birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbələri alan diplomatik xidmət əməkdaşlarına verilən vəsiqənin nümunəsi”nin təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 331 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

“Fövqəladə və səlahiyyətli səfir, birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbələri alan diplomatik xidmət əməkdaşlarına verilən vəsiqənin nümunəsi” təsdiq edilsin *(əlavə olunur)*.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 mart 2026-cı il**

***Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 11 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Fövqəladə və səlahiyyətli səfir, birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbələri alan diplomatik xidmət əməkdaşlarına verilən vəsiqənin

**N Ü M U N Ə S İ**




# Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma



**Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta martın 11-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Azərbaycan Respublikasının və Avropa İttifaqının bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanı Baş nazirin müavini Samir Şərifov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər qarşılayıblar.

# Estoniya Naxçıvana dron hücumunu pisləyib

**Estoniya Parlamenti İranın pilotsuz uçuş aparatı ilə Azərbaycanın Naxçıvan bölgəsinə etdiyi hücumu qınayıb.**

Azərbaycanın Estoniyadakı səfirliyindən verilən məlumata görə, Estoniya Parlamenti Naxçıvan bölgəsinə İranın pilotsuz uçuş aparatı ilə edilən hücumla əlaqədar bəyanat yayıb.

Bəyanatda qeyd olunur ki, Estoniya Parlamentinin Estoniya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupu martın 5-də Naxçıvan bölgəsinə İranın pilotsuz uçuş aparatı ilə edilən hücumla əlaqədar Azərbaycan xalqı ilə həmrəyliyini ifadə edir.

“Azərbaycana qarşı bütün hücumlar əsassızdır və yalnız münaqişənin gərginləşməsinə gətirib çıxaracaq. Mülki infrastruktura edilən hücumlar xüsusilə qəbuledilməzdir. Biz Azərbaycanda hücumdan zərər çəkmiş bütün şəxslərlə həmrəyliyimizi ifadə edir və Azərbaycanın bütün ərazisində sülhün dərhal bərpa olunmasını dəstəkləyirik”, – deyə bəyanatda bildirilib.

***XQ***

# Şəhidlərin xatirəsinə ehtiram



**Azərbaycanda rəsmi səfərdə olan Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta martın 11-də Şəhidlər xiyabanını ziyarət edib.**

Qonaq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçərək şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramını bildirib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən A.Koştaya Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

*AZƏRTAC*

# Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Azərbaycanda



**Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Jelka Tsviyanoviç martın 11-də Azərbaycan Respublikasına səfərə gəlib.**

Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşılayıblar.

*XQ*

# Əli Əsədov Beynəlxalq və Avropa idman qurumlarının prezidentləri ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov martın 11-də ölkəmizdə səfərdə olan Beynəlxalq Kanoe Federasiyasının prezidenti Tomas Konietzko və Avropa Kanoe Assosiasiyasının prezidenti Jan Zunqrana ilə görüşüb.**



Nazirlər Kabinetindən bildirilib ki, görüş zamanı idmanın inkişafının Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğu diqqətə çatdırılıb. Ölkəmizdə su idman növlərinin, xüsusilə avarçəkmənin inkişafı məqsədilə görülən işlər barədə məlumat verilib.

Səfər çərçivəsində Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası ilə Avropa Kanoe Assosiasiyası arasında imzalanacaq Anlaşma Memorandumunun əhəmiyyəti vurğulanıb.

Qonaqlar Azərbaycanda idmanın inkişafı istiqamətində həyata keçirilən tədbirlərin, eləcə də avarçəkmə üçün yaradılan əlverişli şəraitin onlarda böyük təəssürat yaratdığını bildiriblər.

*XQ*

# BMT nümayəndələri XİN-də

**Martın 11-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qlobal Bakı Forumunda iştirak məqsədilə ölkəmizdə səfərdə olan BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi və İslamofobia ilə mübarizə üzrə xüsusi elçisi Migel Angel Moratinos ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüş zamanı Azərbaycan və BMT-nin Sivilizasiyalar Alyansı arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, birgə həyata keçirilən layihələrin davam etdirilməsi və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.

Tərəflər Azərbaycan ilə BMT-nin Sivilizasiyalar Alyansı arasında mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi sahəsində mövcud əməkdaşlığın mühüm rolunu qeyd edib. Azərbaycanın Bakı Prosesi çərçivəsində və digər beynəlxalq təşəbbüslər vasitəsilə mədəniyyətlərarası dialoqa verdiyi töhfənin əhəmiyyəti vurğulanıb.

Nazir Ceyhun Bayramov, həmçinin postmünaqişə dövründə regional vəziyyət, Azərbaycanın sülh səyləri və Ermənistanla sülh prosesi barədə qarşı tərəfə məlumat verib.

Ali nümayəndə Migel Angel Moratinos Azərbaycanın mədəniyyətlərarası dialoq sahəsində beynəlxalq səviyyədə apardığı fəal və ardıcıl siyasəti yüksək qiymətləndirib. O, Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansı ilə əməkdaşlığının bundan sonra da uğurla həyata keçirilməsinin vacibliyini vurğulayıb və birgə təşəbbüslərin gələcəkdə də davam etdirilməsinə dəstəyini ifadə edib.

Tərəflər daha sonra Yaxın Şərqdə artan hərbi eskalasiyadan irəli gələn məsələləri müzakirə edib, mövcud vəziyyətdən narahatlıqlarını ifadə ediblər.

*

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov 13-cü Qlobal Bakı Forumunda iştirak məqsədilə ölkəmizdə səfərdə olan BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının Baş katibi Rebeka Qrinspan ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüşdə Azərbaycan və BMT əməkdaşlığının müxtəlif aspektləri və perspektivləri, eləcə də regional və beynəlxalq məsələlər, Yaxın Şərqdə vəziyyət və müharibənin qlobal iqtisadiyyata və ticarətə təsirləri müzakirə olunub.

Görüşdə ölkəmizin qlobal və regional enerji təhlükəsizliyində, ticarətdə, investisiyalarda, dayanıqlı inkişafda, iqtisadi şaxələndirmədə, kommunikasiya və nəqliyyat istiqamətində həyata keçirdiyi təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Azərbaycanın regional və qlobal ticarət əlaqələrinin genişləndirilməsi, nəqliyyat-logistika imkanlarının artırılması, ənənəvi və alternativ enerji layihələri və beynəlxalq ticarət marşrutlarının inkişafı istiqamətində həyata keçirilən siyasət barədə məlumat verib.

Bu çərçivədə ölkəmizin tranzit və logistika mərkəzi kimi rolunun gücləndirilməsi, həmçinin Orta Dəhliz çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyəti qeyd olunub.

Tərəflər həmçinin Yaxın Şərqdə artan gərginliyin və müharibənin doğurduğu fəsadları nəzərdən keçirib, mövcud vəziyyətdən narahatlıqlarını ifadə ediblər.

*XQ*

# Paşinyanın Strasburq çıxışında sülh gündəliyi və kilsə mübahisəsi

## *Baş nazir bəzi din xadimlərinin "müharibə partiyası"na rəhbərlik etdiyini bildirib*

**Ermənistanın Baş naziri Nikol Paşinyan martın 10-dan Fransada işgüzar səfərdədir. Hökumətin mətbuat xidmətinin yaydığı məlumata görə, Paşinyan həmin gün Parisdə keçirilən nüvə energetikası üzrə sammitdə iştirak edib.**

Eyni gündə Ermənistan Baş naziri Fransa Prezidenti Emmanuel Makronla görüşüb. Tərəflər Ermənistan–Fransa münasibətlərinin gündəliyində dayanan bir çox məsələləri müzakirə ediblər. Xüsusilə, siyasi dialoqun dərinləşdirilməsi, eləcə də iqtisadi və infrastruktur sahələrində birgə proqramların həyata keçirilməsi ilə bağlı məsələlər diqqət mərkəzində olub. Tərəflər həmçinin, regionda baş verən proseslər ətrafında fikir mübadiləsi apararaq, bölgədə sülh və sabitliyin möhkəmləndirilməsinə yönəlmiş ardıcıl səylərin davam etdirilməsinin vacibliyini vurğulayıblar. Paşinyan və Makron görüşdə Ermənistanla Avropa İttifaqı arasında əməkdaşlığın gələcək inkişaf perspektivlərini də müzakirə edib. Onlar bu çərçivədə müxtəlif istiqamətlər üzrə tərəfdaşlığın dərinləşdirilməsinin və birgə təşəbbüslərin səmərəli şəkildə irəli aparılmasının əhəmiyyətini qeyd ediblər.

Martın 11-də isə N.Paşinyan Strasburqda Avropa Parlamentinin sədri Roberta Metsola ilə görüşüb. Görüşdən sonrakı brifinqdə təhlükəsizlik məsələlərində Avropa İttifaqı ilə əməkdaşlıq barədə sualı cavablandıran Paşinyan bildirib ki, təhlükəsizliyin ən yaxşı təminatçısı sülhdür. Baş nazir xatırladıb ki, Ermənistan bu sahədə Avropa ölkələri, o cümlədən Fransa ilə əməkdaşlıq edir. Bundan başqa, Ermənistan Aİ-nin sülh aləti vasitəsilə iki dəfə dəstək alıb. Onun sözlərinə görə, Azərbaycanla bir müddət öncə əldə olunmuş sülh kontekstində də iş aparılır və xüsusilə infrastruktur sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları mövcuddur.

Paşinyan qeyd edib ki, "təhlükəsizlik" anlayışı tez-tez silah, ordu, xüsusi xidmət orqanları və sair ilə əlaqələndirilir: "Biz 30 ildən artıq müddətdə bu qavrayışla yaşamışıq. Lakin əsas problem və yanaşmadakı dəyişiklik təhlükəsizlik təminatları ilə bağlıdır. Mənim üçün aydındır ki, ən vacib təminat sülhdür. İkinci planda isə əməkdaşlıq, qarşılıqlı bağlılıq, iqtisadi əməkdaşlıq və qarşılıqlı fayda dayanır".

"Avropa Parlamenti ilə Ermənistan arasında münasibətlərin dərinləşdirilməsi üçün güclü siyasi iradə mövcuddur". Bunu isə AP-nin sədri Roberta Metsola bildirib. O, Ermənistanın təhlükəsizlik, ticarət və regional əməkdaşlıq sahələrində dialoqu inkişaf etdirmək niyyətini alqışlayaraq, Avropa tərəfinin də münasibətləri daha da genişləndirməyə hazır olduğunu qeyd edib: "Məhz buna görə də biz Ermənistanın Baş nazirini bura dəvət etmək istədik. Bu, mandat çərçivəsində atılan ilk addımdır".

Avroparlament sədri daha sonra deyib: "Bizim mövcudluğumuza gəldikdə isə, bu qərarlar Büro tərəfindən qəbul edilir. Biz bir neçə ay əvvəl Moldovada ofis açmaq qərarına gəldik. Həmin ofis "Şərq tərəfdaşlığı" proqramının bütün istiqamətlərini, o cümlədən Ermənistanı da əhatə edəcək".

Daha sonra AP deputatları qarşısında çıxış edən Paşinyan səsləndirdiyi fikirlər diqqəti cəlb edir. O deyib ki, Ermənistanda bəzi din xadimləri "müharibə partiyası"nın liderliyini öz üzərlərinə götürüblər: "2024-cü ilin mart–aprel aylarında biz Ermənistan dövlətçiliyinin sonuna gəlib çatmışdıq. Əgər Azərbaycanla sərhədlərin delimitasiyası ilə bağlı qərar qəbul edilməsəydi, bu gün Ermənistan müstəqil dövlət deyil, xarici hakimiyyətin idarətməsi altında olan bir ərazi olardı. Delimitasiya ilə bağlı qərar vermək çox çətin idi. Kilsəmizin faktiki rəhbərinin təşviqi ilə arxiyepiskoplardan biri (Tavuş yeparxiyasının həmin dövrdə rəhbəri olan Baqrat Qalstanyanı nəzərdə tutur–S.H.) Ermənistanda hərəkat başladaraq təkcə delimitasiyanın qarşısını almağa deyil, əslində, Qarabağ hərəkatını, yəni münaqişəni yenidən aktivləşdirməyə çalışırdı".



Paşinyan əlavə edib ki, onlar öz ətraflarına keçmiş prezidentləri, eləcə də Rusiya və Belarusa yaxın oliqarxları toplayaraq Ermənistanın maraqlarını üçüncü ölkələrə qurban verməyə çalışırlar.

* * *

Qeyd etmək lazımdır ki, Ermənistan Baş nazirinin Fransaya səfəri və Strasburqda AP tribunasından səsləndirdiyi fikirlər yalnız diplomatik protokol çərçivəsində baş verən hadisə kimi qiymətləndirilə bilməz. Bu çıxış həm Ermənistanın hazırkı siyasi kursunun izahı, həm də ölkə daxilində davam edən ideoloji qarşıdurmaya beynəlxalq auditoriya qarşısında verilən siyasi cavab kimi diqqət çəkir.

Parisdə keçirilən görüşlər daha çox iki ölkə arasında münasibətlərin mövcud gündəliyi ilə bağlı idi. Paşinyanla Makron arasında aparılan danışıqlarda tərəflərin regionda sülh və sabitliyin möhkəmləndirilməsi ilə bağlı ardıcıl səylərin davam etdirilməsinin vacibliyini vurğulaması hazırkı mərhələdə Cənubi Qafqazın beynəlxalq gündəmdə qalmaqda davam etdiyini göstərir.

Strasburqda Roberta Metsola ilə görüş və keçirilən brifinq də Ermənistan–Avropa İttifaqı münasibətlərinin hazırkı mərhələsinin müzakirəsi baxımından diqqət çəkir. Avropa tərəfinin Ermənistanla dialoqu təhlükəsizlik, ticarət və regional əməkdaşlıq kimi istiqamətlər üzrə genişləndirilməsinə hazır olduğunu bəyan etməsi, eyni zamanda, Moldovada açılacaq Avroparlament ofisinin "Şərq tərəfdaşlığı" çərçivəsində Ermənistanı da əhatə edəcəyinin bildirilməsi Brüsselin regiona marağının davam etdiyini göstərir.

Lakin Paşinyanın səfərinin ən vacib hissəsi onun AP-də etdiyi çıxış oldu. Baş nazir burada yalnız xarici siyasət və regional proseslər barədə danışmaqla kifayətlənmədi, həm də Ermənistan daxilində gedən siyasi mübarizəyə toxundu. Xüsusilə bəzi din xadimlərinin "müharibə partiyasına" rəhbərlik etdiyini deməsi və kilsənin müəyyən nümayəndələrinin delimitasiya prosesinə qarşı çıxaraq münaqişəni yenidən alovlandırmağa çalışdığını bildirməsi açıq siyasi mesaj kimi səsləndi.

Paşinyanın bu mövqeyi, əslində, son aylar Ermənistanda müşahidə olunan proseslərin davamı kimi qiymətləndirilə bilər. Baş nazirin fikrincə, ölkənin təhlükəsizliyi və dövlətçiliyi üçün əsas təminat sülh gündəliyidir və bu kursa qarşı çıxan qüvvələr Ermənistanı yenidən qarşıdurma siyasətinə sürükləməyə çalışırlar. Bu kontekstdə kilsənin bəzi nümayəndələrinin siyasi proseslərə aktiv müdaxilə etməsi və revanşist ritorikanı dəstəkləməsi hakimiyyət tərəfindən dövlət maraqları ilə ziddiyyət təşkil edən addım kimi təqdim olunur.

Diqqətçəkən məqam həm də ondan ibarətdir ki, Paşinyan bu fikirləri məhz Avropa Parlamentində səsləndirdi. Bu isə təsadüfi görünmür. Avropada, o cümlədən AP-də Erməni Apostol Kilsəsinə simpatiya ilə yanaşan və onun siyasi mövqelərinə müəyyən dəstək göstərən dairələrin mövcudluğu məlumdur. Paşinyanın çıxışı, müəyyən mənada, həmin çevrələrə ünvanlanmış mesaj kimi də qəbul edilə bilər. Baş nazir bununla Ermənistan daxilindəki proseslərin yalnız dini və ya mənəvi müstəvidə deyil, konkret siyasi məqsədlərlə bağlı olduğunu Avropa auditoriyasına izah etməyə çalışdı.

Bütövlükdə, Paşinyanın Strasburq tribunasından səsləndirdiyi fikirlər həm daxili siyasi mübarizənin beynəlxalq platformaya çıxarılması, həm də Ermənistanın sülh gündəliyinin müdafiəsi baxımından diqqətçəkən siyasi mesaj kimi qiymətləndirilə bilər. Bu çıxış eyni zamanda göstərdi ki, İrəvanda kilsə ilə hakimiyyət arasında davam edən polemika artıq təkcə daxili məsələ deyil, beynəlxalq siyasi müstəvidə də müzakirə olunan mövzulardan birinə çevrilməkdədir.

*Səxavət HƏMİD*
*XQ*

# Türk dünyası yeni geosiyasi mərhələnin astanasında

**Müasir beynəlxalq sistemin ən diqqətçəkən xüsusiyyətlərindən biri regional təşkilatların rolunun sürətlə artmasıdır. Qlobal güclər arasında rəqabət dərinləşdikcə, dövlətlər geniş regional platformalar vasitəsilə öz siyasi və iqtisadi mövqelərini möhkəmləndirməyə çalışırlar. Ankarada Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz ilə TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev arasında keçirilən görüş və Bakıda planlaşdırılan növbəti yüksək səviyyəli toplantı ətrafında verilən mesajlar məhz bu transformasiyanın əlaməti kimi oxuna bilər.**




Beynəlxalq sistem sabit deyil və regional təşkilatların funksiyası zamanla dəyişir. Son illər baş verən geosiyasi proseslər Türk Dövlətləri Təşkilatına münasibəti də əhəmiyyətli dərəcədə transformasiya edib. Əgər əvvəllər təşkilat daha çox mədəni diplomatiya aləti kimi qiymətləndirilirdisə, bu gün o, tədricən siyasi və iqtisadi koordinasiya platformasına çevrilmək istiqamətində irəliləyir. Təbii ki, transformasiyanın arxasında ilk növbədə dəyişən qlobal geosiyasi mühit dayanır. Ukrayna müharibəsi Avrasiya məkanında onilliklər ərzində formalaşmış iqtisadi və logistika sistemlərini ciddi şəkildə sarsıtdı. Şimal istiqamətindən keçən ənənəvi ticarət marşrutlarının bir hissəsi ya sanksiyalar, ya da təhlükəsizlik riskləri səbəbindən əvvəlki effektivliyini itirdi. Avropa ilə Asiya arasında əlaqələri təmin edən logistika xəritəsi yenidən nəzərdən keçirilməyə başlandı. Məhz bu məqamda Orta Dəhliz adlanan marşrutun strateji əhəmiyyəti sürətlə artdı. Orta Dəhliz Avrasiyanın yeni iqtisadi coğrafiyasını formalaşdıran əsas xətlərdən birinə çevrilmək potensialına malikdir. Çin və Mərkəzi Asiyadan başlayaraq Xəzər dənizi vasitəsilə Azərbaycan və Türkiyə üzərindən Avropaya uzanan bu xətt bir neçə türk dövlətinin strateji maraqlarını bir nöqtədə birləşdirir. Orta Dəhlizdə logistika, enerji, ticarət və geosiyasi təsir imkanları eyni anda kəsişir. Belə bir reallıq isə Türk dövlətləri arasında koordinasiyanın mahiyyətini dəyişir. Çünki Orta Dəhlizin effektiv işləməsi siyasi koordinasiya, infrastrukturun uyğunlaşdırılması və institusional əməkdaşlıqla bağlıdır.

Digər tərəfdən, enerji marşrutlarının yenidən formalaşması da Türk dünyasının geosiyasi əhəmiyyətini artıran mühüm amillərdən biridir. Avropanın enerji təhlükəsizliyi məsələsi Ukrayna müharibəsindən sonra yeni mərhələyə daxil oldu. Alternativ enerji mənbələri və marşrutları axtarışı sürətləndi. Elə bu prosesdə də Xəzər regionu və xüsusilə Azərbaycan Avropanın enerji strategiyasında daha mühüm rol oynamağa başladı. Bunlar isə birbaşa regionun digər türk dövlətləri ilə iqtisadi və nəqliyyat əməkdaşlığının əhəmiyyətini artırdı.

*

Cevdet Yılmazın "regional və qlobal proseslər fonunda koordinasiyanın gücləndirilməsi" haqqında söylədiyi fikir əslində bugünkü beynəlxalq sistemin mahiyyətini əks etdirən diplomatik formuladır. Hazırkı geosiyasi şəraitdə bu sözlərin arxasında daha dərin siyasi məntiq dayanır. Çünki Avrasiya məkanı hazırda yeni strateji balansın formalaşdığı bölgələrdən birinə çevrilir. Son illərdə qlobal siyasətdə müşahidə olunan əsas tendensiyalardan biri nəqliyyat və enerji marşrutları üzərində geosiyasi rəqabətin artmasıdır. Qlobal iqtisadiyyat logistika zəncirlərinin təhlükəsizliyi ilə müəyyən olunur. Pandemiya dövründə qlobal tədarük zəncirlərinin necə asanlıqla pozula bildiyi aydın şəkildə göründü. İqtisadi təhlükəsizliyə artıq nəqliyyat dəhlizlərinin təhlükəsizliyi, tranzit marşrutlarının şaxələndirilməsi və strateji logistika qovşaqlarına nəzarət kimi amillər də daxildir. Başqa sözlə, XXI əsrdə iqtisadi güc getdikcə daha çox coğrafiya ilə əlaqəli olur. Hansı aktor əsas tranzit xətlərinə nəzarət edirsə, o həm də regional iqtisadi proseslərə təsir imkanları qazanır. Azərbaycan və Türkiyə isə Avropa ilə Asiya arasında körpü rolunu oynayan əsas logistika qovşaqları kimi çıxış edir. Belə bir geosiyasi mozaikada hər bir ölkənin maraqları müəyyən nöqtədə kəsişir və həmin kəsişmə nöqtəsi əməkdaşlıq üçün yeni impuls yaradır. Məhz buna görə koordinasiya məsələsi strateji zərurət kimi ortaya çıxır. Əgər Türk dövlətləri nəqliyyat, enerji və ticarət sahəsində fəaliyyətlərini uyğunlaşdıra bilsələr, Avrasiya məkanında formalaşan yeni iqtisadi sistemdə daha güclü mövqe əldə edə bilərlər.

*

Azərbaycan Avrasiyanın strateji kəsişmə nöqtələrindən birində yerləşir. Xəzər hövzəsi, Cənubi Qafqaz və Anadolu arasındakı bu coğrafiya tarix boyu ticarət yollarının qovşağı olub. Müasir dövrdə isə bu mövqe yeni məzmun qazanır. Enerji kəmərləri, dəmir yolu layihələri və tranzit marşrutları Azərbaycanı yalnız regional deyil, həm də qlobal logistika xəritəsində mühüm aktora çevirib. Bakı–Tbilisi–Ceyhan və Cənub Qaz Dəhlizi kimi enerji layihələri, eləcə də Bakı–Tbilisi–Qars dəmir yolu kimi nəqliyyat infrastrukturu Azərbaycanın bu geoiqtisadi rolunu daha da möhkəmləndirib. Eyni zamanda, Bakı regionda siyasi dialoq üçün etibarlı platforma kimi qəbul olunur. Azərbaycanın son illərdə apardığı balanslı xarici siyasət kursu bu reputasiyanın formalaşmasında mühüm rol oynayıb. Rəsmi Bakı müxtəlif geosiyasi mərkəzlərlə – həm Qərb, həm Türkiyə, həm də Mərkəzi Asiya dövlətləri ilə – konstruktiv əməkdaşlıq modelini qorumağa çalışır.

Maraqlı və diqqət çəkən məqamlardan biri də Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üstelin Azərbaycana dəvəti ilə bağlı verilən mesajdır. Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz bunu Türk dünyasında həmrəylik və qardaşlığın təzahürü kimi qiymətləndirib. Diplomatik ritorikada bu cür ifadələr çox zaman yumşaq siyasi siqnal rolunu oynayır. Ankara uzun illərdir ki, Şimali Kiprin beynəlxalq səviyyədə nüfuzunu artırmaq istiqamətində diplomatik səylər göstərir. Şimali Kipr beynəlxalq hüquqi baxımdan məhdud tanınma statusuna malik olsa da, Türkiyə onu müxtəlif regional platformalarda təqdim etməyə və siyasi əlaqələrini genişləndirməyə çalışır. TDT platformasında Şimali Kipr nümayəndələrinin iştirakı Ankara üçün beynəlxalq legitimlik müzakirəsində yeni siyasi imkanların axtarışı kimi dəyərləndirilə bilər.

Digər tərəfdən, bu məsələ Türk Dövlətləri Təşkilatının gələcək institusional inkişafı baxımından da maraqlı nümunədir. Çünki hər bir regional təşkilat zamanla iqtisadi və ya mədəni platforma olmaqdan çıxaraq siyasi məsələlərin müzakirə edildiyi məkanlara çevrilir. Əlbəttə, bu prosesin sürətli və problemsiz şəkildə inkişaf edəcəyini gözləmək realist olmazdı. Türk Dövlətləri Təşkilatına daxil olan ölkələr fərqli iqtisadi modellərə, müxtəlif siyasi sistemlərə və fərqli xarici siyasət prioritetlərinə malikdirlər. Mərkəzi Asiya ölkələrinin bir qismi uzun müddət Rusiya və Çin kimi böyük güclərlə sıx iqtisadi və təhlükəsizlik əlaqələri çərçivəsində fəaliyyət göstərib. Türkiyə NATO üzvü olaraq Qərb təhlükəsizlik sisteminin bir hissəsidir. Azərbaycan isə öz xarici siyasətində balanslaşdırılmış və çoxşaxəli diplomatiya xəttini qorumağa çalışır. Belə müxtəlif geosiyasi reallıqlar fonunda vahid regional siyasət formalaşdırmaq, təbii olaraq, mürəkkəb prosesdir.



Digər tərəfdən, regional təşkilatların inkişaf tarixi göstərir ki, institusional inteqrasiya iqtisadi və geosiyasi zərurətlə irəliləyir. Avropa İttifaqının formalaşma prosesi də onilliklər ərzində mərhələli şəkildə inkişaf edib. Türk Dövlətləri Təşkilatı isə hələ nisbətən gənc institutdur və onun funksional potensialı tədricən genişlənir.

Son olaraq qeyd edək ki, əgər Türk dövlətləri nəqliyyat, enerji və ticarət sahəsində ortaq iqtisadi gündəlik formalaşdırmağa nail ola bilsələr, təşkilatın institusional çəkisi əhəmiyyətli dərəcədə arta bilər. Belə halda Türk Dövlətləri Təşkilatı tədricən Avrasiya məkanında formalaşan yeni regional əməkdaşlıq sisteminin mühüm elementlərindən birinə çevrilə bilər.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Cenevrədən səslənən bəşəri çağırışlar

## *BMT-də Bakı Təhlükəsizlik Forumunun qlobal əhəmiyyəti rəsmən təsdiqlənir*

**BMT İnsan Hüquqları Şurasının Cenevrədə keçirilən 61-ci sessiyası beynəlxalq təhlükəsizlik arxitekturasında yaranmış mühüm çağırışların müzakirəsi baxımından mühüm diplomatik platforma rolunu oynayır. Azərbaycanın BMT-nin Cenevrə bölməsi yanında daimi nümayəndəsi Qalib İsrafilov mötəbər sessiyada terrorizm, eləcə də insan hüquqları mövzusunda geniş konseptual məruzə ilə çıxış edib. Səsləndirilən tezislər aydın şəkildə nümayiş etdirir ki, dövlətlər radikalizmə qarşı aparılan əməliyyatlarda mütləq şəkildə koordinasiyalı, vahid yanaşma ortaya qoymalıdırlar.**



Terrorizm beynəlxalq sülhə, bəşəriyyətin sabitliyinə yönəlmiş ən təhlükəli, ən dağıdıcı mexanizmə çevrilib. Müasir epoxada ekstremist şəbəkələrin transmilliləşməsi, rəqəmsal texnologiyalardan istifadə imkanlarının həddən artıq genişlənməsi dövlətlərarası müştərək əlaqələrin formatını tamamilə yeniləməyi tələb edir. Aparılan tədbirlərin qeyd-şərtsiz beynəlxalq hüquq normalarına, xüsusən humanitar qanunların prinsiplərinə uyğunlaşdırılması zəruridir.

Silahlı münaqişələr, asimmetrik təhdidlər şəraitində azadlıqların qorunması kifayət qədər çətin xarakter daşıyır. Qanunsuz qruplaşmalar əsasən nəzarətsizlik, xaos, eyni zamanda, zəif idarəetmə mühitindən qidalanırlar. Ona görə həmin cinayətkar ünsürlərə qarşı yürüdülən metodlar daim qanunun aliliyini əsas rəhbər tutmalıdır. Əgər hərbi tədbirlər beynəlxalq humanitar qanunvericilik çərçivəsindən kənara çıxarsa, yaranacaq arzuolunmaz nəticələr yalnız radikalların ideoloji bazasını daha da gücləndirəcək.

Daimi nümayəndənin İsveçrədəki çıxışında xüsusi vurğulanan başlıca amil məhz həmin həssas hüquqi tarazlığın diqqətlə qorunmasıdır. Cenevrə konvensiyaları, təməl aktlar hər cür gərgin vəziyyətdə mülki əhalinin həyatının, rifahının müdafiəsini qəti şəkildə tələb edir. Qlobal miqyaslı hərbi, yaxud kəşfiyyat əməliyyatlarında dinc vətəndaşların maraqlarının zədələnməməsi ali şərtdir. Yalnız legitim üsullara, ədalətli mühakimə prinsiplərinə söykənən preventiv strategiyalar uzunmüddətli davamlı sülh formalaşdıra bilər. Diplomatın ortaq təcrübə mübadiləsi, texniki bacarıqların inkişaf etdirilməsi zərurətini vurğulaması qlobal qorunma arxitekturasında dövlətlərarası sıx inteqrasiyanın qaçılmazlığını tam isbatlayır.

Cari qlobal konyuktur fonunda Azərbaycan dünya miqyaslı təşəbbüslərin mərkəzi ölkəsi statusunu getdikcə genişləndirir. Dövlətimizin ali rəhbərliyinin iradəsi ilə təşkil olunan 3-cü Bakı Təhlükəsizlik Forumu həmin məqsədyönlü fəaliyyətin ən bariz nəticəsidir. Konfrans 80-dən çox xarici dövlətin kəşfiyyat, həmçinin xüsusi xidmət orqanlarının yüksək rütbəli rəhbərlərini vahid platformada cəmləşdirməyi bacarıb. Həmin genişmiqyaslı, fərqli coğrafiyaları əhatə edən iştirakçı siyahısı paytaxt Bakının artıq qlobal geostrategiyanın formalaşdığı mərkəzi qovşaq halına gəldiyini birmənalı təsdiqləyir.

Forumun diplomatik mövqeyini əhəmiyyətli dərəcədə artıran ən önəmli tarixi detallardan başlıcası Ermənistanın xüsusi xidmət qurumları təmsilçilərinin həmin masada iştirakıdır. Sadalanan proseslər rəsmi Bakının sülh gündəliyinə sadiqliyini, müxtəlif tərəfləri konstruktiv dialoqa cəlb etmək qüdrətini bəşəriyyətə mühüm şəkildə sübut edir. Dünyanı bürüyən təhdidlərə qarşı ortaq müqavimət xəttinin təşkili, keçmiş ixtilafları arxada qoyaraq bəşəri maraqlar ətrafında toplanmağı tələb edir.

Forumun gündəliyində xüsusi yer tutan kiber təhlükələr, ekstremizm fəaliyyətləri, o cümlədən humanitar böhranların qabaqlanması kimi taleyüklü problemlər bilavasitə sivilizasiyanın gələcəyini maraqlandıran son dərəcə həssas mövzular idi. Rəqəmsallaşma erasında terrorçular daha qəliz alətlərə yiyələnərək ənənəvi fiziki sərhədləri sürətlə, asanlıqla aşa bilirlər. Haker hücumları vasitəsilə mühüm dövlət infrastrukturlarının iflic edilməsi, məxfi dövlət sirlərinin rəqəmsal məkanda ələ keçirilməsi, bank-maliyyə sistemlərinin kütləvi çökdürülməsi kəşfiyyat orqanları üçün virtual müharibə cəbhəsi açıb. Belə yüksək intellektual texnoloji dalğaları dəf etməkdən ötrü klassik hərbi müdafiə sistemləri artıq yetərsiz hesab olunur.

Cinayətkar əməllərin, intensiv toqquşmaların davamlı nəticəsi qismində ortaya çıxan dərin humanitar böhranlar kütləvi miqrasiya axınlarına, təbii resursların məhvinə, saysız-hesabsız itkilərə birbaşa yol açır. Gərginlik zonalarından uzaqlaşaraq sakit ölkələrdə sığınacaq axtaran kütlələrin hərəkəti təyinat ölkələrində də sosial, iqtisadi balansızlıqları sürətləndirir. Sadalanan amillərin hamısı silsilə xarakteri daşıyaraq tam şəkildə qlobal nizamı dərindən sarsıdır.

BMT-nin məşhur tribunasından dünyaya ötürülən mühüm bəyanatlar birmənalı vurğulayır ki, humanitar hüquq normaları mütləq qüvvəsini saxlamalı, dinc sakinlərin təhlükəsiz yaşayışı eqoist siyasi iddialara qətiyyən qurban verilməməlidir. Azərbaycan dövləti uzun onilliklər ərzində xarici işğalın, humanitar fəlakətlərin, məcburi köçkün iztirablarının ən ağır miqyasını bilavasitə yaşamış respublika kimi mövcud vəziyyətlərə xüsusi, dərindən həssaslıq nümayiş etdirir. Ölkəmizin rəsmi beynəlxalq diskussiyalarda nümayiş etdirdiyi fəallıq yalnız köhnəlmiş nəzəri konseptlərə əsaslanmır, real acı təcrübədən yaranan güclü analitik bacarığa söykənir.

Qütbləşən güc mərkəzləri arasında cərəyan edən fasiləsiz mövqe toqquşmaları, idarəetmə uğrunda aparılan amansız informasiya savaşları regional ölkələrin fəaliyyətinə əlavə məsuliyyət yükləyir. Dünyada hökm sürən etimadsızlıq konyunkturunda Bakının belə ali statuslu, mürəkkəb formatlı tədbirlərə yüksək peşəkarlıqla ev sahibliyi etməsi ölkəmizin diplomatik çəkisinin miqyasını, qlobal imicini gücləndirir. Diplomatik korpusun Cenevrə çıxışında aydın görünür ki, qarşılıqlı inama, daimi ünsiyyətə, ortaq hesabata əsaslanan koalisiyalar istənilən qəliz problemin çözülməsində həlledici mərkəz funksiyasını daşıyır.

Beynəlxalq qurum rəsmisinin şərhləri Azərbaycanın qlobal sabitlik zəncirində əvəzolunmaz strateji həlqə mövqeyinə tamamilə yiyələndiyini aydın təsdiqləyir. 61-ci iclas çərçivəsində auditoriyaya çatdırılan məlumatlar baş tutan forumun beynəlxalq arenada buraxdığı praktiki, səmərəli izi aydın göstərir. Praqmatik, uzaqgörən xarici siyasət kursu yürüdən respublikamız təhlükəsizliyin tam bölünməzliyi tezisini davamlı rəhbər tutur.

Rəsmi dövlət strukturlarının Cenevrə formatında nümayiş etdirdiyi uğurlu konyunktura respublikamızın ali diplomatik cəbhədəki mövqeyini göstərir. Qlobal oyunun yeni qanunlarını, müdafiə parametrlərini diktə edən aparıcı mərkəz kimi formalaşmaq ölkəmizin təkzibedilməz uğurudur. İnsan hüquqlarının, ləyaqətin qorunmasının davamlı müdafiə sistemlərinin fəaliyyəti ilə harmonik uzlaşması Bakının qlobal ictimaiyyətə təqdim etdiyi mürəkkəb konseptin əsasını təşkil edir.

Təşkil edilən kəşfiyyat platformalarının əldə etdiyi beynəlxalq dəstək BMT iclaslarındakı ali çağırış müştərək əməliyyatların da sağlam, sarsılmaz fundament üzərində inkişaf tapacağını inamla bəyan edir. Bütün sivil dövlətlər həmin ortaq bəşəri fəlsəfəni, qaydaları qeyd-şərtsiz rəhbər tutmaqla ümumi cəmiyyəti fəlakətlərdən qorumaq iqtidarında olduqlarını təsdiqləyirlər. Bəşəriyyəti cəhalətdən qorumağın qızıl düsturu, davamlı çoxtərəfli dialoq xəttinə birmənalı sadiq qalmaqdır. Respublikamız regionun mübahisəsiz lokomotivi mövqeyində ali ideyaların qarantı rolunu daimi şəkildə uğurla gerçəkləşdirəcək.

*Yusif ŞƏRİFZADƏ*
*XQ*

# Azərbaycanın bölgədə önəmini Aİ yaxşı anlayır

## *Yaxud Antonio Koştanın Bakıya ilk səfərinin əsl səbəbləri barədə*

**Bölgədə və dünyada cərəyan edən hadisələrin xarakteri bir çox ölkələrə, eləcə də beynəlxalq birlik və institutlara Cənubi Qafqaza yanaşma metodlarında bəzi korrektələr etmələrini zərurətə çevirib. Tam əminliklə yaza bilərik ki, bunu Azərbaycanın yaratdığı yeni reallıq tələb edir. Xarici aktorların bu bölgədə maraqlarını təmin etməsi Azərbaycanın iştirakı olmadan mümkün deyil. Bu baxımdan Avropa İttifaqının da Yaxın Şərqdə sürətlə dəyişən geosiyasi şəraitdə Cənubi Qafqazda təsirlərini artırmaq məqsədilə atdığı son addımları maraqla izlənməkdədir. "Qoca qitə"nin ən nüfuzlu siyasi qurumunun rəhbərlərinin Bakı istiqamətində intensivləşən səfərləri məhz bu aspektdən dəyərləndirilməlidir.**



Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın Azərbaycana ilk rəsmi səfərini də qeyd etdiyimiz reallıq kontekstində nəzərdən keçirməyimiz daha doğru olar. Aİ Şurasının yaydığı məlumatda deyilir ki, səfər çərçivəsində A.Koşta Azərbaycan hökumətinin yüksək səviyyəli nümayəndələri ilə bir sıra görüşlər keçirəcək. Azərbaycanın Aİ üçün strateji əhəmiyyətə malik tərəfdaş olduğu vurğulanan məlumatda enerji sahəsində əməkdaşlığın enerji təchizatının şaxələndirilməsi və enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində birgə səylər baxımından mühüm rol oynadığı qeyd olunur. "Görüş, həmçinin Yaxın Şərqdə sürətlə dəyişən geosiyasi vəziyyəti müzakirə etmək üçün imkan yaradacaq. Avropa İttifaqı Azərbaycan hökuməti və xalqı ilə tam həmrəylik nümayiş etdirir", - məlumatda qeyd olunub.

Dünən Azərbaycan Prezidenti İlham Əliyevlə təkbətək görüşündən sonra Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta mətbuata bəyanatında Azərbaycanın Avropa vətəndaşlarının İrandan təxliyəsində əvəzsiz yardım göstərməyini yüksək qiymətləndirdiyini bildirdi. A.Koşta bu gün regionda çox çətin bir geosiyasi prosesin getdiyini, Avropa İttifaqının Azərbaycan xalqı ilə tam həmrəylik ifadə etdiyini vurğuladı.

"Biz sizin (Antonio Koşta – red.) səfərinizə böyük əhəmiyyət veririk və əminəm ki, bu, bizim ikitərəfli münasibətlərimizin inkişafına böyük töhfə verəcək. Onlar uğurla inkişaf edir, xüsusilə son dövrlərdə. Bizim çox fəal dialoqumuz var". Bu sözləri Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ilə mətbuata bəyanatında deyib. Dövlətimizin başçısı, həmçinin qeyd edib ki, hazırda Azərbaycan–Aİ əməkdaşlığı özünün çox fəal mərhələsindədir.

Oxuculara xatırladaq ki, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər 1999-cu ildən qüvvədə olan Avropa İttifaqı–Azərbaycan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə əsaslanır. Avropa İttifaqı Azərbaycanda əsas investor və ölkənin ən böyük ticarət tərəfdaşlarından biridir. Antonio Koştanın Azərbaycana səfəri Aİ ilə Azərbaycan arasında münasibətlərin strateji xarakter daşıdığını göstərir. Son illər Avropa üçün enerji təhlükəsizliyi məsələsi prioritetə çevrildiyindən Azərbaycan bu kontekstdə mühüm tərəfdaş kimi ön plana çıxır.

Xüsusilə Avropanın enerji mənbələrini şaxələndirmək siyasəti fonunda Azərbaycan qazının rolu artmaqdadır. Bu baxımdan səfərin əsas mövzularından birinin enerji əməkdaşlığının genişləndirilməsi olacağı gözlənilir. Bakı Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirməyə çalışdığı halda, Brüssel də regionda sabit və dayanıqlı enerji marşrutlarının qorunmasında maraqlıdır.

Aİ Şurası Prezidentinin Bakı səfəri regional geosiyasi vəziyyətin müzakirəsi baxımından da önəmlidir. Son vaxtlar Yaxın Şərqdə, ümumilikdə Avrasiya coğrafiyasında yaşanan hərbi-siyasi gərginliklər fonunda Cənubi Qafqazın rolu daha da artıb. Məhz bu səbəbdən Aİ bölgənin lideri olan Azərbaycanla münasibətləri dərinləşdirməyə və regiondakı proseslərlə bağlı koordinasiyalı fəaliyyət aparmaqda maraqlıdır.

Ümumilikdə, Koştanın Bakıya səfəri təkcə diplomatik protokol xarakterli görüş deyil. Bu səfər enerji, ticarət və təhlükəsizlik sahələrində əməkdaşlığın daha da genişlənməsi üçün yeni imkanlar yarada və tərəflər arasında strateji tərəfdaşlığın növbəti mərhələsinə təkan verə bilər.

Birmənalı olaraq deyə bilərik ki, Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyub. 2022-ci ildə imzalanan memoranduma əsasən Aİ-nin Azərbaycanı özünün əsas enerji tərəfdaşlarından biri hesab edir. Burada xüsusən Ukrayna müharibəsi mövzusunda Qərbin enerji resurslarına ehtiyacı rol oynayır: "Azərbaycan Avropa Birliyinin 10-dan artıq üzv ölkəsinə enerji ixrac edir. Hazırda Hörmüz boğazının bağlanması riski var və regionda eskalasiya şiddəti artmaqdadır. Bu da Avropa İttifaqının enerji resurslarına ehtiyacını artırır. Antonio Koştanın məhz belə bir ərəfədə Bakıya səfəri xüsusi əhəmiyyətə malikdir. Görüşdən əvvəl verdiyi açıqlamada Aİ Şurasının Prezidenti mövcud müharibə şəraitinin regionun böyük qismini əhatə etdiyini, amma Azərbaycan və Türkiyənin neytral qalmağa çalışdığını bəyan etməsi ölkəmizin ittifaq üçün cəlbedici olduğu və xüsusi önəm daşıdığı anlamına gəlir.

Baxmayaraq ki, Azərbaycanın Avropa Şurası və Avropa Parlamenti ilə əlaqələri korlanıb, fəqət Brüssel Bakı ilə enerji sahəsində əməkdaşlığı genişləndirməkdə maraqlıdır. Son vaxtlar Avropa Komissiyasının Azərbaycanla münasibətləri inkişaf etdirməyə meyilləndiyi də nəzərdən yayınmayıb. Komissiya rəhbəri Ursula fon der Lyayenin Bakıya ötənilki səfərində strateji qaz müqaviləsi imzalaması ilə Antonio Koştanın bu səfərini eyni kontekstdə dəyərləndirmək mümkündür. Sirr deyil ki, Aİ Cənubi Qafqazda öz təsirini artırmağa çalışır. Onun Ermənistanla əlaqələri genişləndirməsinin arxasında bölgədə Rusiyanın boşalan yerini doldurmağa hesablandığı da təbii qəbul edilə bilər.

Beləliklə, Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın Bakıya ilk səfəri çərçivəsində Azərbaycan Prezidenti ilə yüksək səviyyəli danışıqlar aparacağı gözlənilir. Nəzərə alaq ki, Avropa İttifaqı Rusiyaya 20-ci sanksiyalar paketini tətbiq edib və onun neft-qaz ehtiyatlarından asılılığı tam azaltmaq niyyətindədir. Bu da Brüssel üçün alternativ bazarlar axtarışına çıxmağı və əlaqələri dərinləşdirməyi qaçılmaz edir. Hazırda Azərbaycan qazı Cənub Qaz Dəhlizinin bir hissəsi olan Transadriatik boru kəməri vasitəsilə Avropaya ixrac olunur. Bu kəmərin ilkin ötürücülük gücü illik 10 milyard kubmetrdir. Ancaq gələcəkdə 20 milyard kubmetrədək artırılması planlaşdırılır.

Onu da qeyd edək ki, Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın bu gün öz işinə başlayacaq XIII Qlobal Bakı Forumunda iştirak edəcəyi gözlənilir.

***İmran BƏDİRXANLI***
***XQ***

**Avropa İttifaqının Azərbaycan–Ermənistan sərhədində keşik çəkən EUMA abreviaturalı mülki müşahidə missiyasında toy-bayramdır. Elə düşünməyin ki, qurumun yeni rəhbəri, finlandiyalı polis Satu Koivu özünün vəzifəyə təyinatını qeyd edir. Səbəb başqadır. Sən demə, EUMA 8000-ci patrul reydini həyata keçiribmiş. Ortada gülməli durum var.**

# 8 mininci şütümə, yaxud EUMA üçün nekroloq əvəzi

## *Avropa İttifaqının Ermənistandakı missiyasına "binoklsuz" baxış*

Təsəvvür edin, bir tərəfdə Azərbaycan və Ermənistan barış sazişini paraflayıb, yekun sülh müqaviləsinin imzalanması istiqamətində addımlar atır, üstəlik, ölkələr arasında ticarət əlaqələri formalaşıb, digər yanda Aİ-nin binokllu müşahidəçiləri 8000-ci partul reydinin təntənəsinə toplaşıblar. Amma səhnə gülməli olduğu qədər də, düşündürücüdür.

Tam adı European Union Mission in Armenia (EUMA) olan qurum 2023-cü il fevralın 20-də Aİ-nin ümumi təhlükəsizlik və müdafiə siyasəti çərçivəsində fəaliyyətə başlamış beynəlxalq mülki müşahidə missiyasıdır və əsasən Ermənistan-Azərbaycan sərhədi boyunca vəziyyəti izləmək məqsədi daşıyır. Onun yaradılmasına dair qərar isə həmin ilin yanvarında Aİ Şurası tərəfindən qəbul olunub. Müəyyən vaxtlarda müşahidəçilərin özləri üçün sərhədyanı ərazilərin əhalisi ilə danışıqlar aparmaq, onların, guya qorxularını azaltmaq istiqamətində işlər görmək vəzifəsini də qondardıqlarını bilirik...

Onu da deyək ki, missiya Ermənistan hökumətinin rəsmi müraciəti əsasında regiona yerləşdirilmiş təsisatdır. Müraciətin isə səbəbi var. Ermənistan silahlı qüvvələri 2022-ci ilin payızında sərhəddə təxribat törətmişdilər və bunun nəticəsində qarşıdurma qeydə alın-



mışdı. O qarşıdurma ki, rəsmi İrəvan və ona yaxın dairələr sonradan onu Azərbaycanın müstəqil Ermənistanın ərazilərinə təcavüzü kimi qiymətləndirmişdilər. Bu yanaşma Rusiyanın və Moskvanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının rolunu heçə endirməyə hesablanmışdı. Yəni Ermənistan Fransa ilə birgə Aİ-nin təhlükəsizlik patronajını işə salmağa girişmiş və yekun nəticədə EUMA-nı ərsəyə gətirmişdilər.

Qeyd edək ki, Azərbaycan əvvəldən EUMA-nı qəbul etməmişdi. Rəsmi Bakı onun fəaliyyətini regiona kənar müdaxilə qismində qiymətləndirmişdi. Həqiqətən, belə bir müdaxilə niyyəti olmuşdu. Qarabağda separatçı rejimin mövcudluğu şəraitində avropalı müşahidəçilər ölkəmizin, bir növ, əl-qolunu bağlamalı idilər. Plan belə idi: separatçı rejim qalacaq, buna qarşılıq Azərbaycan sərhəd zonasına yaxın ərazilərdə hansısa addımlar atacaq və EUMA ölkənin işğalçı obrazını formalaşdıracaq.

Ancaq plan baş tutmadı. Çünki Azərbaycan səbir və təmkinlə davrandı, böyük diplomatik bacarıq və qətiyyət nümayiş etdirdi. Silahlı Qüvvələrimizin 2023-cü ilin sentyabrında reallaşdırdığı lokal xarakterli antiterror tədbirləri ilə ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası Ermənistanın və havadarlarının bütün hesablamalarını alt-üst etdi. Beləliklə, EUMA-nı silahlı qruplaşma halına gətirmək istiqamətindəki düşüncələrə son qoyuldu. Əlbəttə, rəsmi İrəvan və dəstəkçilərinin Aİ-nin müşahidə missiyasını Azərbaycan-Ermənistan nizamlamasında birinciyə təzyiq kimi istifadə etmək, qurumu vasitəçiyə çevirmək niyyətlərinin mövcudluğunu vurğulamalıyıq. Yəni bu istəklər də həyata keçmədi.

Bəli, Azərbaycan özünün düşünülmüş siyasəti ilə EUMA-nı tam şəkildə neytrallaşdırdı, ona bəslənilən ümidləri puça çıxardı. Qurumun konkret mandatına isə Ermənistan–Azərbaycan sərhədinin Ermənistan tərəfində vəziyyəti müşahidə etmək və hesabat hazırlamaq, sərhəd bölgələrində sabitlik və təhlükəsizliyə töhfə vermək, münaqişədən zərər görmüş ərazilərdə insan təhlükəsizliyini gücləndirmək, Ermənistan və Azərbaycan arasında etimadın formalaşmasına kömək göstərmək, həmçinin regionda normallaşma prosesinə uyğun mühit yaratmaq daxildir ki, EUMA nə indi, nə də əvvəllər sadalanan istiqamətlər üzrə əməli fəaliyyət gerçəkləşdirib. Onun real fəaliyyəti Azərbaycan mövqelərinin müşahidəsini aparıb kəşfiyyat məlumatlarını Ermənistan ordusuna ötürmək və şütümək olub ki, buna sonda qayıdacağıq.

EUMA-nın bütün fəaliyyəti tam səmərəsizliyi ilə yadda qalıb. Bir məqamı da vurğulayaq ki, tərkibi 200-dən çox beynəlxalq və yerli əməkdaşdan, yəni Aİ-nin 25 ölkəsindən, o cümlədən Fransadan və Almaniyadan, həmçinin Kanadadan cəlb edilmiş keçmiş polislərdən ibarət missiyanın səlahiyyət müddəti lap əvvəl bir neçə aylıq idi. Lakin sonradan 2 illik müddət müəyyənləşdi. 2025-ci ilin yanvarında isə Aİ Şurası onun mandatını 2027-ci il fevralın 19-dək uzatdı. Bu dövr üçün missiyaya 44 milyon avrodan çox büdcə də ayrıldı.

Vacib məqamlardan biri də odur ki, EUMA-nın mövculuğu Cənubi Qafqazda münaqişə məntiqini vurğulayır. Söhbət, ilk növbədə, Azərbaycan və Ermənistan arasındakı konfliktli durumdan gedir. Halbuki rəsmi Bakının mövqeyi münaqişə məntiqini qəbul etmir və etməyib. Digər tərəfdən, EUMA regionda Qərb-Rusiya rəqabəti, Ermənistanın geosiyasi kursu və Azərbaycan-Ermənistan münasibətlərinin gələcəyi ilə sıx bağlı olan strateji element kimi də qiymətləndirilir. Bütün bunlara görə də Azərbaycan qurumun ləğvini tələb edir. Nəzərə alaq ki, onun qalması Bakı və İrəvan arasındakı etimad quruculuğuna da zərərdir.

Sonda yenidən EUMA-nın 8000-ci patrul reydinə qayıdaq. Daha doğrusu, şütümək məsələsinə. Məlumdur ki, qurumun təmsilçilərinin işi-gücü "pikap" avtomobillərlə hələlik tam dəqiqləşdirilməmiş sərhədin bir başından o biri başına şütümək və yol boyu "piknik"lər təşkil etmək olub. Missiyanın ləğvinə gəlincə, ötən il avqustun 8-də Azərbaycan və Ermənistan arasında Vaşinqtonda Birgə Bəyannamənin imzalanmasından sonra bunun baş verəcəyi bildirilirdi. Ancaq o da məlumdur ki, rəsmi İrəvan məsələni öz başına həll etmək iqtidarında deyil. Çünki EUMA onun iradəsindən kənardır, Fransanın ixtiyarındadır. Hər ehtimala deyək ki, baş nazir Nikol Paşinyanın təsisatın ləğvi ehtimalını nəzərdə tutan açıqlaması da var. O demişdi ki, EUMA fəaliyyətini Azərbaycan-Ermənistan sərhədinin tam dəqiqləşməsindən sonra dayandıracaq. Dəqiqləşmə prosesi isə davam edir. Ona görə də EUMA 8000-ci patrul reydini şadyanalıqla qarşılasın. Necə deyərlər, dəliyə hər gün bayramdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Yeni dünya düzəninin özünəməxsus nişanələri

*(əvvəli 1-ci səhifədə)*

(əvvəli 1-ci səhifədə)

Asiya regionunda da oxşar proseslər müşahidə edilir. Xüsusilə Hindistan daxilində dini və milli azlıqların hüquqları ilə bağlı məsələlərin beynəlxalq platformalarda müzakirəyə çıxarılması bir sıra hallarda siyasi gərginlik yaradır. Etnik azlıqların hüquqları ilə bağlı iddiaların beynəlxalq konfranslarda və hüquq müdafiə platformalarında səsləndirilməsi bəzi siyasi dairələr tərəfindən daxili işlərə müdaxilə kimi qiymətləndirilir və nəticədə bu mövzunu gündəmə gətirənlərə qarşı təzyiq halları artır. Oxşar vəziyyət Pakistan, Şri-Lanka və Myanma kimi ölkələrdə də etnik və dini azlıqların hüquqları ilə bağlı beynəlxalq müzakirələr zamanı müşahidə olunur. İnsan hüquqları ilə bağlı müzakirələr çox vaxt siyasi alət kimi təqdim edilir və mövzunu qaldıran tərəflər müxtəlif formalarda təzyiqlə üzləşirlər.

Cənubi Qafqaz regionunda da oxşar tendensiyalar qeydə alınır və bu kontekstdə Azərbaycanın fəaliyyəti xüsusi diqqət çəkir. Son illər ölkəmizin beynəlxalq hüquqa əsaslanan mövqeyi, postmünaqişə dövründə suverenlik məsələlərində sərt xətt yürütməsi və neokolonializmə qarşı təşəbbüslərə dəstək verməsi müxtəlif informasiya və siyasi təzyiq kampaniyaları ilə müşayiət olunur. Həmin kampaniyalar bir sıra hallarda insan hüquqları, demokratiya və təhlükəsizlik məsələləri ilə əsaslandırılsa da, proseslərin müqayisəli təhlili göstərir ki, məsələdə qərəz var. Halbuki müstəmləkəçiliklə mübarizədə aktiv iştirak edən Bakı Təşəbbüs Qrupunun (BTQ) fəaliyyəti ətrafında baş verən hadisələr müasir neokolonial təzyiq mexanizmlərinin pərdəarxasını ifşa edir. BTQ müxtəlif regionlarda milli və dini azlıqların hüquqlarının müdafiəsi, kolonial siyasətin nəticələrinin araşdırılması və beynəlxalq hüququn prinsiplərinin tətbiqi istiqamətində tədbirlər təşkil edir. Sözügedən fəaliyyət çərçivəsində yanvarın 16-da Bakıda "Hindistanda siqhlərə və digər milli azlıqlara qarşı irqçilik və zorakılıq: mövcud reallıqlar" mövzusunda beynəlxalq konfrans keçirildi. Tədbirdə müxtəlif ölkələrdən ekspertlər, hüquq müdafiəçiləri və ictimai xadimlər iştirak edirdi. Onlar Hindistanda siqh icmasının və digər azlıqların hüquqları ilə bağlı mövcud vəziyyəti müzakirə etmişdilər. Tədbirin yekununda qəbul edilən birgə bəyanatda diskriminasiya və zorakılıq halları ilə bağlı beynəlxalq mexanizmlərin daha fəal tətbiqinin vacibliyi qeyd olunmuşdu. Lakin konfransdan dərhal sonra baş verən hadisələr bu mövzunun nə qədər həssas və siyasi baxımdan riskli olduğunu bir daha göstərdi. BTQ-dən verilən məlumata görə, qrupun rəqəmsal infrastrukturu kiberhücumlara məruz qalıb. Hücumların məqsədinin qurumun fəaliyyətini zəiflətmək və onun beynəlxalq təşəbbüslərinin qarşısını almaq olduğu ehtimal edilir. Ümumən, kibertəhlükəsizlik sahəsində aparılan araşdırmalar göstərir ki, bu tip hücumlar çox vaxt siyasi motivli informasiya qarşıdurmasının tərkib hissəsi kimi istifadə olunur və əsas hədəf təşkilatın nüfuzuna zərbə vurmaqdır. Maraqlıdır ki, təzyiq halları bununla da məhdudlaşmayıb. Konfransda iştirak edən və siqh icmasının hüquqları ilə bağlı çıxış edən şəxslərdən biri "Sikh Federation Canada" təşkilatının sədri Bual Moninder tədbirdən sonra özünə və ailəsinə qarşı ölüm təhdidləri aldığını açıqlayıb. Belə halların baş verməsi göstərir ki, milli və dini azlıqların hüquqları ilə bağlı məsələlərin beynəlxalq gündəmə çıxarılması bəzi hallarda ciddi təhlükəsizlik riskləri yaradır və mövzunu qaldıran şəxslər hədəfə çevrilirlər.

Sonda qeyd edək ki, Azərbaycanın beynəlxalq platformalarda bu məsələləri açıq şəkildə gündəmə gətirməsi ölkəni informasiya qarşıdurmasının əsas hədəflərindən birinə çevirir. Xüsusilə kolonializm və neokolonializm mövzusunun müxtəlif regionlardan olan icmaların iştirakı ilə müzakirəsi bəzi dairələr tərəfindən geosiyasi maraqlara zidd addım kimi qiymətləndirilir və nəticədə ölkəyə qarşı tənqid kampaniyaları intensivləşir. Bu kampaniyaların xarakteri göstərir ki, müasir mərhələdə siyasi təzyiq həm də media, kiberməkan və ictimai rəy vasitəsilə həyata keçirilir.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Azər HƏSRƏT,**
**siyasi şərhçi**

Dünyada informasiya və kommunikasiya texnologiyaları sahəsi ilə bağlı ilk nazirlik Hindistanda yaradılıb. Bu məqamı ona görə xatırladırıq ki, son dövrlər bu istiqamətdə baş verən hadisələrin arxasında, xüsusilə də Bakının fəaliyyətinə mane olmağa çalışan qüvvələr arasında Hindistanın olması ehtimalı kifayət qədər yüksəkdir. Ümumiyyətlə, bu ölkədə yeni texnologiyalar sahəsində çox sürətli inkişaf müşahidə olunur. Bu istiqamətə böyük həcmdə vəsait ayrılır, dövlət səviyyəsində ciddi dəstək göstərilir. Təsadüfi deyil ki, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən aparıcı informasiya və kommunikasiya texnologiyaları şirkətlərində çox sayda hindistanlı mütəxəssis çalışır. Bu səbəbdən, qlobal miqyasda informasiya və kommunikasiya texnologiyaları sahəsində baş verən proseslərə baxdıqda, bir çox hallarda proseslərin içində Hindistanla bağlı şəxslərin və ya strukturların iştirakını görmək mümkündür. Ona görə hesab edirəm ki, Bakı Təşəbbüs Qrupunun irəli sürdüyü təşəbbüslərdən sonra baş verən hücumların Hindistanla əlaqəli olması ehtimalı istisna deyil. Əgər söhbət Hindistan ərazisində və ya Hindistan əhalisi ilə bağlı problemlərin gündəmə gətirilməsindən gedirsə və Azərbaycan bu məsələləri beynəlxalq səviyyədə ictimailəşdirirsə, təbii olaraq bundan ən çox narahatlıq keçirənlərdən biri Hindistan ola bilər. Belə hallarda həmin ölkənin müxtəlif vasitələrlə təzyiq göstərməyə və ya hücum xarakterli addımlar atmağa çalışması ehtimalı artır.

Bununla yanaşı, üçüncü tərəflərin də prosesdə iştirakını istisna etmək olmaz. Çünki hazırda Azərbaycanla Hindistan arasında müəyyən gərginlik mövcuddur və bu gərginlik Hindistanın bölgə siyasəti ilə bağlıdır. Məlum olduğu kimi, Hindistan Ermənistanı silahlandırır və onun hərbi siyasətinə dəstək verir. Bu isə, təbii olaraq, Azərbaycan tərəfindən müsbət qarşılanmır və münasibətlərdə problemlərin yaranmasına səbəb olur. Belə bir şəraitdə Hindistanın anti-Azərbaycanyönümlü fəaliyyətlərə qoşulması və ya bu cür proseslərdə dolayısı ilə iştirak etməsi gözlənilən hal kimi qiymətləndirilə bilər. Şəxsi qənaətim ondan ibarətdir ki, Bakı Təşəbbüs Qrupunun bu addımını sabotaj etməyə çalışan, onun fəaliyyətinə qarşı kiber hücumlar təşkil edən qüvvələr arasında Hindistanın özü və ya Hindistanla əlaqəli strukturların olması ehtimalı kifayət qədər yüksəkdir.

**Daxili Qoşunlar – 34**

# DİN-in Daxili Qoşunları dövlətə sədaqətin, ölkədə dincliyin və sabitliyin dayağıdır

## Şəxsi heyət ictimai asayişin və təhlükəsizliyin keşiyində ayıq-sayıq dayanıb

**Daxili İşlər Nazirliyinin Daxili Qoşunları artıq 34 ildir ki, xalqımıza və dövlətimizə sədaqətlə xidmət edir. Bu illər ərzində şəxsi heyət üzərinə düşən vəzifələri məsuliyyət, intizam və peşəkarlıqla yerinə yetirərək ictimai asayişin və sabitliyin qorunmasına mühüm töhfələr verib.**



Yarandığı gündən etibarən Daxili Qoşunlar ölkəmizin sabitliyi və vətəndaşların rifahı naminə əzmkarlıq nümayiş etdirib. Qoşunlara göstərilən diqqət və qayğı nəticəsində onun inkişaf və yüksəliş yolunun möhkəm təməli qoyulub. Xüsusilə ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə Daxili Qoşunlar müasir maddi-texniki baza və yüksək döyüş hazırlığına malik çevik hərbi quruma çevrilib.



Ulu Öndərin 1995-ci il 9 mart tarixli Fərmanına əsasən 12 mart – Daxili Qoşunlar Günü kimi təsis edilib. Bu tarix onun Daxili Qoşunların şərəfli xidmət yoluna verilən yüksək qiymətin və qoşunlara olan etimadının ifadəsidir. Bu da təsadüfi deyildi. Məhz müstəqil Azərbaycanın Daxili Qoşunlarının şəxsi heyəti ölkəmizin ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşlərə ilk dəfə 1992-ci il mart ayının 12-də başlayıb. Birinci Qarabağ müharibəsi dövründə hərbi qulluqçularımızın od-alovlu səngərlərdə göstərdikləri şücaət və fədakarlıq nümunələri xalqımızın yaddaşında silinməz izlər buraxıb.

Birinci Qarabağ müharibəsində ərazi bütövlüyümüzün bərpası uğrunda döyüşlər zamanı Daxili Qoşunların şəxsi heyətindən 682 nəfər şəhid olub, 4 nəfər itkin düşüb və 1179 nəfər isə yaralanıb. Daxili Qoşunların 9 nəfər hərbi qulluqçusu "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Birinci Qarabağ müharibəsi başa çatdıqdan sonra isə uzunmüddətli atəşkəs dövründə qoşunların xidməti fəaliyyəti ictimai qaydanın və təhlükəsizliyin təmin olunmasına, silahlı cinayətkarların zərərsizləşdirilməsinə, kütləvi tədbirlər zamanı asayişin qorunmasına yönəlib. Qabaqcıl təcrübə öyrənilərək xarici ölkələrin müvafiq qurumları ilə hərbi əməkdaşlıq əlaqələri genişləndirilib, şəxsi heyətin peşə hazırlığının artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, müasir dövrün çağırış və təhdidlərinə uyğun islahatlar aparılıb. Daxili Qoşunların tərkibində Hərbi İnstitut, təlim mərkəzləri, helikopter eskadrilyası yaradılıb.



Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin ali diqqət və qayğısı nəticəsində Daxili Qoşunların fəaliyyəti daha da təkmilləşdirilib, döyüş qabiliyyəti möhkəmləndirilib, infrastruktur yenilənib. Müasir silah və texnika ilə təchizat gücləndirilib, şəxsi heyətin xidmət və məişət şəraiti, eləcə də sosial rifahı əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb.

Daxili Qoşunların maddi-texniki bazasının gücləndirilməsi onların istənilən şəraitdə operativ fəaliyyət göstərmək imkanlarını daha da genişləndirib.

Şəxsi heyətin peşəkarlığının artırılması məqsədilə keçirilən taktiki və xüsusi təyinatlı təlimlər qoşunların döyüş hazırlığının daim yüksək səviyyədə saxlanmasına xidmət edir.



Bu illər ərzində hərbi qulluqçuların təlim və məşğələlərdə yüksək döyüş hazırlığına yiyələnməsi, qazanılan hərtərəfli təcrübə torpaqlarımızın işğaldan azad olunması kimi müqəddəs missiyanın yerinə yetirilməsində mühüm rol oynayıb.

44 günlük Vətən müharibəsi zamanı Daxili Qoşunların hərbi qulluqçuları şərəfli döyüş ənənələrinə sadiq qalaraq erməni işğalçıları üzərində Böyük Qələbənin qazanılmasına layiqli töhfələr veriblər. Düşmənə qarşı igidliklə vuruşaraq torpaqlarımızın azad olunması üzrə döyüş tapşırıqlarını öz canı və qanı bahasına yerinə yetiriblər. Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 nəfər isə yaralanıb. Xüsusi xidmətlərinə və göstərdikləri qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiklərinə görə Daxili Qoşunların 4 nəfər hərbi qulluqçusuna "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib.

Vətən müharibəsində qazanılan təcrübə Daxili Qoşunların gələcək fəaliyyətində mühüm taktiki və əməliyyat üstünlükləri formalaşdırıb.

Bu dövrdə şəxsi heyətin göstərdiyi şücaət və fədakarlıq dövlətə sədaqətin və vətənpərvərliyin parlaq nümunəsinə çevrilib.

2023-cü il sentyabrın 19–20-də Azərbaycan Respublikasının Qarabağ iqtisadi zonasında Silahlı Qüvvələrimizin, o cümlədən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı qarşıya qoyulan vəzifələr qısa müddətdə və dəqiqliklə icra olunub.







Daxili Qoşunların şəxsi heyəti tapşırıqları yüksək peşəkarlıq, dəqiq koordinasiya və qətiyyətlə icra edərək üzərinə düşən vəzifələri uğurla yerinə yetirib. Məhz illər boyu formalaşmış döyüş hazırlığı, intizam və əməliyyat təcrübəsi bu tədbirlərin qısa müddətdə və effektiv şəkildə başa çatdırılmasını təmin edib. Nəticədə, bölgədə separatizmə son qoyulub.

Antiterror tədbirləri zamanı igidlik və şücaət göstərən Daxili Qoşunların 12 hərbi qulluqçusu şəhid olub, 24 nəfər isə yaralanaraq müxtəlif dərəcəli xəsarətlər alıb.

Antiterror tədbirləri bir daha göstərdi ki, Daxili Qoşunlar mürəkkəb əməliyyat şəraitində çevik və koordinasiyalı fəaliyyət göstərmək qabiliyyətinə malikdir.

Bu əməliyyatlar zamanı qazanılan təcrübə gələcəkdə təhlükəsizlik mühitində yarana biləcək risklərin qarşısının alınmasında da mühüm rol oynayacaq.

Bu gün də hərbi qulluqçularımız Qarabağ və Şərqi Zəngəzurda polis əməkdaşları ilə birgə xidməti-döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəlir, Böyük Qayıdış proqramının sürətlənməsi üçün əzmlə çalışaraq üzərlərinə düşən vəzifələri tam həcmdə yerinə yetirirlər.

Azad olunmuş ərazilərdə təhlükəsizliyin təmin edilməsi və sabitliyin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər dövlət qurumları arasında effektiv koordinasiyanın bariz nümunəsidir.

Daxili Qoşunların şəxsi heyəti çətin relyef və mürəkkəb əməliyyat şəraitində xidmət apararaq bölgədə əmin-amanlığın təmin olunmasına mühüm töhfə verir.

34 il ərzində formalaşan zəngin xidmət təcrübəsi, möhkəm nizam-intizam, yüksək döyüş hazırlığı və Vətənə sarsılmaz bağlılıq bu gün də Daxili Qoşunların fəaliyyətinin əsas dayağını təşkil edir. Bu illər ərzində qazanılmış əməliyyat təcrübəsi və institusional inkişaf şəxsi heyətin peşəkar potensialını gücləndirib, qarşıya çıxan çağırışlara çevik və adekvat reaksiya vermək imkanlarını artırıb. Hər bir əməliyyatda intizam, koordinasiya və qanunçuluq prinsipləri əsas götürülüb, vətəndaşların hüquq və azadlıqlarının qorunması prioritet kimi saxlanılıb.

Daim təkmilləşən hazırlıq sistemi, müasir yanaşmaların tətbiqi və peşəkar kadr potensialı Daxili Qoşunların dayanıqlı inkişafını təmin edən başlıca amillərdəndir. Çətin və məsuliyyətli şəraitdə xidmət aparan hərbi qulluqçular dövlətə sədaqət, xalqa xidmət prinsiplərinə sadiq qalaraq üzərlərinə düşən vəzifələri şərəflə yerinə yetirirlər.

Daxili Qoşunların keçdiyi yol bir daha sübut edir ki, şəxsi heyət həmişə xalqın əmin-amanlığının, daxili sabitliyin sadiq keşikçisi olub və bundan sonra da dövlətə və xalqa sədaqət prinsiplərinə sadiq qalaraq, üzərinə düşən vəzifələri eyni məsuliyyət, peşəkarlıq və qətiyyətlə yerinə yetirəcək, ölkəmizin sabitliyinə və ictimai asayişin qorunmasına etibarlı töhfə verməyə davam edəcək.

Daxili Qoşunlar – dövlətə sədaqət, xalqa xidmət, sabitliyə dayaq!

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan Çin ilə əməkdaşlığı dəyərləndirib

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Çinin "iSoftStone" şirkətinin icraçı vitse-prezidenti Li Huanq ilə görüşüb.**



Görüşdə Azərbaycan ilə Çin arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi, xüsusilə rəqəmsal iqtisadiyyat, innovasiya və yüksək texnologiyalar sahələrində tərəfdaşlıq imkanları müzakirə olunub. Tərəflər iqtisadiyyatın rəqəmsal transformasiyası, innovativ texnologiyaların tətbiqi, müasir IT və süni intellekt həllərinin inkişafı istiqamətində əməkdaşlığın perspektivlərini dəyərləndiriblər.

Müzakirələr zamanı texnologiya transferi, eləcə də ölkəmizdə kompüter və elektron avadanlıqlar istehsalını dəstəkləyəcək təchizat və dəyər zəncirinin formalaşdırılması istiqamətində əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

*XQ*

# Türkiyə hərbi heyəti Naxçıvanda



**Martın 11-də Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı, ordu generalı Metin Tokelin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvana səfər edib. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.**

Səfər çərçivəsində qonaqlar Əlahiddə Ümumqoşun Ordunun Qərargahında olublar. ƏÜO komandanı, general-leytenant Kənan Seyidov Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı ordu generalı Metin Tokel ilə görüşüb.

Görüş zamanı qonaqlara ƏÜO-nun yaranma tarixi, keçdiyi inkişaf yolu, fəaliyyəti, həyata keçirilən islahatlar və qarşıda duran məqsədlər barədə məlumat verilib. Ordu generalı Metin Tokel bölgədə sabitliyin gücləndirilməsi və təhlükəsizliyin tam təmin edilməsi məqsədilə Türkiyənin daim Azərbaycanın yanında olduğunu və tarixi Şuşa Bəyannaməsinin müddəalarına uyğun olaraq istənilən hərbi yardımı göstərməyə hazır olduqlarını bildirib.

Sonda birgə hərbi təlimlərin planlaşdırılması və qarşılıqlı təcrübə mübadiləsinin aparılması ilə bağlı məsələlər müzakirə olunub.

*

Müdafiə Nazirliyindən verilən məlumata görə, həmin gün Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi, general-polkovnik Kərim Vəliyev ilə Serbiya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general Milan Moysiloviç arasında telefon danışığı olub. Danışıq Serbiya tərəfinin təşəbbüsü ilə baş tutub.

Tərəflər ölkələrimiz arasında hərbi və hərbi-texniki əməkdaşlığın cari vəziyyəti və perspektivlərini müzakirə edib, regionda cərəyan edən proseslər və təhlükəsizlik məsələlərinə dair ətraflı fikir mübadiləsi aparıblar.

*XQ*

# Bahar Muradova BMT Şurasının iclasında

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Türkiyənin təşəbbüsü və Azərbaycanın həmtəşkilatçılığı ilə BMT-nin Qadınların Statusu üzrə Komissiyasının 70-ci sessiyası çərçivəsində təşkilatın İqtisadi və Sosial Şurasında (ECOSOC) keçirilən yan tədbirdə çıxış edib.**



B.Muradova qadınların ədalətə çıxış imkanlarının texnoloji vasitələrlə genişləndirilməsinin beynəlxalq səviyyədə müzakirəsinin böyük əhəmiyyət daşıdığını qeyd edib. Bildirib ki, hüququn mövcudluğu ilə yanaşı, ona real çıxışın təmin olunması vacibdir. O, Azərbaycanda qadınların zorakılıqdan müdafiəsi və ədalətə çıxışının gücləndirilməsi istiqamətində hüquqi və institusional mexanizmlərin təkmilləşdirildiyini, qanunvericiliyin beynəlxalq öhdəliklərə uyğunlaşdırıldığını, mühafizə orderləri və sosial dəstək mexanizmlərinin genişləndirildiyini qeyd edib.

Komitə sədri çıxışının sonunda vurğulayıb ki, ədalətin gələcəyi texniki baxımdan rəqəmsal olsa da, mahiyyət etibarilə etik prinsiplərə və insan hüquqlarına əsaslanmalı, tətbiq olunan texnologiyalar isə inklüziv olmalı və yeni rəqəmsal uçurumlar yaratmamalıdır.

*XQ*

# IDEA-nın Zaqatalada "yaşıl" aksiyası



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Yaşıl marafon" kütləvi ağacəkmə kampaniyasının 2026-cı ilin yaz mövsümü çərçivəsində ilk ağacəkmə aksiyası Zaqatala rayonunda təşkil edilib.**

IDEA İctimai Birliyinin könüllülərinin iştirakı ilə rayonun Əliabad qəsəbəsi ərazisində ümumilikdə 800-dən çox müxtəlif növ ağac əkilib.

IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Ümumrespublika yaşıllaşdırma marafonu"nun ("Yaşıl marafon") əsas məqsədi yaşıllıq sahələrinin artırılması, ağacəkmə ənənəsinin təşviqi, ətraf mühitin mühafizəsinə, ölkəmizin flora biomüxtəlifliyinin zənginləşdirilməsinə və yaşıllıqların qorunması ilə bağlı maarifləndirməyə töhfə verməkdir.

*XQ*

# BMT-nin nümayəndəsi Mədəniyyət Nazirliyində

**Martın 11-də mədəniyyət naziri Adil Kərimli ölkəmizdə səfərdə olan BMT-nin Sivilizasiyalar Alyansının (UNAOC) ali nümayəndəsi Migel Anxel Moratinos və qurumun direktoru Nihal Saad ilə görüşüb.**



Görüşdə martın 12-14-də ölkəmizdə keçiriləcək XIII Qlobal Bakı Forumunun əhəmiyyəti vurğulanıb. Nazir Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansı ilə əməkdaşlığın inkişafına böyük önəm verdiyini bildirib.

Tərəflər Prezident İlham Əliyevin təşəbbüsü ilə qlobal səviyyədə həyata keçirilən "Bakı Prosesi" çərçivəsində qurulmuş tərəfdaşlığın möhkəmləndiyini vurğulayıblar və cari ilin oktyabr ayında Bakı şəhərində keçiriləcək 7-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna hazırlıqların gedişatını müzakirə ediblər.

*XQ*

# Timor-Leste Prezidenti ölkəmizə səfərə gəlib

**Timor-Leste Demokratik Respublikasının Prezidenti Jose Ramos-Horta martın 11-də Azərbaycan Respublikasına səfərə gəlib.**

Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşılayıblar.

*XQ*



# QHT-lər daha geniş imkanlara və müsabiqələrə çıxış əldə edəcək

***Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin ictimaiyyətlə əlaqələr üzrə meneceri Ülviyyə Qarayevanın AZƏRTAC-a verdiyi müsahibəni təqdim edirik***



**– QHT Agentliyi ötən ilin payızında elan etdiyi qrant müsabiqələrinin nəticələrinin 2026-cı ilin I rübü ərzində açıqlanacağını bildirmişdi. Hazırda vəziyyət nə yerdədir, QHT-lər nəticələrlə nə vaxt tanış ola biləcək?**

– QHT Agentliyinin özünün, o cümlədən agentliyin bp və Qarabağ Dirçəliş Fondu ilə birlikdə elan edilmiş müsabiqələrin nəticələri tezliklə elan olunacaq. Biz agentliyin keçirdiyi müsabiqələrə ilbəil marağın yüksəldiyini müşahidə edirik. Əgər 2024-cü il üzrə müsabiqələrə 779 təşkilatdan müraciət daxil olmuşdusa, 2025-ci il üzrə bu rəqəm 915-ə qalxdı. 2026-cı il üzrə müsabiqələrə isə ümumilikdə 981 təşkilat müvafiq sistem üzrə özünə pəncərə yaradaraq müraciət etmək hüququ qazanıb. Bu, indiyədək müşahidə olunan ən yüksək göstəricidir. Hesab edirik ki, QHT sektorunda son illər dərinləşdirilən islahatlar, QHT Agentliyinin müsabiqələrini bütün kənar müdaxilələrdən azad, tam şəffaf aparması nəticəsində ictimai etimad daha da güclənib. Lakin bizim üçün kəmiyyətdən daha vacib keyfiyyətdir. Qeyd etməliyik ki, müvafiq sistemdə qeydiyyatdan keçən QHT-lərin heç də hamısı tələb olunan prosedurları vaxtında tamamlayaraq layihə təqdim etməyib. Nəticədə 2026-cı il müsabiqələrinə 707 QHT-dən 789 layihə daxil olub. 789 layihədən 187-si I mərhələdən - texniki seleksiyadan keçə bilməyib. Onların mütləq əksəriyyətində plagiat aşkarlanıb. Bu QHT-lərə bu ilin yanvar ayında imtina cavabları müvafiq sistem vasitəsilə bildirilib. 602 layihə isə müstəqil ekspertlərin baxışına verilib, hər bir layihə üzrə Nazirlər Kabinetinin müəyyən etdiyi müvafiq meyarlar əsasında ciddi dəyərləndirmə aparılıb və ekspertiza nəticələri əsas götürülməklə, Müşahidə Şurasında hərtərəfli kollegial baxışdan keçirilib.

**– Layihələrin təhlili hansı nəticələrə gəlməyə imkan verir?**

– Müşahidələrə əsasən, QHT-lərin komanda işi qurmaq, uğurlu ideya tapmaq, onu cəlbedici layihəyə çevirmək, media ilə işləmək vərdişləri güclənir. Əvvəlki dövrdə biz bir sıra QHT-lərin qrant vəsaitlərinə "mükafat" tərzində yanaşmasından əziyyət çəkirdik, onların maliyyə sənədləri qaydasında olmur, hesabat zamanı narazılıqlar yaşanırdı. Ötən dövr sübut etdi ki, şantaj, hədə və digər qanunazidd əməllərlə qrant nəticələrinə təsir göstərmək, qaralama, ləkələmə kampaniyası aparıb hay-küy salmaqla dövlət büdcəsindən vəsait qoparmaq mümkün deyil. Artıq cəmiyyət də belələrini qəbul etmir, haqlı olaraq onların QHT sektoruna necə gəlib çıxmasını, hansı fəaliyyətlə və necə məşğul olmasını sorğulayır.

Bu gün Azərbaycanda dövlət-QHT münasibətləri "yardım modeli" çərçivəsindən çıxıb, qarşılıqlı məsuliyyət, etimad, şəffaflıq yeni modelin əsas keyfiyyətləridir. İşimiz layihələri maliyyələşdirməklə bitmir, onların sistemli təsirini ölçə bilmək, layihələri mütərəqqi, faydalı ictimai dəyərə çevirməyə nail olmaq əsas məqsəddir.

Builki layihələrin təhlilində qəribə mənzərələrlə də qarşılaşmışıq. Məsələn, QHT-lərdən biri layihəsində Qarabağda və Naxçıvanda yaşayan gənclərlə sıx işləmək istədiyini bildirib, amma icra planında nəzərdə tutduğu tədbirlərin heç birinin həmin ərazilərdə olmadığı müəyyən edilib, tədbirlər Sumqayıtda keçiriləcəkmiş. Fəaliyyəti dövründə bir dəfə də olsun xarici media ilə iş təcrübəsi olmayan QHT-lərdən biri isə icra planında layihə nəticələrini CNN və BBC-də təqdim edəcəyini iddia edib. Yaxud Özbəkistan haqqında layihə təqdim etmiş QHT-lərdən biri icra planında Qazaxıstanın mövzuya aidiyyəti olmayan lokal QHT-ləri ilə işləyəcəyini bildirib. Təbii ki, bu cür layihələr uğur qazana bilməz.

Müsabiqələrdə qalib ola bilməyən QHT-lərin hər birinə təqdim etdikləri layihə barədə çatışmazlıqlar, iradlar müvafiq sistem üzərindən izah edilir. Müşahidə edirik ki, bu qeydlərə məsuliyyətlə yanaşan bir sıra təşkilatların növbəti layihələrində əvvəlki problemlər aradan qalxır, onlar uğur qazanır. Bu da təbiidir, çünki qrant müsabiqələrində şəxslər deyil, QHT layihələri qiymətləndirilir. Buna görə də artıq müsabiqələrin nəticələri açıqlananda QHT sədrinin adı qeyd olunmur, layihəsi qalib gələn QHT, layihənin adı, qrant məbləği göstərilir.

Bir məqamı da anlayışla və düzgün qəbul etmək lazımdır ki, QHT Agentliyi daxil olmuş bütün layihələri maliyyələşdirə bilməz. Nəzəri olaraq, 2026-cı il üzrə təqdim olunmuş bütün layihələrə vəsait açılsa, bu, ümumilikdə, 18 milyon manat edərdi, halbuki, Agentliyin illik qrant büdcəsi bundan 4,5 dəfə aşağıdır.

**– "Bir pəncərə" sistemi üzrə QHT Agentliyinin müxtəlif dövlət qurumları ilə birlikdə müsabiqələri nə vaxtdan elan olunacaq?**

– 2026-cı ildən başlayaraq QHT-lər daha geniş imkanlara və müsabiqələrə çıxış əldə edə biləcək, şansları artacaq. Budəfəki müsabiqələrdə uğur qazana bilməyən təşkilatlar da il ərzində agentliyin tərəfdaş qurumlarla birlikdə keçirəcəyi müsabiqələrdə iştirak edə bilər. Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2025-ci il tarixli Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin fəaliyyətinin təkmilləşdirilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında fərmanı bu sahədə yeni səhifə açıb.

Məlum olduğu kimi, hazırda dövlət büdcəsindən QHT-lərə vəsaitlər 2015-ci ildə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə, habelə bələdiyyələrə qrant verə bilən qurumlar"ın siyahısı üzrə 9 nazirlik (Elm və Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Gənclər və İdman Nazirliyi, Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi), digər 4 qurum (Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, QHT-lərə Dövlət Dəstəyi Agentliyi, Dövlət Turizm Agentliyi, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya), o cümlədən bu siyahıda adı olmayan digər 3 qurum - Azərbaycan Respublikasının Gənclər Fondu, KOBİA və ƏƏSMN yanında Sosial Xidmətlər Agentliyi tərəfindən açılır.

"Bir pəncərə" sistemi üzrə bu 16 qurumun QHT-lərlə işinin vahid koordinasiyası, təhlili aparılacaq. Fərmana görə, bundan sonra bu qurumların hər biri qeyri-hökumət təşkilatlarının müsabiqə yolu ilə və müsabiqədənkənar yolla, dövlət sifarişləri və subsidiya daxil olmaqla bütün növ maliyyələşdirilməsini "bir pəncərə" prinsipi əsasında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə birlikdə həyata keçirəcək. Yeni mexanizm koordinasiyanın güclənməsinə, vahid databaza və uçotun yaranmasına, milli prioritetlərə uyğun səpkidə mövzuların dövlət qurumları arasında bölüşdürülməsinə, prosesin "bir pəncərə" əsasında təşkilinə və idarə edilməsinə, QHT fəaliyyətlərinin daha səmərəli, nəticəyönümlü olmasına xidmət edəcək.

QHT Agentliyi dövlətimizin başçısının bu yüksək etimadını layiqincə doğrultmaq üçün bundan sonra da əzmlə çalışacaq.

**– 2026-cı ilin mayında Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasına (WUF13) necə hazırlaşırsınız?**

– 2026-cı il üzrə qrant müsabiqələrində WUF13 ilə bağlı beynəlxalq təşəbbüslər prioritet istiqamət kimi müəyyən edilib, bu istiqamətdə QHT Agentliyinə ümumilikdə 49 layihə daxil olub. Bu qrant layihələri çərçivəsində WUF13 pavilyonunda yerli və xarici QHT-lərin birgə tərəfdaşlığı ilə müxtəlif səpkili onlarla tədbirin keçirilməsi gözlənilir. COP29-da olduğu kimi, WUF13 zamanı da yerli QHT-lərin xarici tərəfdaşları ilə birgə pavilyonda tədbirlər keçirməsi üçün imkan yaradılacaq. Müvafiq qeydiyyat prosedurlarından keçmiş Azərbaycan QHT-ləri QHT agentliyi tərəfindən ödənişsiz əsaslarla tədbir yerləri ilə təmin olunacaq. Bu tədbirlər üçün Agentliklə vaxtında koordinasiya işlərinin aparılması zəruridir. Şübhə etmirik ki, Azərbaycan QHT-ləri WUF13-də ölkəmizi layiqincə təmsil edəcək, yeni təcrübə, bilik və bacarıqlar qazanacaqlar.

Qlobal Cənub QHT Platformasının Katibliyindən əldə etdiyimiz məlumata görə, 116 ölkədən QHT-lərin iştirakı ilə ötən il təsis edilmiş Qlobal Cənub QHT Platforması bu ilin mayında "Bakı Şəhərsalma Həftəsi" çərçivəsində Azərbaycanda Baş Assambleyasını keçirəcək. Burada 130-dan çox ölkədən QHT təmsilçilərinin iştirakı planlaşdırılır. QHT Agentliyi üçün bu qlobal tədbirin tərəfdaşı olmaq şərəfdir.

**– Azərbaycan QHT-ləri üçün 2026-cı il daha hansı məqamlarla əlamətdar olacaq?**

– Bu il Azərbaycan QHT-lərinin dünyaya daha geniş açılması, regional layihələrlə çıxış etməsi üçün QHT Agentliyi dəstək tədbirlərini daha da gücləndirəcək. Ötən ilin sonunda Azərbaycanda təsis edilmiş Türk Dövlətləri Təşkilatına Üzv Ölkələrin QHT-lərinin Platformasının 2026-cı ilin iyununda Bakıda böyük toplantısının keçirilməsi gözlənilir. QHT Agentliyi bu foruma da tərəfdaş kimi dəvət edilib və təklif qəbul olunub. Bu toplantı çərçivəsində Azərbaycan QHT-lərinin Macarıstan, Türkmənistan, Şimali Kipr, Qırğızıstan vətəndaş cəmiyyəti təmsilçiləri ilə ikitərəfli forumlarının təşkili planlaşdırılır. Bu isə o deməkdir ki, növbəti ikitərəfli forumlar həmin ölkələrdə baş tutacaq. Türk dünyası bizim ümumi ailəmiz olduğu üçün bu istiqamətdə də işlərə prioritet veririk.

İl ərzində "QHT-lərin İnkişaf və Mübadilə" proqramları davam edəcək, 2026-cı ilin sentyabrında Gəncə şəhərində QHT-lərin Əməkdaşlıq Forumunun keçirilməsini planlaşdırmışıq. Təbii ki, bunlar nəzərdə tutulan fəaliyyətlərin yalnız bir hissəsidir.

2026-cı il QHT sahəsində qanunvericiliyin də təkmilləşdirilməsi ili olacaq. Bu dəyişikliklər və yeniliklər QHT-lərlə iş sahəsində şəffaflığın, hesabatlılığın artırılmasına, kollegial qərarların qəbul olunmasına, sağlam mühitin gücləndirilməsinə yönəlib, QHT-lər bunun böyük faydalarını tezliklə hiss edə biləcəklər.

# Dövlətin özünümüdafiə imkanı və gücü

II MƏQALƏ

## Fərdi özünümüdafiə

Azərbaycan Avrasiyada fərdi özünümüdafiə konseptini XXI əsrin çağırışlarına cavab verə biləcək səviyyədə formalaşdıran nadir müstəqil dövlətlərdəndir. Bu mövzuda yazılan I məqalədə ifadə etdiyimiz özünümüdafiənin əsas komponentlərinin mahiyyəti göstərir ki, məsələ son dərəcə mürəkkəb xarakterə malikdir. Çünki dövlətin başçısı müxtəlif sferalara aid olan çoxlu sayda faktorları elə sistemləşdirməli və dəqiq məqsədə yönəltməlidir ki, hər bir situasiyada ölkənin təhlükəsizliyi təmin olunsun.

Doğrudan da, lider dövlətin hərbi, iqtisadi, elmi-texniki və resurs gücünü elə səfərbər etməli və eyni zamanda, daim aktuallaşdırmalıdır ki, cəmiyyətin mənəvi-siyasi birliyi əsasında suverenliyi tam qorumaq və xarici təcavüzü dəf etmək qabiliyyəti bir-birini tamamlasın. Bəlkə də buna ən ümumi səviyyədə ölkənin, dövlətin və cəmiyyətin təhlükəsizliyini davamlı təmin etmək qüdrəti də deyə bilərik. Burada fərdi özünümüdafiə baxımından çox vacib saydığımız bir özəlliyi vurğulayaq.

Əsas məsələ nəzəri konsepti praktiki olaraq realpolitika çərçivəsində həyata keçirməklə bağlıdır. Yəni fərdi özünü müdafiə həmişə reallıqdır, təcrübədə özünü göstərən prosesdir. Buna görə də nəzəri olaraq çox səmərəli görünən özünümüdafiə konsepti praktiki səmərə verməyə bilər. Azərbaycan təcrübəsi isə rəsmi Bakının 1993-cü ildən bu yana praktiki səmərə verən özünümüdafiə konseptinə malik olduğunu təsdiq etmişdir.

Buna Heydər Əliyev–İlham Əliyev dövlət quruculuğu xəttində ölkənin hərbi, iqtisadi, elmi-texniki və resurs gücünü davamlı olaraq xarici təcavüzü dəf etməklə suverenliyi təmin etmək istiqamətlərinin vəhdətinə yönəltmək sayəsində nail olunmuşdur.

Həmin prosesin əlamətləri kimi enerji strategiyasını, ölkənin müdafiə imkanlarının daim gücləndirilməsini, sosial-iqtisadi islahatları və cəmiyyətin daxili birliyinin inkişafına istiqamətlənmiş sistemli addımları göstərmək olar. Vətən müharibəsi fərdi özünümüdafiə konseptinin reallaşmasının zirvəsi oldu. Bu mərhələdən sonra kollektiv özünümüdafiə məsələsi yeni səviyyə və miqyasda daha da aktuallaşdı.

## Kollektiv özünümüdafiə

Fərdi və kollektiv özünümüdafiəni birləşdirən bir mühüm geosiyasi məqam vardır: dövlət uğurla özünü müdafiə etməklə qlobal miqyasda sülh və dünya nizamının təmininə töhfə verir. Doğrudan da, dünya sistemi dövlətlərdən ibarətdir. Hər bir müstəqil dövlət özünü beynəlxalq hüquq normaları çərçivəsində müdafiə edə bilirsə, özlüyündə qlobal sülhə fayda verir. Ancaq məsələ ondan ibarətdir ki, müasir dövrdə heç bir dövlət tək halda özünümüdafiəyə tam nail ola bilmir. Dövlət mütləq surətdə fərdi müdafiə konsepti ilə kollektiv müdafiə fəlsəfəsini uyğunlaşdırmalıdır. Burada bir xüsusiyyət vardır ki, ona aydınlıq gətirmək gərəkdir. Həmin məqam "kollektiv özünümüdafiə" ifadəsinin anlamı ilə bağlıdır.

Belə ki, fərdi özünümüdafiə, sözün əsl mənasında, özünü müdafiə etməkdir. Başqa dövlət tərəfindən silahlı hücuma məruz qalan dövlət özünün siyasi müstəqilliyini və ərazi toxunulmazlığını təmin etmək üçün cavab tədbirləri görür (bura hərbi cavab da daxildir). Kollektiv özünümüdafiədə isə başqa dövlətə olan təcavüzə qarşı birgə dirəniş göstərmək məqamı önə çıxır. Yəni dövlət kollektiv müdafiədə özünümüdafiəyə dolayısı ilə qatılır. Buradan məlum olur ki, iki və ya daha çox dövlətin birgə özünümüdafiəsi fərdi özünümüdafiədən fərqli feili və təşkilati qaydaların formalaşdırılmasını tələb edir. Onun çağdaş dönəmdə tez-tez rast gəlinən forması qarşılıqlı yardım haqqında ikitərəfli və çoxtərəfli müqavilələrin imzalanması ilə bağlıdır. Azərbaycan təcrübəsində məhz bu məqam dövlətin kollektiv özünümüdafiəsi ilə fərdi özünümüdafiəni uyğunlaşdırmağa geniş imkan yaratmışdır.

Bu proses özlüyündə çox vacib mərhələlər keçmişdir. Əhəmiyyətlidir ki, əsas olaraq Azərbaycan Prezidentinin təşəbbüsləri sayəsində kollektiv özünümüdafiə konsepti artıq fərdi özünümüdafiəni də ehtiva etməklə səmərəli praktiki təcrübəyə çevrilmişdir. Onu adekvat dərk etmək üçün prosesin mərhələlərinə qısa nəzər salaq.

## Naxçıvan Bəyannaməsi

2009-cu ildə Naxçıvan şəhərində Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə respublikalarının dövlət başçılarının Zirvə Toplantısı keçirilmişdir. Zirvə Toplantısında Naxçıvan Bəyannaməsi qəbul edilmişdir. Bəyannamədə eyni kökə, ortaq dilə, mədəniyyətə malik ölkələrin birliyi bir daha rəsmi şəkildə ifadə olunmuşdur. Dövlət başçıları əvvəllər keçirilmiş Zirvə toplantılarında qəbul olunmuş bəyannamələrin müddəalarını təsdiq etmişlər və ölkələrimiz arasında ikitərəfli, çoxtərəfli əlaqələrin və həmrəyliyin möhkəmləndirilməsini vacib saymışlar.



Bununla həmin növ sənədlər üçün çox vacib olan varislik prinsipinə ciddi əməl edilmişdir. Yəni Naxçıvan Bəyannaməsinin tam siyasi, hüquqi, tarixi, mənəvi, ideoloji və mədəni əsası vardır. Bu da avtomatik olaraq türk dövlətləri arasında münasibətləri beynəlxalq hüquq normaları çərçivəsində inkişaf etdirməyin tam qanuni bazasını yaratmışdır. Həmin səbəbdəndir ki, 2025-ci ildə keçirilmiş Türk Dövlətləri Təşkilatının Qəbələ Zirvəsində Prezident İlham Əliyevin aşağıdakı tezisi ifadə etməsi tam əsaslı, qanuni və hüquqidir. Dövlət başçısı demişdir: "Təşkilatımızın təməl sənədi olan Naxçıvan Sazişində sülhün qorunması və təhlükəsizlik əsas məqsəd və vəzifələr sırasında yer alıb".

## Şuşa Bəyannaməsi

2021-ci il iyunun 15-də Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında imzalanmış sənəd olan Şuşa Bəyannaməsi çox maraqlı tarixi, siyasi, geosiyasi və özünümüdafiə anlamına malikdir. Sənəd iki türk dövləti arasında imzalanmışdır və bütün istiqamətlər üzrə strateji müttəfiqliyi ehtiva edir. Ancaq orada əməkdaşlıq və təhlükəsizlik elə qarşılıqlı münasibətlər aspektində müəyyən edilmişdir ki, həm Naxçıvan Bəyannaməsinin əsas müddəaların və bütövlükdə ruhuna uyğundur, həm də TDT miqyasında genişlənmək potensialına malikdir. Maraqlıdır ki, iki türk dövləti arasında əlaqələr həm də qlobal kontekstə malikdir.

Sənədin Preambula hissəsindəki müddəalar bu tezisi təsdiq edir. Orada yazılmışdır: Tərəflər "Ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, hərbi iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsinin mühüm əhəmiyyətini dərk edərək,

Beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsinin vacibliyini vurğulayaraq,

Müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin zəruriliyini ifadə edərək,

Azərbaycan Respublikası və Türkiyə Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış edərək,

Türk dünyasının davamlı inkişafına yönəlmiş qarşılıqlı fəaliyyətlərin regional və beynəlxalq müstəvilərdə irəli aparılmasında səyləri birləşdirərək,

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsi perspektivlərini hərtərəfli nəzərdən keçirərək" bəyan edirlər.

Buradan aydın görünür ki, iki qardaş dövlət arasındakı münasibətlər tam beynəlxalq hüquq normaları əsasında qurulur və onun milli, regional, Türk dünyası və qlobal konteksti mövcuddur. Həmin məqamlar sənədin müddəalarında aydın ifadələrini tapmışlar.

***Milli miqyas:*** "Azərbaycan Respublikası və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər".

***Regional və beynəlxalq miqyas:*** "Tərəflər regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin və regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər".

***Beynəlxalq və regional təşkilatlar:*** "Tərəflər aktual xarakter kəsb edən, qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək yaxın və ya üst-üstə düşən mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığı dərinləşdirəcəklər və Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avropa Şurası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərəcəklər".

***Kollektiv özünümüdafiəyə aid:*** "Tərəflər Türkiyə ilə Azərbaycan arasında əlaqələrin mövcud səviyyəsinin ümumi regional və beynəlxalq sülh və rifaha töhfə verdiyini, əlaqələrin sadəcə iki ölkəyə deyil, eyni zamanda, regiona sülh və rifah gətirərək başda region ölkələri olmaqla beynəlxalq birliyin sabitlik, sülh və maraqlarına xidmət edəcəyini vurğulayırlar" və "Tərəflər regional və beynəlxalq sabitliyə və təhlükəsizliyə mənfi təsir edən müxtəlif təhdid və çağırışlara, xüsusilə terrorçuluğa, onun bütün forma və təzahürlərinə, maliyyələşdirilməsinə, həmçinin kütləvi qırğın silahlarının yayılmasına, mütəşəkkil cinayətkarlığa, çirkli pulların yuyulmasına, narkotiklərin qanunsuz dövriyyəsinə, insan alverinə, qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində birgə səylərini və əməkdaşlıqlarını genişləndirəcək və dərinləşdirəcəklər".

***Türk dünyası konteksti:*** "Tərəflər Türk dünyasının birlik və rifahına xidmət edəcək milli və beynəlxalq səylərin artırılmasına diqqət çəkdilər. Tərəflər Türk mədəni irsinin beynəlxalq səviyyədə təbliğ və təşviq edilməsi sahəsində birgə əməkdaşlığı gücləndirəcəklər. Tərəflər Türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY və Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verəcəklər".

Şuşa Bəyannaməsinə istinadlar çox görünə bilər. Lakin bir sıra müddəaları vurğulamaqda üç məqsədimiz vardır.

Birincisi, Azərbaycanla Türkiyənin imzaladığı strateji mahiyyətli sənədin tam beynəlxalq hüquq normaları çərçivəsində olduğunu bir sıra "peşəkar ekspertlər", "parlamentarlar" və "siyasilər" bir daha görsünlər. Yəni iki qardaş dövlət arasına hər hansı nifaq salmağın mümkünsüzlüyünün hüquqi tərəfini anlasınlar.

İkincisi, məhz Azərbaycanın ciddi fəallığı sayəsində Naxçıvandan başlayan Türk Birliyi yolunun yüksək perspektivə malik olduğu dərk edilsin. İki böyük dövlətçilik ənənəsinə malik olan xalqların (Azərbaycan və Türkiyə xalqlarının) dövlətlərarası münasibətləri müasir dövrün tələbləri və çağırışları kontekstində inkişaf etdirmək qərarlılığı bir daha anlaşılsın.

Üçüncüsü, Naxçıvan və Şuşa bəyannamələrinin Qarabağ Bəyannaməsi, Laçın Zirvə Görüşü və TDT-nin Qəbələ Sammiti kimi tədbirlərin bazası üçün lazım olan bütün siyasi, hüquqi, geosiyasi, təhlükəsizlik, mədəni, ideoloji, müdafiə, mənəvi bazanı yaratdığı bir daha aydın olsun!

Bütün bu məqamlar Azərbaycan rəhbərliyinin yaratdığı möhtəşəm özünümüdafiə konseptinin fərdi və kollektiv aspektlərini ehtiva etməkdədirlər!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Strateji yanaşmaların qovuşduğu ideya məkanı

*XIII Qlobal Bakı Forumu bu gün öz işinə başlayır*

**Beynəlxalq hüququn getdikcə selektiv formada tətbiq olunduğu bir dövrdə bu gün Bakıda start götürən və martın 14-nə qədər davam edəcək XIII Qlobal Bakı Forumu bəşəriyyətin gələcək konfiqurasiyasını müəyyən edən intellektual poliqona çevrilir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən "Keçid dünyasında bölünmələrin aradan qaldırılması" devizi altında təşkil edilən platforma ilk regional təmaslardan bu günə qədər keçilən mürəkkəb yolu yeni strateji zirvəyə daşıyır.**




Forum beynəlxalq sistemin mürəkkəb və qeyri-sabit keçid dövrünə təsadüf edir. Hazırda dünya nə tək qütblü, nə də tam formalaşmış çoxqütblü nizamda, qlobal siyasət daha çox qeyri-müəyyənlik mərhələsindədir. Böyük dövlətlər arasındakı rəqabət beynəlxalq münasibətləri yenidən formalaşdırmaqla genişmiqyaslı əməkdaşlığı məhdudlaşdıraraq qlobal gərginliyi idarə edən mexanizmləri zəiflədir. Prezident İlham Əliyev Qlobal Bakı forumlarının birində çıxışı zamanı bu mövzuya toxunmuşdu: "Dünya həqiqətən parçalanıb, hər yerdə ciddi çağırışlar var. Əslində, biz təhlükənin hökm sürdüyü vaxtda görüşürük.

Lakin bizim görüş, həmçinin vədlər dövrünə də təsadüf edir. Təhdidlər ətrafdadır, yeni dünya düzəni yarandığı bir dövrdə böyük güclər formalaşmış düzənin quruluşunu parçalayır, mövcud sülh və təhlükəsizlik qaydalarının dəyişdirilməsi prosesinə cəlb olunurlar. Yenidən ayağa qalxan Rusiya BMT Baş Assambleyasının çağırışlarına məhəl qoymayaraq Ukraynada dağıdıcı müharibəyə başlayıb".

XIII Qlobal Bakı Forumu çərçivəsində keçiriləcək sessiyalarda da bu parçalanmış mənzərənin hərbi güc, iqtisadi təzyiq rıçaqları, enerji asılılığı və texnoloji nəzarət kimi istiqamətlərdə təzahürləri araşdırılacaq. Xüsusilə kritik minerallar, təmiz enerji infrastrukturu və rəqəmsal bağlantı kimi yeni sahələrin dövlət idarəçiliyi üçün yaratdığı risklər diqqət mərkəzində olacaq. Forumun əsas hədəfi köhnəlmiş nizamı qorumaq deyil, əksinə, iqlim dəyişikliyi kimi qlobal çağırışlar fonunda praqmatik əməkdaşlıq və adaptiv idarəetmə üçün yeni strateji imkanlar tapmaqdır.

**ARAYIŞ:** Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə mütəmadi olaraq keçirilən Qlobal Bakı Forumları müasir dünyanın ən aktual siyasi, iqtisadi və humanitar çağırışlarının müzakirə edildiyi nüfuzlu platformadır. Bu mötəbər tədbir bəşəriyyətin gələcək inkişaf modelinin formalaşmasında mühüm intellektual mərkəz rolunu oynayır. Forumun təməli 2013-cü il mayın 7-8-də "Birgə cəmiyyətlər" mövzusu ilə keçirilən I Cənubi Qafqaz Forumu ilə qoyulub. 2015-ci ildə "Yeni dünya nizamında güvənin bərpası" mövzusunda keçirilən tədbir Qlobal Açıq Cəmiyyətlər Forumu adlandırılıb.

2016-cı ildən etibarən platforma rəsmi olaraq Qlobal Bakı Forumu adını alaraq miqyasını daha da genişləndirib. Pandemiya fasiləsindən sonra forumun gündəliyi yeni qlobal reallıqlara uyğunlaşdırıldı. 2021-ci ildə baş tutan VIII Forum "COVID-19-dan sonrakı dünya", 2022-ci ildəki IX Forum isə "Qlobal dünya nizamına təhdidlər" məsələlərini təhlil etdi. 2023-cü ildə baş tutan yubiley – X Forum "Dünya bu gün: çağırışlar və ümidlər" şüarı altında keçirildi.

Son illərin müzakirələri isə daha çox ekoloji və təhlükəsizlik arxitekturasına yönəlib. 2024-cü ilin martında keçirilən XI Forum "Parçalanmış dünyanın bərpası" çağırışı ilə iqlim dəyişikliyi və qlobal həmrəylik manifestinə çevrildi. Nəhayət, ötən il martın 13-15-də baş tutan XII Qlobal Bakı Forumu "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusuna həsr olunmuşdu.

*

"Köhnə dünya ölür, yenisi isə hələ doğulmayıb. Bu aralıq dövrdə müxtəlif xəstəliklər ortaya çıxır". İtalyan filosof, jurnalist və siyasi xadim Antonio Qramşinin bu fikri hazırki qlobal dünyanın vizual tablosunu əks etdirir. Müasir beynəlxalq sistemin ən böyük paradoksu ondan ibarətdir ki, qloballaşma dərinləşdikcə siyasi parçalanma da paralel şəkildə artır.

Son onillikdə dünya iqtisadiyyatında qarşılıqlı münasibətlər rekord səviyyəyə yüksəlsə də, siyasi əməkdaşlıq eyni templə genişlənmir. Bu ziddiyyət beynəlxalq münasibətlərdə "strateji parçalanma" fenomenini daha da kəskinləşdirir. Məsələn, son illərdə qlobal hərbi xərclərin həcmi 2,4 trilyon dollara yaxınlaşaraq tarixdə ən yüksək səviyyəyə çatıb. Artım yalnız böyük güclərin rəqabəti ilə bağlı deyil. Regional aktorların təhlükəsizlik mühitində daha aktiv rol oynamaq istəyi beynəlxalq sabitliyi daha mürəkkəb formaya salır.

Bu gün həm XIII Qlobal Bakı Forumunun, həm də bəşəriyyətin verdiyi suallardan biri də məhz budur: qlobal sistem dəyişdiyi halda onu idarə edən institutlar niyə eyni sürətlə transformasiya olunmur? Bu fundamental sual, əslində, müasir dünyanın iflic vəziyyətinə düşdüyünü çılpaqlığı ilə ortaya qoyur. BMT və digər mövcud beynəlxalq institutlar hələ də 1945-ci ilin qalib dövlətlərinin maraqlarını və o dövrün güc balansını qorumaq vəzifəsini yerinə yetirir. Bu gün Hindistan və ya Braziliya kimi yeni iqtisadi və siyasi nəhənglər qlobal qərarlarda söz sahibi olmaq istəsə də, BMT Təhlükəsizlik Şurasındakı "beşlik" (P5) sistemi 80 il əvvəlki status-kvonu zorla saxlayır. İmtiyazlı dövlətlərin öz veto və kvota üstünlüklərindən əl çəkmək istəməməsi islahatların qarşısına aşılmaz sədd çəkir. Yeni yaranan bir çox münaqişələr həmin P5 ölkələrinin mənafelərinə uyğun idarə olunur.

Digər tərəfdən, texnoloji tərəqqi ilə hüquqi tənzimləmə arasındakı uçurum idarəetməni səmərəsizləşdirir. Süni intellekt, kiber-təhdidlər və iqlim böhranı kimi yeni nəsil problemlər saniyələr və aylar ərzində formalaşdığı halda, beynəlxalq konvensiyaların qəbulu onilliklər tələb edir. İnsanlar süni intellekti yaradır, amma onu tənzimləyəcək hüquqi mexanizm formalaşdıra bilmirlər. Bu sürət fərqi institutları hadisələri idarə edən subyektdən, sadəcə baş verənlərin ardınca qaçan müşahidəçiyə çevirir. Bu da radikal struktur islahatları aparılmadığı təqdirdə qlobal idarəetmənin tamamilə çökməsinə zəmin hazırlayır.

*

Təbii ki, belə mürəkkəb transformasiya dövründə dialoq platformalarının rolu getdikcə artır. Bu baxımdan Qlobal Bakı Forumu müxtəlif siyasi mətləblərin və strateji yanaşmaların kəsişdiyi ideya məkanına çevrilib. Burada səslənən fikir və konsepsiyalar gələcək siyasi gündəliklərin formalaşmasına ciddi təsir göstərir. Son illərdə forumun iştirakçıları arasında onlarla sabiq dövlət və hökumət başçısının, beynəlxalq təşkilat rəhbərlərinin və nüfuzlu analitiklərin yer alması platformanın intellektual çəkisini xeyli artırıb.

Budəfəki toplantıda da Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta, qurumun sabiq prezidenti Şarl Mişel, BMT Baş Assambleyasının 73-cü sessiyasının prezidenti Mariya Fernanda Espinosa, Latviyanın keçmiş prezidenti Vayra Vike-Freyberqa, BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının baş katibi Rebeka Qrinspan, Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos və Ərəb Liqasının sabiq baş katibi Əmr Musa kimi nüfuzlu simaların, eləcə də müxtəlif dövlətlərin rəsmi nümayəndə heyətlərinin iştirakı Bakının qlobal müzakirə mərkəzi statusunu bir daha təsdiqləyir.

Beləliklə, forumda enerji təhlükəsizliyindən tutmuş texnoloji transformasiyaya qədər müzakirə olunan mövzular, əslində, gələcək beynəlxalq nizamın konturlarını müəyyən edən əsas istiqamətlərdir. Dünya hələ yeni geosiyasi balansını tam formalaşdırmayıb, lakin aydın görünür ki, bu prosesdə dialoq və intellektual platformaların rolu getdikcə daha strateji xarakter alacaq.

***Tacir SADIQOV***
***XQ***

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 11 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Diplomatik xidmətə qəbul üzrə müsabiqənin keçirilməsi QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 17.1-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində (bundan sonra – Nazirlik) diplomatik xidmətə qəbul üzrə müsabiqənin (bundan sonra – müsabiqə) keçirilməsi qaydalarını müəyyən edir.

1.2. Müsabiqə ədalətlilik və şəffaflıq prinsipləri əsasında keçirilir.

1.3. Müsabiqə yazılı imtahandan və müsahibədən ibarətdir.

1.4. Müsabiqə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi ali təhsil ixtisasları təsnifatına uyğun olaraq, humanitar və sosial, iqtisadiyyat və idarəetmə ixtisas qrupları, habelə ictimai səhiyyə, dövlət təhlükəsizliyi və idarəetmə, ictimai təhlükəsizlik və idarəetmə, sərhəd təhlükəsizliyi və idarəetmə ixtisasları əsasında təşkil edilir.

1.5. Müsabiqənin yazılı imtahan mərhələsi Nazirliyin sifarişi əsasında Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxs (bundan sonra – Mərkəz), müsahibə mərhələsi isə Nazirlik tərəfindən keçirilir.

1.6. Qanunun 17.6-cı maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında diplomatik xidmətə qəbul Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası xarici işlər nazirinin təyinatı əsasında həyata keçirilir.

## 2. Diplomatik xidmətə qəbul olunmaq hüququ

2.1. Qanunun 16.1-ci maddəsinə əsasən, müvafiq diplomatik vəzifənin təlimatına uyğun ali təhsilə və peşə hazırlığına malik olan, Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən Azərbaycan Respublikası vətəndaşlarının diplomatik xidmətə qəbul olunmaq hüququ vardır.

2.2. Qanunun 16.2-ci maddəsinə uyğun olaraq, diplomatik xidmətə aşağıdakı şəxslər qəbul olunmurlar:

2.2.1. ikili vətəndaşlığı və ya digər dövlətlər qarşısında öhdəliyi olan şəxslər;

2.2.2. din xadimləri;

2.2.3. məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər;

2.2.4. əvvəllər ağır və ya xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş, yaxud barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilmiş şəxslər;

2.2.5. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş şəxslər;

2.2.6. barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olan şəxslər;

2.2.7. tibbi rəyə əsasən əqli və fiziki pozuntularına görə diplomatik xidmət orqanlarında xidmət keçməyə qadir olmayan şəxslər;

2.2.8. dövlət orqanlarında (qurumlarında) əvvəllər yol verdiyi kobud pozuntuya və ya qulluqla (xidmətlə) bir araya sığmayan hərəkətlərə görə qulluğuna (xidmətinə) və ya əmək müqaviləsinə xitam verilmiş şəxslər;

2.2.9. qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı hərbi mükəlləfiyyətli şəxslər.

## 3. Müsabiqənin keçirilmədiyi hallar

3.1. Qanunun 17.7-ci maddəsinə uyğun olaraq, diplomatik xidmətə qəbul zamanı aşağıdakı hallarda müsabiqə keçirilmir:

3.1.1. xüsusi tapşırıqlar üzrə səfir, idarə rəisi, idarə rəisinin müavini və müşavir diplomatik vəzifələrinə münasibətdə;

3.1.2. Azərbaycan Respublikasının Prezidenti tərəfindən diplomatik, xüsusi və ya hərbi rütbə, yaxud ixtisas dərəcəsi verilmiş şəxslərə münasibətdə;

3.1.3. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 2.2-ci maddəsində nəzərdə tutulan vəzifələrdən azad edilmiş (səlahiyyət müddəti başa çatmış) şəxslərə (hərbi qulluqçular istisna olmaqla) münasibətdə;

3.1.4. ali–üçüncü təsnifat inzibati vəzifələrdə qulluq keçən və həmin vəzifələrdə qulluğuna xitam verilmiş şəxslərə münasibətdə;

3.1.5. Qanunun 30.1.1–30.1.4-cü maddələrində nəzərdə tutulan əsaslarla diplomatik xidmət orqanlarında xidmətinə xitam verilmiş diplomatik xidmət əməkdaşlarına münasibətdə.

## 4. Müsabiqədə iştirak üçün müraciətlərin qəbulu

4.1. Müsabiqənin keçirilməsi barədə mediada və Nazirliyin rəsmi internet informasiya ehtiyatında elan verilir.

4.2. Qanunun 17.3-cü maddəsinə uyğun olaraq, aşağıdakı şəxslər müsabiqənin yazılı imtahan mərhələsindən azad edilirlər:

4.2.1. elmlər doktoru elmi dərəcəsi olan şəxslər;

4.2.2. attaşe diplomatik vəzifəsində diplomatik xidmətə qəbul üçün azı 3 (üç) il, ikinci katib və üçüncü katib diplomatik vəzifələrində diplomatik xidmətə qəbul üçün azı 6 (altı) il, şöbə müdiri və birinci katib diplomatik vəzifələrində diplomatik xidmətə qəbul üçün azı 9 (doqquz) il dövlət orqanlarında (qurumlarında) və ya beynəlxalq təşkilatların orqanlarında, bölmələrində və ya nümayəndəliklərində ali təhsil tələb olunan vəzifələrdə qulluq (xidmət) və ya əmək stajına malik olan şəxslər;

4.2.3. Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunmuş dövlət proqramı çərçivəsində xaricdə təhsil almış şəxslər.

4.3. Bu Qaydaların 4.2-ci bəndində göstərilən şəxslər, bu Qaydaların 2-ci hissəsində qeyd olunan hallar nəzərə alınmaqla, Nazirliyin rəsmi internet informasiya ehtiyatı vasitəsilə müsabiqənin müsahibə mərhələsində iştirak etmək üçün elektron ərizə ilə müraciət edirlər və onlara Nazirlik tərəfindən müraciətlərinə baxılmanın nəticəsi barədə 10 (on) gün müddətində bildiriş göndərilir. Müraciətlərinin qəbul edilməsi barədə təsdiq alan şəxslər 15 (on beş) gün müddətində bu Qaydaların 7.1-ci bəndində qeyd olunan sənədləri Nazirliyə təqdim edirlər.

4.4. Müsabiqənin yazılı imtahan mərhələsindən azad edilmələri üçün əsas olmayan şəxslər, bu Qaydaların 2-ci hissəsində qeyd olunan hallar nəzərə alınmaqla, müsabiqənin yazılı imtahan mərhələsində iştirak etmək üçün bu Qaydaların 6.4-cü bəndinə uyğun qaydada müraciət edirlər.

## 5. Müsabiqə proqramı

5.1. Müsabiqənin hər iki mərhələsini əhatə edən müsabiqə proqramı Nazirlik tərəfindən hazırlanaraq Nazirliyin rəsmi internet informasiya ehtiyatında yerləşdirilir.

5.2. Müsabiqə proqramı bu Qaydaların 1.4-cü bəndində qeyd olunan ali təhsil ixtisas qrupları və ixtisasları üzrə, habelə Azərbaycan Respublikasının xarici siyasəti və beynəlxalq əlaqələri, Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının fəaliyyətini tənzimləyən normativ hüquqi aktlar və beynəlxalq müqavilələr, Azərbaycanın tarixi, mədəniyyəti və iqtisadiyyatı haqqında mövzular, diplomatik xidmətə qəbul olunmaq üçün müraciət etmiş şəxsin (bundan sonra – namizəd) ümumi dünyagörüşü və məntiqi düşünmə bacarığı, eləcə də müsabiqədə iştirak üçün müraciətində qeyd etdiyi xarici dil biliyi üzrə tərtib edilir.

## 6. Müsabiqənin yazılı imtahan mərhələsi

6.1. Müsabiqənin yazılı imtahan mərhələsi (bundan sonra – yazılı imtahan) müsabiqə proqramı əsasında hazırlanmış test tapşırıqları (birinci) hissəsindən, xarici dil üzrə dinləyib-anlama, oxuyub-anlama, danışıq bacarıqlarının yoxlanılması, o cümlədən həm xarici dildə, həm də Azərbaycan dilində analitik yazı bacarıqlarının qiymətləndirilməsi (ikinci) hissəsindən ibarətdir.

6.2. Yazılı imtahan mərkəzləşdirilmiş qaydada, ödənişli əsaslarla Mərkəz tərəfindən Bakı şəhərində keçirilir. Hər bir hissədə iştiraka görə Nazirliklə Mərkəz arasında bağlanılmış müqavilə əsasında müəyyən edilən məbləğdə namizəd tərəfindən ödəniş həyata keçirilir. Yazılı imtahanın ikinci hissəsində iştirak üçün ödəniş yalnız birinci hissəni müvəffəqiyyətlə keçmiş namizədlər tərəfindən edilir.

6.3. Yazılı imtahanın təşkili ilə əlaqədar Mərkəz aşağıdakı hərəkətləri həyata keçirir:

6.3.1. yazılı imtahanın keçirilmə tarixindən azı 30 (otuz) təqvim günü əvvəl imtahanda iştirak etmək üçün qeydiyyat barədə elan verir;

6.3.2. yazılı imtahanın keçirilməsinə azı 5 (beş) təqvim günü qalmış imtahanda iştirak edəcək namizədlərin buraxılış vərəqəsini və imtahan qaydaları barədə məlumatların əks olunduğu yaddaş kitabçasını Mərkəzin rəsmi internet informasiya ehtiyatında yerləşdirir;

6.3.3. yazılı imtahanın keçirilmə qrafikini və aparılma texnologiyasını müəyyən edir;

6.3.4. yazılı imtahan üzrə tapşırıqları hazırlayır, həmçinin test tapşırıqlarının cavablarını tərtib edir və konfidensiallığın gözlənilməsi məqsədilə onların test bankında saxlanılmasını təmin edir;

6.3.5. yazılı imtahanın qrafikini Mərkəzin rəsmi informasiya ehtiyatında və media vasitəsilə yayır;

6.3.6. yazılı imtahanda iştirak edəcək hər bir namizəd üçün şəxsi eyniləşdirmə kodu müəyyən edir;

6.3.7. yazılı imtahanda iştirak edəcək nəzarətçiləri müəyyən edir;

6.3.8. yazılı imtahanın nəticələrini qiymətləndirir və onları Mərkəzin rəsmi internet informasiya ehtiyatında yerləşdirir;

6.3.9. yazılı imtahanın nəticələri barədə müfəssəl məlumatı nəticələr elan olunduğu gündən 5 (beş) iş günü müddətində Nazirliyə təqdim edir;

6.3.10. yazılı imtahanla əlaqədar müraciətlərə baxır və onları cavablandırır.

6.4. Yazılı imtahanın birinci hissəsində iştirak etmək istəyən namizəd qeydiyyat müddətində yazılı imtahanın birinci hissəsində iştirak üçün müəyyən edilmiş məbləği ödəyərək Mərkəzin rəsmi internet informasiya ehtiyatı vasitəsilə qeydiyyatdan keçir və namizədə qeydiyyatdan keçdiyini təsdiq edən elektron bildiriş göndərilir.

6.5. Namizədlər şəxsiyyət vəsiqəsini və imtahana buraxılış vərəqəsini təqdim edərək yazılı imtahanın birinci hissəsində (test tapşırıqlarının yerinə yetirilməsində) iştirak edirlər.

6.6. Yazılı imtahanın birinci hissəsində namizədlərin bilik və bacarıqlarının qiymətləndirilməsi üçün onlara müsabiqə proqramı əsasında hazırlanmış sahəvi biliklər və qanunvericilik üzrə 75 (yetmiş beş) tapşırıq, ümumi dünyagörüşü və verbal, rəqəmsal məlumatlarla işləmə və məntiqi düşünmə bacarığı üzrə 45 (qırx beş) tapşırıq olmaqla, ümumilikdə 120 (yüz iyirmi) test tapşırığı verilir. Yazılı imtahanın birinci hissəsinin davametmə müddəti 180 (yüz səksən) dəqiqədir.

6.7. Yazılı imtahanın birinci hissəsinin hər bir tapşırıq qrupu üzrə azı 60 (altmış) faiz nəticə göstərən namizədlər yazılı imtahanın ikinci hissəsinə (analitik yazı bacarıqlarının və xarici dil biliklərinin yoxlanılması) buraxılırlar.

6.8. Yazılı imtahanın ikinci hissəsində iştirak etmək istəyən namizəd qeydiyyat müddətində yazılı imtahanın ikinci hissəsində iştirak üçün müəyyən edilmiş məbləği ödəyərək Mərkəzin rəsmi internet informasiya ehtiyatı vasitəsilə qeydiyyatdan keçir və namizədə qeydiyyatdan keçdiyini təsdiq edən elektron bildiriş göndərilir.

6.9. Namizədlər şəxsiyyət vəsiqəsini və imtahana buraxılış vərəqəsini təqdim edərək yazılı imtahanın ikinci hissəsində (analitik yazı bacarıqlarının və xarici dil biliklərinin yoxlanılması) iştirak edirlər.

6.10. Yazılı imtahanın ikinci hissəsində namizədlər Azərbaycan dilində və müsabiqədə iştirak üçün müraciətində qeyd etdiyi xarici dildə analitik yazı bacarıqlarının qiymətləndirilməsi məqsədilə esse yazır, həmçinin Dillər üzrə ümum-Avropa çərçivə sənədinin (CEFR) C1 səviyyəsinə uyğun olaraq eşidib-anlama, oxuyub-anlama və danışma bacarıqları üzrə xarici dil biliyinin qiymətləndirilməsinə dair tapşırıqları icra edirlər. Esse yazma və danışma bacarıqlarına dair tələblər Mərkəz tərəfindən müəyyən edilir.

6.11. Azərbaycan dilində yazılan esseden azı 70 (yetmiş) faiz və xarici dilin bütün komponentləri (xarici dildə esse yazma, eşidib-anlama, oxuyub-anlama və danışma bacarıqları) üzrə cəmi 70 faizdən az olmayan, hər bir komponenti üzrə azı 25 (iyirmi beş) faiz nəticə göstərən namizədlər yazılı imtahanın ikinci hissəsindən müvəffəqiyyətlə keçmiş hesab olunurlar. Namizədlərin eşidib-anlama və oxuyub-anlama bacarıqlarını yoxlayan tapşırıqların icrası üçün 60 (altmış) dəqiqə, Azərbaycan dili və qeydiyyat zamanı seçdiyi xarici dildə analitik yazı bacarıqlarını yoxlayan esse tipli yazı tapşırığının icrası üçün 90 (doxsan) dəqiqə, danışma bacarıqlarını yoxlayan test tapşırıqlarının icrası üçün isə 20 (iyirmi) dəqiqə vaxt ayrılır.

6.12. Yazılı imtahanda iştirak etmiş namizədə onun tələbi ilə Mərkəz tərəfindən yazılı imtahanın nəticəsi barədə arayış verilir.

6.13. Yazılı imtahanda namizədlərin aşağıdakı hərəkətlərə yol verməsi qadağandır:

6.13.1. saxta və ya başqasına aid sənəd təqdim etmək, test imtahanına öz yerinə başqasını göndərmək və ya sərxoş vəziyyətdə gəlmək;

6.13.2. yazılı imtahana yardımçı vasitələr (mobil telefon, müxtəlif rabitə vasitələri, lüğət, məlumat kitabçası və s.) gətirmək və onlardan istifadə etmək;

6.13.3. yazılı imtahanın keçirildiyi binaya yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu kimi əşyalarla daxil olmaq, özü ilə tütün məmulatı gətirmək;

6.13.4. səbəbindən asılı olmayaraq, imtahan başlandığı andan yerini dəyişmək, gəzişmək, yerindən durmaq və imtahanın gedişinə mane olmaq;

6.13.5. başqasının imtahan nəticəsinə təsir göstərmək, o cümlədən başqasının cavab kartına (vərəqinə), sual kitabçasına baxmaq və ya öz cavab kartına (vərəqinə), sual kitabçasına başqasının baxmasına şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;

6.13.6. nəzarətçiyə və ya digər şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək;

6.13.7. cavab kartını (vərəqini) və sual kitabçasını nəzarətçiyə təhvil vermədən imtahanın keçirildiyi zalı tərk etmək.

6.14. Namizədin bu Qaydaların 6.13-cü bəndində qeyd edilən hərəkətlərə yol verməsi halları aşkar edildikdə, onun yazılı imtahanının nəticələri Mərkəz tərəfindən ləğv edilir. Bu qərardan inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.

6.15. Yazılı imtahanın nəticələrindən narazı qalan namizəd nəticələrin elan olunduğu tarixdən etibarən 3 (üç) iş günü müddətində Mərkəz tərəfindən yaradılmış Apellyasiya komissiyasına şikayət edə bilər. Apellyasiya komissiyasında şikayətə aidiyyəti mütəxəssislər baxırlar və namizədə Mərkəz tərəfindən əsaslandırılmış cavab verilir. Namizədin yazılı imtahanının nəticələrinin düzgün hesablanmadığı müəyyən edildikdə, yenidən hesablanma aparılır və nəticələr yenilənir.

6.16. Apellyasiya komissiyasının qərarından razı qalmayan namizəd məhkəməyə şikayət verə bilər.

## 7. Müsabiqənin müsahibə mərhələsi

7.1. Yazılı imtahanın nəticələri elan olunduğu tarixdən etibarən 15 (on beş) gün müddətində yazılı imtahandan müvəffəqiyyətlə keçmiş namizədlər aşağıdakı sənədləri Nazirliyin kadr məsələlərinə məsul struktur bölməsinə təqdim edirlər:

7.1.1. şəxsiyyət vəsiqəsinin surəti;

7.1.2. kadrlar uçotunun şəxsi vərəqəsi;

7.1.3. sorğu anketi (nümunəsi Nazirliyin kadr məsələlərinə məsul struktur bölməsi tərəfindən namizədə verilir);

7.1.4. tərcümeyi-hal;

7.1.5. kağız daşıyıcıda 4x6 sm ölçülü 4 ədəd və elektron daşıyıcıda biometrik fotoşəkil (işgüzar geyimdə, ağ fonda);

7.1.6. ali təhsil haqqında dövlət sənədinin (diplomun) surəti (xarici ölkədə təhsil almış namizədin ali təhsil haqqında dövlət sənədinə (diplomuna) müvafiq xarici dövlətin ali təhsilə aid kvalifikasiyasının peşə tanınması barədə şəhadətnamənin surəti əlavə olunur);

7.1.7. ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqaviləsinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının qeyd aparılmış səhifələrinin surəti;

7.1.8. nikah, boşanma və 15 yaşınadək uşaqlarının doğum haqqında şəhadətnamələrinin, 15 yaşından 18 yaşınadək uşaqlarının şəxsiyyət vəsiqələrinin (olduğu təqdirdə) surətləri;

7.1.9. hərbi biletin (olduğu təqdirdə) qeyd aparılmış səhifələrinin surəti;

7.1.10. sağlamlıq haqqında tibbi arayış;

7.1.11. namizədin özünü, peşə bilik və bacarıqlarını xarakterizə edən digər sənədlərinin (olduğu təqdirdə) surətləri.

7.2. Nazirlik tərəfindən bu Qaydaların 7.1.1–7.1.11-ci yarımbəndlərində qeyd olunan sənədlərin və (və ya) həmin sənədlərdəki məlumatların Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra – EHİS) vasitəsilə müvafiq dövlət orqanlarından (qurumlarından) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və (və ya) məlumatlar namizəddən tələb edilmir. Belə sənədlərin və (və ya) məlumatların EHİS vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi namizədin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya namizəd tərəfindən təmin edilir.

7.3. Bu Qaydaların 7.1-ci bəndində qeyd olunan müddətdə müvafiq sənədləri təqdim etməyən namizəd müsahibəyə buraxılmır. Belə halda həmin şəxsin adı namizədlər siyahısından çıxarılır və ona bu barədə 5 (beş) iş günü müddətində məlumat verilir.

7.4. Qanunun 17.3-cü maddəsinə uyğun olaraq müraciət etmiş və müsabiqənin yazılı imtahan mərhələsindən azad edilmiş, həmçinin Qanunun 17.4-cü maddəsinə uyğun olaraq müraciət etmiş və yazılı imtahandan müvəffəqiyyətlə keçmiş namizədlərin sənədləri müsahibədən əvvəl Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi qaydaya uyğun yoxlanılır.

7.5. Sənədləri bu Qaydaların 7.4-cü bəndində qeyd olunan yoxlamadan müvəffəqiyyətlə keçmiş namizədlər müsahibəyə çağırılır və onlara müsahibənin keçiriləcəyi tarix, vaxt və yer barədə azı 3 (üç) gün əvvəl məlumat verilir.

7.6. Qanunun 17.5-ci maddəsinə uyğun olaraq, namizədin təqdim etdiyi sənədlərdə bilərəkdən təhrif olunmuş məlumatların qeyd edilməsi həmin şəxsin diplomatik xidmətə qəbulundan imtina üçün əsasdır.

7.7. Müsabiqənin müsahibə mərhələsi Azərbaycan Respublikası xarici işlər nazirinin əmri ilə Nazirliyin rəhbər vəzifəli şəxslərindən ibarət tərkibdə (sədr və üzvlər) yaradılan müsahibə komissiyası (bundan sonra – Komissiya) tərəfindən təşkil edilir və həyata keçirilir.

7.8. Komissiyanın işinə müstəqil ekspertlər və mütəxəssislər cəlb edilə bilərlər.

7.9. Komissiya bu Qaydaların 7.4-cü bəndində qeyd olunan yoxlamanın nəticələrini və Qanunun 16.2-ci maddəsində göstərilən hallar barədə məlumatları təhlil etdikdən sonra müsahibənin keçirilməsi barədə qərar qəbul edir.

7.10. Namizədlərlə müsahibə sədr də daxil olmaqla 7 (yeddi) üzvdən ibarət Komissiya tərəfindən aparılır.

7.11. Müsahibə yazılı imtahanın nəticələri elan olunduğu tarixdən etibarən 90 (doxsan) gün müddətində təşkil edilir.

7.12. Müsahibə keçirilən gün müsahibədə iştirak edəcək namizədlərin siyahısı və şəxsi işləri müsahibədən əvvəl Komissiyaya təqdim edilir.

7.13. Komissiyanın üzvü namizədlərdən hər hansı biri ilə yaxın qohumluq (ər-arvad, baba, nənə, valideyn, övladlığa götürənlər, doğma və ögey qardaşlar və bacılar, uşaqlar, övladlığa götürülənlər və onların yaxın qohumları, nəvə, əmi, dayı, bibi, xala), şəxsi yaxınlıq, asılılıq, şəxsi ədavət münasibətində olduqda, yaxud müsahibə nəticələrinin obyektiv qiymətləndirilməsinə mənfi təsir edə bilən və ya müsahibənin aparılması qaydalarının pozulmasına səbəb ola bilən başqa hallar mövcud olduqda, həmin üzv özü-özünə etiraz edir. Belə əsaslar olduqda, müsahibə başlanmazdan əvvəl namizəd Komissiyanın hər hansı üzvünə (üzvlərinə) etiraz edə bilər. Etiraz əsaslandırılmış olduqda, barəsində etiraz edilmiş və ya özü-özünə etiraz etmiş Komissiya üzvü müvafiq namizədlə müsahibədə iştirak etmir.

7.14. Müsahibə zamanı Komissiyanın üzvləri namizədin diplomatik xidmətə qəbul üçün zəruri bilik və bacarıqlara malik olduğunu müəyyən etmək məqsədilə müsabiqə proqramı üzrə suallar verirlər. Namizədin ona verilən aydın olmayan sualları dəqiqləşdirmək hüququ vardır.

7.15. Müsahibədə hər bir namizədə 30 (otuz) dəqiqə vaxt ayrılır.

7.16. Müsahibə prosesi videoçəkiliş vasitəsilə qeydə alınır.

7.17. Müsahibədə verilmiş suallara namizədin cavabları aşağıdakı meyarlar üzrə qiymətləndirilir:

7.17.1. bilik səviyyəsi – müsabiqə proqramı və ixtisas üzrə bilikləri;

7.17.2. peşə hazırlığı – müsabiqə proqramı üzrə biliklərini tətbiqetmə bacarığı və informasiya texnologiyalarından istifadə qabiliyyəti;

7.17.3. xarici dil biliyi – xarici dili bilmə səviyyəsi və ondan istifadə bacarığı;

7.17.4. ümumi dünyagörüşü və məntiqi düşünmə bacarığı – beynəlxalq münasibətlər sahəsində və Azərbaycan Respublikasının ictimai-siyasi həyatında baş verən mühüm hadisələr barədə məlumatlılıq, eləcə də onlar barəsində təhlil və mülahizə yürütmə qabiliyyəti;

7.17.5. diplomatik xidmətkeçmədə zəruri olan digər keyfiyyətlər – emosional sabitlik, təmkinlilik, məsuliyyətlilik, məqsədyönlülük, dürüstlük, özünütənqid, fikir və mülahizələrini ifadə etmə, ünsiyyət qurma və s.

7.18. Müsahibə başa çatdıqdan sonra namizədlərin iştirakı olmadan Komissiyanın üzvləri arasında müsahibə ilə bağlı fikir mübadiləsi aparıla bilər.

7.19. Namizəd hər bir meyar üzrə maksimum 5 (beş) balla qiymətləndirilir. Bu zaman qiymətləndirmə vahidi olaraq 0,5 (sıfır tam onda beş) bal götürülür. Qiymətləndirmə zamanı Komissiya üzvlərinin hər bir meyar üzrə verdiyi qiymətlər toplanaraq Komissiya üzvlərinin sayına bölünür və orta bal müəyyən edilir. Ümumi bal hər bir meyar üzrə müəyyən edilmiş orta balların cəmindən ibarət olur.

7.20. Hər bir meyar üzrə verilmiş ballar bu Qaydalara əlavə – "Qiymətləndirmə protokolu"nun müvafiq hissəsində qeyd olunur.

7.21. Hər bir qiymətləndirmə meyarı üzrə qiymətləndirmə nəticəsinin 3,5 (üç tam onda beş) bal və daha yuxarı olması şərtilə, bütün meyarlar üzrə ümumi qiymətləndirmə nəticəsi 18 (on səkkiz) bal və daha yuxarı olan namizəd müsahibədən müvəffəqiyyətlə keçmiş hesab olunur.

7.22. Komissiya üzvünün namizəd barədə xüsusi rəyi olduqda həmin rəy "Qiymətləndirmə protokolu"na əlavə edilir.

7.23. Bütün namizədlərlə müsahibə başa çatdıqdan sonra 5 (beş) iş günündən gec olmayaraq müsahibənin nəticələri elan olunur və namizədlərə bu barədə məlumat verilir.

7.24. Komissiyanın qərarından razı qalmayan namizəd müsahibənin nəticələri elan olunduğu tarixdən 5 (beş) iş günü müddətində Nazirliyə apellyasiya şikayəti verə bilər. Həmin şikayətə Nazirliyin Apellyasiya Şurasında 30 (otuz) gün müddətində baxılır. Namizəd Apellyasiya Şurasının iclasında iştirak etmək hüququna malikdir. Şikayətə baxılmanın nəticəsi barədə namizədin elektron poçt ünvanına, habelə digər əlaqə vasitələrinə məlumat göndərilir. Şikayətə baxılmanın nəticəsindən razı qalmayan namizəd inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

7.25. Qanunun 18.1-ci maddəsinə uyğun olaraq, diplomatik xidmətə müsabiqənin hər iki mərhələsindən keçərək qəbul edilən şəxslər Nazirlikdə müvafiq vakant diplomatik vəzifəyə stajçı kimi təyin edilirlər. Qanunun 18.2-ci maddəsinə uyğun olaraq, diplomatik xidmətə qəbul olunan bu Qaydaların 4.2-ci bəndində göstərilən şəxslər isə sınaq müddəti ilə diplomatik xidmətə qəbul edilirlər. Müsabiqədən müvəffəqiyyətlə keçmiş namizəd elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla başqa ödənişli fəaliyyətlə məşğul olduğu təqdirdə – həmin fəaliyyətini dayandırdığına, habelə ali təhsilin müvafiq səviyyələri üzrə istehsalatdan tam ayrılmaqla həyata keçirilən təhsilalma forması üzrə təhsil aldığı təqdirdə – həmin təhsili başa vurduğuna dair sənədi Nazirliyin kadr məsələlərinə məsul struktur bölməsinə təqdim etdikdən sonra diplomatik xidmətə qəbul olunur.

*“Diplomatik xidmətə qəbul üzrə müsabiqənin keçirilməsi Qaydaları”na əlavə*

# Qiymətləndirmə protokolu

| | |
|---|---|
| Namizədin soyadı, adı, atasının adı | |
| Doğulduğu tarix və yer | |
| Ali təhsili (təhsil müəssisəsinin adı, təhsil müddəti, təhsil səviyyəsi) | |
| Fakültə, ixtisas | |
| Elmi dərəcə | |
| Xarici dil biliyi səviyyəsi | |
| Hazırkı və ya əvvəlki iş yeri və vəzifəsi | |
| Ailə vəziyyəti | |

| Yazılı imtahan nəticələri | TEST: | E-AZ: | E-XD: | XD: |
|---|---|---|---|---|

| ÜMUMİ QİYMƏTLƏNDİRMƏ | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| A | B | C | D | E | Cəmi bal | Uyğundur | Uyğun deyil |
| | | | | | | | |

| Müsahibə komissiyası üzvünün soyadı və adı | İmzası |
|---|---|
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |

| QEYDLƏR : |
|---|
| |

____ ________________ 20______

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 11 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Diplomatik xidmətə qəbul olunmaq üçün müraciət etmiş şəxslərin sənədlərinin müsahibədən əvvəl yoxlanılması

# QAYDASI

**1.** Bu Qayda “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 17.4-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində (bundan sonra – Nazirlik) diplomatik xidmətə qəbul olunmaq üçün müraciət etmiş şəxslərin (bundan sonra – namizəd) sənədlərinin müsahibədən əvvəl yoxlanılması qaydasını müəyyən edir.

**2.** Diplomatik xidmətə qəbul olunmaq üçün Qanunun 17.3-cü maddəsinə uyğun olaraq müraciət etmiş və ya müsabiqənin yazılı imtahan mərhələsindən müvəffəqiyyətlə keçmiş namizədin sənədləri müsahibədən əvvəl yoxlanılır.

**3.** Qanunun 16-cı maddəsinə uyğun olaraq, bu Qaydanın 3.1–3.7-ci bəndlərində qeyd olunan məlumatlar müvafiq dövlət orqanlarından (qurumlarından) Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilir. Bu mümkün olmadıqda, Nazirlik namizəd barəsində aşağıdakı məlumatların əldə edilməsi üçün müvafiq dövlət orqanlarına (qurumlarına) sorğular göndərir:

3.1. namizədin ikili vətəndaşlığının olub-olmadığını yoxlamaq üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə;

3.2. namizədin digər dövlətlər qarşısında öhdəliyinin (xarici dövlətdə daimi yaşayış icazəsi əsasında yaşamaqla bağlı yaranan davamlı, möhkəm və sabit münasibətlərin mövcudluğuna səbəb olan qeydiyyat, müvafiq xarici dövlətin ərazisini müəyyən müddətdən artıq tərk etməmək, habelə siyasi, vergi və ya hüquqi öhdəliyinin) olub-olmadığını yoxlamaq üçün Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə;

3.3. namizədin din xadimi olub-olmadığını yoxlamaq üçün Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə;

3.4. namizədin ödənilməmiş və ya götürülməmiş məhkumluğunun olub-olmadığını, əvvəllər ağır və ya xüsusilə ağır cinayətlərə görə məhkum olunub-olunmadığını, yaxud barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilib-verilmədiyini yoxlamaq üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə;

3.5. namizədin fəaliyyət qabiliyyətinə malik olmaması, məhdud fəaliyyət qabiliyyətinə malik olması və ya barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarının olub-olmadığını yoxlamaq üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə;

3.6. namizədin dövlət orqanlarında (qurumlarında) əvvəllər yol verdiyi kobud pozuntuya və ya qulluqla (xidmətlə) bir araya sığmayan hərəkətlərə görə qulluğuna (xidmətinə) və ya əmək müqaviləsinə xitam verilib-verilmədiyini yoxlamaq üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və ya əvvəllər qulluq (xidmət) keçdiyi, yaxud işlədiyi dövlət orqanına (qurumuna);

3.7. namizədin qanunla müəyyən olunmuş qaydada müddətli həqiqi hərbi xidmət keçib-keçmədiyini, o cümlədən qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət verilməsini və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməsini yoxlamaq üçün Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə.

**4.** Bu Qaydada nəzərdə tutulan yoxlama aparılarkən müvafiq dövlət orqanları (qurumları) tərəfindən namizədin Azərbaycan Respublikasının təhlükəsizliyi üçün təhdid törədən hərəkətləri aşkar edildikdə, bu barədə bu Qaydanın 8-ci hissəsində göstərilən müddətdə Nazirliyə məlumat verilməlidir.

**5.** Nazirlik bu Qaydanın 4-cü hissəsində qeyd olunan məlumatın məxfiliyinin qorunması üçün tədbirlər görməli və üçüncü şəxslərə münasibətdə bu Qaydanın 3-cü hissəsinə əsasən əldə edilən məlumatların konfidensiallığını “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun təmin etməlidir. Bu Qaydada nəzərdə tutulan yoxlamanın nəticələrinə dair müvafiq dövlət orqanları (qurumları) tərəfindən Nazirliyə təqdim edilən məlumatların məzmununa “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət sirri təşkil edən məlumatlar daxil edilmir.

**6.** Bu Qaydada nəzərdə tutulan yoxlama Qanunun 17.7-ci maddəsinə uyğun olaraq müraciət etmiş namizədlərə də şamil olunur.

**7.** Nazirliyin sorğusuna namizədlərin diplomatik xidmətə qəbul olunmaq üçün təqdim etdikləri sənədlər əlavə edilir.

**8.** Nazirliyin namizədlər barəsində sorğularına aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən 20 (iyirmi) iş günü müddətində baxılır və Nazirliyə yazılı cavab verilir.

*Əks-səda*

# Avropa Şurasının media hesabatında Azərbaycana yanaşma qərəzlidir

**Avropa Şurasının Jurnalistikanın Müdafiəsi və Jurnalistlərin Təhlükəsizliyinin Təşviqi Platformasının Avropada mətbuat azadlığının vəziyyətinə dair 2025-ci il üzrə illik hesabatının Azərbaycanla bağlı hissələri qərəzlidir. Belə yanaşmanın “köhnə qitə”nin, ümumən, dünyanın ayrı-ayrı institutları üçün adi hala çevrilməsi təəssüf doğrurur. Hesab edirəm ki, bu kimi hallar, ümumən, söz və ifadə azadlığı prinsiplərinə xələl gətirir, həmçinin ali dəyərlərlə spekulyasiya mahiyyəti daşımaqla, mənfi presedent yaradır.**

Birincisi, hiss olunur ki, Avropa Şurasının Jurnalistikanın Müdafiəsi və Jurnalistlərin Təhlükəsizliyinin Təşviqi Platforması Azərbaycanla bağlı hesabat hazırlayarkən, bir çox məqamlara diqqət yetirməyib. Sənəd müəlliflərinin gördükləri işə səthi münasibət göstərdikləri birmənalıdır. Belə təəssürat yaranır ki, kimlərsə əvvəlcədən qarşılarına Azərbaycanı ləkələmək məqsədi qoyub və sonra həmin məqsədi reallaşdırmaq üçün hesabat hazırlayıb.



İkincisi, Azərbaycan dövlətinin son illərdə apardığı media siyasəti mövcud məkanda həm saflaşmanı, həm də şəffaflaşmanı hədəf seçib. Bu hədəfə doğru atılan addımlar beynəlxalq təcrübədən qaynaqlanıb. Eyni zamanda, o da tam aydındır ki, medianın sağlamlaşması zərurəti Azərbaycan cəmiyyətinin sosial sifarişindən irəli gəlir. Yəni islahatlar bu sifarişin icrasına adekvat yanaşmanın göstəricisidir. Sözügedən hesabatdan gəlinən qənaət isə budur ki, sanki reallaşdırılmış tədbirlərdə hansısa mürtəce xarakter və mahiyyət var. Bu cür kortəbii rəy təkcə Azərbaycanın deyil, ümumən, dünyanın hazırda getdiyi media tənzimləməsi yolunu şübhələndirməkdir.

Üçüncüsü, kimsə Azərbaycan mediasında çətinliklərin olmadığını, hər şeyin qaydasında getdiyini iddia etmir. Problem də var, onların aradan qaldırılmasına yönələn iradə də. Ölkəmizdə aparılan media islahatlarının məğzində, bütövlükdə, Azərbaycanda söz və ifadə azadlığının, plüralist fikrin, bir növ, keşiyində dayanmaq əzmi də duyulur. Görünür, bu əzmimiz dünyada hansısa qüvvələri qane etmir. Bəlkə Azərbaycanın media mühitində anarxiya olmalı idi ki, bizdən razı qalsınlar? Görəsən, dünyanın harasında anarxik təmayüllər norma kimi qəbul olunur? Əlbəttə, suallarımız ritorikdir.

Azərbaycan Mətbuat Şurası Avropada mətbuat azadlığının vəziyyətinə dair 2025-ci il üzrə illik hesabatın Azərbaycanla bağlı hissələri ilə qətiyyən razılaşmır. Bu sayaq sənədlərin obyektivliyi əks etdirmədiyi düşüncəsindəyik. Yaxşı olar ki, özünü dünyada söz və ifadə azadlığının, plüralist fikrin qoruyucusu qismində göstərməyə çalışan təsisatlar üzərilərinə götürdükləri missiyanın əlahiddəliyinə adekvat davransınlar və nəzərə alsınlar ki, ali dəyərlərdən sui-istifadəni adiləşdirməklə, özlərinin mənəvi legitimliklərini şübhə altına alırlar. Belə şübhələrin formalaşdırdığı etimadsızlıq mühiti isə söz azadlığına etinasız yanaşanlara münbit zəmin yaradır, onlara xoşagəlməz əməllərini davam etdirmək üçün yeni fürsətlər qazandırır.

***Rəşad MƏCİD,***
***Azərbaycan Mətbuat Şurasının sədri***

# Strasburq ölkəmizdə jurnalistikanı təşviq deyil, təhdid edir

**Peşəkar jurnalistikanı ciddi şəkildə təhdid edən aktul problemlər, qlobal proseslər mövcuddur. Bu sırada “texnologiya nəhənglərinin” informasiya ekosistemində dominantlığı ələ keçirməsindən başlamış, generativ süni intellekt texnologiyalarının mediaya neqativ təsirlərinə, aparıcı sosial şəbəkə platformalarının reklam gəlirlərini özünə çəkərək media-biznes modelini məhv etməsinə qədər ən müxtəlif istiqamətlər mövcuddur. Bu yeni tendensiyalarla yanaşı, ənənəvi problemlər də qalıb, davam edir və onlar peşəkar media mühitini təhdid edirlər.**

Məsələn, jurnalistlərin təhlükəsiz şəkildə fəaliyyət göstərmək hüquqlarının pozulması kimi klassik problem indi daha da intensivləşib; daha kobud, ağır forma alıb. Statistika mərkəzləri qeyd edirlər ki, son 4 il ərzində, yəni Rusiya–Ukrayna müharibəsinin başlanması və İsrail–Həmas savaşı fonunda Yaxın Şərq regionunda gərginliyin artmasından sonra jurnalistlər üçün olduqca təhlükəli dövr başlayıb. Bu 4 il ərzində təqribən 300 nəfər jurnalist peşə fəaliyyətini yerinə yetirərkən öldürülüb. 470 nəfər jurnalist yaralanıb, ağır xəsarətlər alıb. 90 nəfər jurnalist girov götürülüb və ya həbs edilib.



Bu cür klassik problemlərin “modern” təhdidlərlə çulğaşması peşəkar media mühitini boğur, faktiki olaraq, onu məhv edib sıradan çıxarır. Mediaya aidiyyəti olan beynəlxalq təşkilatların, qlobal platformaların birbaşa missiyasıdır ki, həmin problemlərin həlli üçün səmərəli təkliflər versinlər və təkidli tələblərlə onların həllinə nail olsunlar. Avropa Şurasının Jurnalistikanın Müdafiəsi və Jurnalistlərin Təhlükəsizliyinin Təşviqi Platforması (AŞJMTTP) da bu məqsədlə təsis edilib. 2014-cü ildə yaradılan Platformanın tərkibində 15 beynəlxalq jurnalist təşkilatı birləşir. Bu 15 təşkilatın fəaliyyətinin AŞJMTTP tərkibində koordinasiya edilməsində məqsəd budur ki, güclərini birləşdirsinlər, “modernləşərək”, güclənən təhdidlərə qarşı çıxış edə bilsinlər.

Çox təəssüf ki, biz bu sahədə heç bir ciddi fəaliyyət və nailiyyət görə bilmirik. Beynəlxalq jurnalist təşkilatları sanki şikəst ediliblər, ölüblər və heç bir funksiyalarını icra edə bilmirlər. Medianın qlobal risklərdən qorumaq üçün nə səmərəli təklifləri var, nə də effektiv addımları. Onlar ildə bir dəfə sınıq-salxaq bəyanatlar verməklə gündəmə gəlirlər. Ölmədiklərini, yaşadıqlarını, fəaliyyət göstərməkdə davam etdiklərini sərgiləmək istəyirlər.

Avropa Şurasının Jurnalistikanın Müdafiəsi və Jurnalistlərin Təhlükəsizliyinin Təşviqi Platformasının “Avropada mətbuat azadlığının vəziyyətinə dair 2025-ci il üzrə illik hesabatı” da bu streotipin davamıdır. Hesabatda heç bir yenilik yoxdur. Diqqət yetirsək görərik ki, 5 il, 10 il öncə hazırlanmış hesabatları simvolik şəkildə redaktə edərək indi yenidən yayıblar. Medianın modern problemlərini əhatə etmir, təsirli təhdidlərin üzərinə getmir.

Həmin hesabat nəinki köhnə faktlar, tezislər üzərində qurulub, həm də qərəzlidir, qeyri-obyektivdir. Yuxarıda media mühitini ciddi şəkildə təhdid edən qlobal tendensiyalardan bir neçəsini sadaladıq. Həm modern, həm də klassik təhdidləri əks etdirən bu tendensiyaların heç biri, konkret olaraq, Azərbaycanla bağlı deyil. Amma Avropa Şurasının platforması - AŞJMTTP – hesabatda tənqid hədəfi kimi Azərbaycanın və bizim kimi bir sıra dövlətlərin adını önə çəkir. Çox aydın şəkildə görünür ki, bu hesabat real arqumentlər əsasında deyil, siyasi konyukturaya əsaslanan qondarma faktlar əsasında hazırlanıb.

Avropa Şurasının Azərbaycanla mübahisəsi var. Bu mübahisəni ölkəmizə ləkə atmaqla, qisas almaqla həll etmək istəyir. Platformanın yaydığı hesabatda bu tendensiya çox aydın şəkildə görünür.

Amma unutmasınlar ki, Azərbaycana təzyiq göstərməklə nəsə qazanmaq taktikası heç vaxt gözlənilən və arzu edilən effekti verməyib.

***Müşfiq ƏLƏSGƏRLİ,***
***XQ-nin media eksperti***

# Xocalı və Xocavənddə növbəti qayıdış sevinci

*Xanabad kəndi və Qırmızı Bazar qəsəbəsi də doğma sakinlərinə qovuşdu*

**Martın 11-də Xocalı və Xocavənd rayonlarında növbəti qayıdış sevinci yaşanıb. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, bu mərhələdə 103 nəfərdən ibarət 21 ailə Xocalının Xanabad kəndinə, 81 nəfərdən ibarət 20 ailə isə Xocavəndin Qırmızı Bazar qəsəbəsinə köçürülüb.**



Xanabadın yeni sakinlərinə evlərinin açarları Xocalı şəhərində təqdim olunub. Tədbirdə çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktor müavini Mahmud Əfəndiyev keçmiş məcburi köçkünləri təbrik edərək bildirib ki, azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri günbəgün sürətlənir.

İşğaldan azad olunmuş ərazilərdə yeni yaşayış məntəqələrinin salındığını, müasir infrastrukturun yaradıldığını qeyd edən M.Əfəndiyev, həmçinin vurğulayıb ki, Xanabad kəndinə köçürülən ailələr üçün bərpa edilmiş fərdi yaşayış evləri də bütün zəruri kommunal xidmətlərlə təmin olunub, kəndə daimi elektrik enerjisi, içməli su, təbii qaz və internet verilir.

Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə köçən ailələrə açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları, qəsəbə sakinləri iştirak ediblər.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşları tərəfindən hər iki yaşayış məntəqəsində yeni sakinlərə mina və partlamamış hərbi sursatların təhlükəsi barədə ətraflı məlumat verilib.

Doğma yurdlarına qayıdan sakinlər isə yaradılan şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirərək, uzun illərdən sonra ata-baba torpaqlarına qovuşmağın sevincini yaşadıqlarını qeyd ediblər. Onlar, eyni zamanda, xalqımıza tarixi qələbələr bəxş edən, torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəman oğullarımızın əziz xatirəsini ehtiramla anıb, hər birinə Allahdan rəhmət diləyiblər, döyüşlərdə şücaət göstərən qazilərimizə cansağlığı arzulayıblar.

Qeyd edək ki, Xocalı və Xocavəndə qayıdışı təmin edilmiş keçmiş məcburi köçkünlər əsasən respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***



# Enerjidən logistikaya

## Azərbaycan – Avropa əməkdaşlığının genişlənən gündəliyi

**Dünən Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta arasında baş tutan görüş Aİ və ölkəmiz üçün iqtisadi və enerji əməkdaşlığının genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.**

Liderlərin mətbuata bəyanatlarla çıxışı da deyilənlərə əyani sübutdur. İlk olaraq, ölkə başçımız Avropa İttifaqı Şurasının Prezidentinin Azərbaycana səfərinə böyük əhəmiyyət verildiyini vurğuladı. Dövlət başçısı qeyd etdi ki, son illərdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər dinamik inkişaf edir.

Bununla yanaşı, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji əməkdaşlığı artıq yeni mərhələyə qədəm qoyur və bu əməkdaşlıq çərçivəsində bərpaolunan enerji istiqaməti xüsusi önəm kəsb edir. Azərbaycanın külək və Günəş enerjisi potensialının yüksək olduğunu vurğulayan ölkə başçısı bu sahədə genişmiqyaslı layihələrin həyata keçirildiyini və enerji infrastrukturuna böyük sərmayələrin yatırıldığını qeyd edib.

Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta da çıxışında qlobal enerji bazarlarında baş verən dəyişikliklər fonunda Azərbaycan ilə əməkdaşlığın əhəmiyyətinin daha da artdığını vurğulayıb. Onun sözlərinə görə, hazırda regionda, xüsusilə İranda baş verən hadisələr dünya enerji bazarlarında ciddi dalğalanmalar yaradır və belə şəraitdə Azərbaycan ilə enerji tərəfdaşlığı Avropa üçün strateji əhəmiyyət daşıyır. Avropa İttifaqı Azərbaycanın enerji keçidi siyasətini dəstəkləməyə və bu istiqamətdə sərmayələrin cəlb edilməsinə hazırdır. O, həmçinin Avropa ölkələrindən olan bərpaolunan enerji şirkətlərinin bu prosesdə fəal iştirak edə biləcəyini qeyd edib.

Görüşdə regionun nəqliyyat və logistika imkanları da diqqət mərkəzində olub. Antonio Koşta Orta Dəhlizin inkişafının Avropa ilə Asiya arasında yeni strateji imkanlar yaratdığını bildirib. Onun sözlərinə görə, Bakı–Naxçıvan dəmir yolu layihəsinin başa çatdırılması bu marşrutun formalaşmasında mühüm rol oynayacaq və qitələrarası nəqliyyat əlaqələrinin daha dayanıqlı və səmərəli qurulmasına şərait yaradacaq. Avropa İttifaqı Şurasının Prezidenti qeyd edib ki, bu layihə yeni iqtisadi imkanların açılmasına, iş yerlərinin yaradılmasına və region ölkələrinin iqtisadi potensialının güclənməsinə töhfə verəcək.

Məlumdur ki, enerji strategiyasının yeni mərhələsi Azərbaycanın qlobal enerji xəritəsində rolunu daha da möhkəmləndirən Cənub Qaz Dəhlizinin reallaşdırılması ilə bağlıdır. Bu nəhəng və çoxşaxəli layihə Xəzər hövzəsində hasil olunan təbii qazın Avropa bazarlarına çatdırılmasını təmin edən mühüm enerji arteriyası kimi qiymətləndirilir. Müxtəlif ölkələri və infrastruktur xətlərini birləşdirən bu sistem təkcə iqtisadi layihə kimi yox, həm də Avrasiyanın enerji təhlükəsizliyində strateji əhəmiyyət daşıyan platforma kimi diqqət çəkir.

Dəhlizin əsas elementlərindən biri olan Cənubi Qafqaz Qaz Boru Kəməri Azərbaycan qazını Gürcüstan ərazisindən keçirməklə Türkiyə sərhədinədək çatdırır. Bu xətt Cənub Qaz Dəhlizinin ilkin halqasını təşkil edir və regionun enerji marşrutlarının formalaşmasında mühüm rol oynayır. Layihənin növbəti həlqəsi isə Trans-Anadolu Qaz Boru Kəməri – TANAP-dır. TANAP Azərbaycan qazını Gürcüstan sərhədindən başlayaraq Türkiyə ərazisi boyunca uzadaraq Yunanıstan sərhədinədək nəql edir və beləliklə, Avropaya uzanan enerji dəhlizinin mərkəzi hissəsini təşkil edir. Bu kəmər Türkiyənin enerji təhlükəsizliyinə mühüm töhfə verməklə yanaşı, Avropaya qaz nəqlinin əsas tranzit xətlərindən biri kimi strateji əhəmiyyət qazanıb.

TANAP-ın ilkin ötürmə gücü isə illik 16 milyard kubmetr müəyyənləşdirilib. Lakin layihənin perspektiv inkişafı daha böyük həcmlərin nəqlini nəzərdə tutur. Qeyd edək ki, 2026-cı il fevralın 17-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən “Boru arzuları: gələcəyə uyğun enerji təhlükəsizliyi” mövzusunda dəyirmi masada Prezident İlham Əliyev TANAP-ın ötürmə gücünün gələcək mərhələdə 31 milyard kubmetrə qədər artırılmasının planlaşdırıldığını diqqətə çatdırdı. Bu perspektiv plan regionda enerji əməkdaşlığının daha geniş miqyas alacağından xəbər verir.

Cənub Qaz Dəhlizinin Avropaya açılan qapısı isə Trans-Adriatik boru kəməri – TAP layihəsidir. 2020-ci il dekabrın 31-də istismara verilən bu kəmər Azərbaycan qazının birbaşa Avropa bazarına çatdırılmasını mümkün etdi. TAP-ın fəaliyyətə başlaması ilə Azərbaycanın enerji siyasətində yeni mərhələ başlandı. Bu hadisə Avropanın enerji təhlükəsizliyi arxitekturasında yeni geosiyasi reallıq formalaşdırdı.

Enerji sektorunda əldə olunan nəticələr rəsmi statistik göstəricilərdə də aydın şəkildə, əksini tapır. Son illərdə ölkədə qaz hasilatı nəzərəçarpacaq templə artıb. Əgər 2017-ci ildə Azərbaycanda təbii qaz hasilatı 28,6 milyard kubmetr təşkil edirdisə, 2025-ci ildə bu göstərici 51,5 milyard kubmetrə yüksəlib. Eyni dövrdə qaz ixracı da sürətlə genişlənib və 8,5 milyard kubmetrdən 25,2 milyard kubmetrə qədər artıb. Bu dinamikanın arxasında isə yeni ixrac marşrutlarının açılması, enerji infrastrukturunun gücləndirilməsi və uzunmüddətli beynəlxalq müqavilələrin imzalanması dayanır.

Hazırda ixrac edilən qazın 12,8 milyard kubmetri Avropa ölkələrinə, 9,6 milyard kubmetri Türkiyəyə, 2,3 milyard kubmetri Gürcüstana, 0,5 milyard kubmetri isə Suriyaya çatdırılır. Azərbaycan qazını idxal edən ölkələrin sayı 16-ya çatıb. Bu siyahıda Gürcüstan, Türkiyə, İtaliya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya kimi dövlətlər yer alır. Bu ölkələrin 13-ü Avropa qitəsində yerləşir və onların 10-u Avropa İttifaqının üzvüdür.

Son 5 ildə Avropaya nəql edilən Azərbaycan qazının ümumi həcmi 56 milyard kubmetri ötüb. Bu göstərici ölkəmizin Avropa İttifaqına qaz ixrac edən əsas tərəfdaşlardan biri kimi mövqeyini gücləndirib. Hazırda Azərbaycan qazı Mərkəzi və Şərqi Avropa ilə yanaşı, tədricən Qərbi Avropa bazarlarına da daxil olur. Bütün bunlar Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan və sistemli rol oynadığını aydın şəkildə nümayiş etdirir.

***Nurlan ABDALOV***
***XQ***

### *Ekspert rəyi*



**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**

Avropa Şurasının Prezidentinin Azərbaycana səfəri ölkəmizin qlobal və regional siyasi mövqeyinin daha da gücləndiyini göstərən mühüm hadisə kimi qiymətləndirilir. Regionda baş verən proseslər və formalaşmaqda olan yeni geosiyasi reallıq fonunda Azərbaycan bir tərəfdən Cənubi Qafqazda təsirli regional güc kimi çıxış edir, digər tərəfdən isə Avropanın və bütövlükdə regionun enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verir.

Bu kontekstdə qlobal enerji bazarlarında müşahidə olunan dəyişikliklər də diqqət çəkir. Son dövrlərdə Avropa bazarlarında həm neftin, həm də təbii qazın qiymətlərində artım qeydə alınıb. Məlumatlara görə, təbii qazın qiyməti təxminən 50 faizə yaxın yüksəlib, neftin qiymətində isə təqribən 27 faizlik artım müşahidə olunub. Bu tendensiya Avropa ölkələrində enerji daşıyıcılarının bahalaşmasına, nəticə etibarilə isə iqtisadi proseslərə, xüsusilə inflyasiya meyillərinin güclənməsinə təsir göstərir.

Belə bir şəraitdə Azərbaycan ilə Avropa arasında əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Bu tərəfdaşlıq təkcə ənənəvi enerji sahəsi ilə məhdudlaşmır, eyni zamanda, innovativ istiqamətləri də əhatə edir. Xüsusilə bərpaolunan enerji və “yaşıl enerji” sahəsində əməkdaşlığın genişləndirilməsi gündəmdə duran əsas məsələlərdən biri kimi diqqət çəkir.

Məhz bu kontekstdə Avropa Şurası Prezidentinin Bakıya səfəri və Azərbaycan Prezidenti ilə keçirilən görüş tərəflər arasında əməkdaşlığın daha da genişlənəcəyini göstərir. Görüşdən sonra mətbuata verilən bəyanatlarda da vurğulandığı kimi, tərəflər siyasi, iqtisadi və enerji sahələrində əməkdaşlığın yeni mərhələyə yüksəlməsində maraqlıdırlar.

Əməkdaşlığın mühüm istiqamətlərindən biri də nəqliyyat və logistika sahəsidir. Xüsusilə beynəlxalq yükdaşımalarının artması, Orta Dəhlizin daha fəal istifadəsi və Zəngəzur dəhlizinin perspektiv imkanları Azərbaycan ilə Avropa arasında iqtisadi əlaqələrin genişlənməsi üçün əlavə imkanlar yaradır. Bu marşrutlar Avropa ilə Asiya arasında yük daşımalarının daha sürətli və səmərəli təşkilinə xidmət edə bilər.

Bu proses Azərbaycanın iqtisadi inkişafı baxımından da mühüm əhəmiyyət daşıyır. Enerji sektorundan əldə olunan gəlirlərin artması dövlət büdcəsinin imkanlarını genişləndirir, ölkə iqtisadiyyatının dayanıqlılığını artırır və enerji sektorunun strukturunun daha da şaxələndirilməsi üçün yeni imkanlar yaradır.

# Hörmüz boğazı hərbi gərginlikdən boğulur

## İran–ABŞ–İsrail münaqişəsi və qlobal enerji bazarına təsirləri

**Fevralın 28-dən etibarən Yaxın Şərqdə artan hərbi gərginlik dünya enerji bazarının diqqətini yenidən Hörmüz boğazına yönəldib. ABŞ və İsrailin İran ərazisinə endirdiyi zərbələrdən sonra Tehran boğaz boyunca gəmilərin hərəkətini ciddi şəkildə məhdudlaşdırıb. İran İnqilab Keşikçiləri Korpusunun (SEPAH) rəsmi bəyanatında bildirilir ki, boğazdan keçməyə cəhd edən hər hansı gəmi hədəf olacaq.**



SEPAH həmçinin vurğulayıb ki, ABŞ və İsrail səfirlərini öz ərazilərindən çıxaracaq hər hansı ərəb və ya Avropa ölkəsinin gəmiləri ertəsi gün Hörmüz boğazından sərbəst keçid hüququ əldə edəcək.

Fars və Oman körfəzlərini birləşdirən bu strateji su yolu dünya enerji ticarətinin ən kritik marşrutlarından biridir. Boğazın şimalında İran, cənubunda isə Oman və BƏƏ yerləşir. İran və Oman arasında yerləşən Hörmüz boğazı, dünya üzrə dəniz yolu ilə daşınan xam neftin təxminən dörddə birini və mayeləşdirilmiş təbii qazın təxminən 20 faizini daşıyır. Bu səbəbdən, burada yaranan hər hansı gərginlik qlobal enerji bazarına dərhal təsir göstərir.

SEPAH boğazın bağlandığını elan etdikdən sonra qlobal bazarlarda dərhal təlatüm müşahidə olunub və neft qiymətləri yüksəlib. CNN öz mənbələrinə istinadla bildirir ki, İran ABŞ və İsrailin hücumlarına cavab olaraq strateji neft tranziti marşrutu boyunca onlarla mina yerləşdirməyə başlayıb. Bu da öz növbəsində dünya bazarlarında qeyri-sabitlik yaradır.

“JPMorgan Chase” tərəfindən yayımlanan analitik hesabat isə göstərir ki, Hörmüz boğazının bağlanması qlobal neft hasilatına ciddi təsir göstərə bilər. Hesabata əsasən, boğaz bağlanarsa, ilk günlərdə ixrac problemləri yaranacaq, daha sonra isə Körfəz ölkələrində hasilat məcburi şəkildə azaldılmağa başlanacaq. Proqnoza görə, 8-ci günə qədər qlobal hasilat gündəlik təxminən 3,3 milyon barel azalacaq, on beşinci gün 3,8 milyon barelə yüksələcək və on səkkizinci gün isə itki gündəlik 4,7 milyon barelə çatacaq.

Bu azalmanın əsas səbəbi logistik məhdudiyyətlərlə bağlıdır. Körfəz ölkələrinin böyük hissəsi nefti ixrac etmək üçün məhz Hörmüz boğazından istifadə edir. Tankerlər boğazdan çıxa bilmədikdə limanlardakı anbarlar dolur və istehsalçı ölkələr hasilatı məcburən azaldır. Xüsusilə İraq, Küveyt, Səudiyyə Ərəbistanı və BƏƏ enerji ixracının böyük hissəsini bu marşrutdan həyata keçirir.

Bu gərginlik istehsalçı ölkələrlə yanaşı, idxalçılara da təsir edir. Məsələn, Vyetnam Ticarət Nazirliyi yanacaq sərfiyyatını azaltmaq məqsədilə şirkətlərə əməkdaşların məsafədən işləməsinə icazə verməyi tövsiyə edib. Ölkə enerji resurslarının böyük hissəsini Yaxın Şərqdən idxal etdiyi üçün yaranan fasilələr onun üçün ciddi problem yaradır. Banqladeş isə yanacaq satışına limitlər tətbiq edib: motosikletlər üçün gündə 2 litr, minik avtomobilləri üçün 10 litr yanacaqla məhdudlaşdırılıb və əvvəlki qəbzlərin təqdim edilməsi şərti qoyulub.

Aviaşirkətlər də bu gərginlikdən təsirlənib. “Qantas Airways”, SAS, “Air New Zealand” və digər aviaşirkətlər Yaxın Şərqdəki münaqişə səbəbindən yanacaq xərclərini qarşılamaq üçün bilet qiymətlərinə əlavə haqq qoyublar və uçuş cədvəllərini dəyişdiriblər.

Beynəlxalq səviyyədə reaksiya da gecikməyib. Martın 9-da G7 ölkələri, bir barel neftin qiymətinin 119 dollara qalxması fonunda, ehtiyatlardan istifadə etməyə hazır olduqlarını açıqlayıb. Lakin ekspertlər qeyd edir ki, hazırkı tədarük şoku 1950-ci illərdə baş verən Süveyş böhranı ilə müqayisədə daha böyükdür və strateji ehtiyatlardan istifadə uzun müddət bazarı sabitləşdirə bilməz.

Analitiklər vurğulayır ki, İranın boğazı uzun müddət tam blokadada saxlaması həm riskli, həm də iqtisadi baxımdan məhdudlaşdırıcı addımdır. Belə bir blokada digər ölkələrə deyil, İranın öz maraqlarına da ciddi zərbə vurur. Eyni zamanda, regionda yerləşən beynəlxalq hərbi qüvvələrin müdaxilə ehtimalı bu addımın uzun müddət davam etdirilməsini çətinləşdirir.

Hörmüz boğazı dünyanın enerji sistemində strateji nöqtə kimi qalır və İranın hərbi addımları, minalama iddiaları, ABŞ-ın sərt hədələri və geosiyasi gərginlik bu su yolunu qlobal enerji təhlükəsizliyi baxımından kritik məkana çevirib. Hər iki tərəfin atacağı addımlar gələcəkdə neft tədarükünə, qiymətlərə və beynəlxalq siyasətə ciddi şəkildə təsir edə bilər.

Hörmüz boğazı dünya neft ticarətinin təxminən beşdə birini təşkil etdiyindən, buradakı hər hansı gərginlik qlobal bazarlarda dərhal qiymət dəyişikliklərinə və iqtisadi təsirlərə səbəb olur. Bu vəziyyət həm də beynəlxalq münasibətlərdə yeni strateji qərarların qəbuluna təkan verir. İranın hərbi addımları, ABŞ və İsrailin cavabları, minalama iddiaları və strateji ehtiyatların istifadəsi qlobal enerji bazarını hər an gərgin vəziyyətdə saxlayır və bazar iştirakçılarını gələcəkdə potensial risklərə hazırlıqlı olmağa məcbur edir.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*

**K.XALİD,**
**iqtisadçı-ekspert**

Müharibələrin iqtisadi təsirləri, xüsusilə enerji bazarında adətən daha kəskin və sürətli şəkildə özünü göstərir. Yəni müharibənin enerji sektoruna təsiri hiss olunan kimi neft və qaz bazarlarında dərhal ciddi dalğalanmalar yaranır.

Belə dövrlərdə bazarda yüksək volatillik müşahidə olunur, qiymətlər qısa zaman ərzində kəskin şəkildə həm yüksəlir, həm də enir. Məsələn, bir neçə gün əvvəl günün əvvəlində neftin qiyməti təxminən 30 faiz artmışdı, günün sonunda isə 6 faiz geriləmişdi. Başqa sözlə, gün ərzində qiymətlərdə 35–36 faiz civarında dalğalanma baş vermişdi. Bu səviyyədə volatillik uzun müddət ərzində bazarda müşahidə olunmurdu. Yayılan xəbərlər və informasiyalar da bazara ciddi təsir göstərir.

Bu proseslərin davamlı olub-olmayacağı isə müharibənin nə qədər sürəcəyindən asılıdır. Əgər münaqişə qısa müddətdə başa çatarsa, onun enerji bazarına təsiri kəskin olsa belə, təsirin müddəti uzun çəkməyə bilər.

Digər tərəfdən, müharibənin yaratdığı təsirlər yalnız onun müddəti ilə məhdudlaşmır. Münaqişə zamanı enerji infrastrukturuna vurulan zərbələr də bazara ciddi təsir göstərir. Məsələn, İranın neft sənayesinə zərbələrin endirilməsi, eləcə də regiondakı digər ölkələrin, o cümlədən Birləşmiş Ərəb Əmirlikləri və Bəhreynin enerji infrastrukturuna yönələn hücumlar qlobal enerji bazarında əlavə risklər yaradır.

Bu müharibənin enerji infrastrukturuna vurduğu fiziki zərərin miqyası da qeyd etdiyiniz suala cavab baxımından mühüm rol oynayır. Hazırda müxtəlif xəbərlər eşidirik, müəyyən partlayışların və hücumların baş verdiyi bildirilir. Lakin indiki mərhələdə bu hadisələr hələ genişmiqyaslı xarakter daşımır. Yəni həm körfəz regionunda, həm də İranda enerji infrastrukturuna böyük və sistemli zərbələrin endirildiyini demək çətindir.

Başqa sözlə, 2 əsas amil həlledici rol oynayır: münaqişənin nə qədər davam edəcəyi və enerji infrastrukturuna vurulan fiziki ziyanın miqyası. Əgər müharibə qısa müddətdə başa çatsa və neft hasilatı sahələrinə, emal müəssisələrinə, eləcə də neft platformalarına ciddi zərər dəyməsə, bu halda bazarda yaranan gərginlik də nisbətən tez aradan qalxa bilər.

Lakin münaqişə uzun müddət davam edərsə və neft zavodlarına, hasilat obyektlərinə və digər enerji infrastrukturuna ciddi ziyan vurularsa, bu prosesin qlobal neft bazarına təsiri də daha uzun müddət hiss oluna bilər.

ARAŞDIRMA

# Ana südü qıtlaşdıqca, uşaq qidaları bahalaşır

## Yerli istehsalın olmaması isə vəziyyəti ildən-ilə pisləşdirir

**Azərbaycanda körpə qidalarının qiymətinin artması son vaxtlar cəmiyyətin ən həssas sosial mövzularından biri kimi diqqət çəkir. Xüsusilə süni qidalanan uşaqların valideynləri üçün bu məsələ artıq ciddi maliyyə yükü yaradır. Bazarda müşahidə edilən qiymət artımı və yerli istehsalın olmaması isə həm iqtisadi, həm də sosial baxımdan daha çox narahatlıq doğurur.**

Hazırda ata-anaların ən çox şikayət etdiyi məsələlərdən biri uşaq qidalarının qiymətinin, demək olar ki, hər 2-3 aydan bir artmasıdır. Apteklərdə və uşaq məhsulları mağazalarında satılan süni qidaların qiyməti brenddən, tərkibdən və qablaşdırmanın həcmindən asılı olaraq 10 manatdan başlayaraq 300 manata qədər dəyişir. Lakin satış statistikasına görə ən çox tələbat olan məhsullar əsasən 15-45 manat arasında qərarlaşır. Bu isə süni qida ilə saxlanılan körpənin aylıq xərcinin bəzi hallarda yüzlərlə manata qədər yüksələ biləcəyi deməkdir.

Əczaçılar bildirirlər ki, Azərbaycan bazarında satılan uşaq qidalarının böyük hissəsi idxal məhsullarıdır. Bu məhsullar daha çox Avropa ölkələrindən, Türkiyə və Rusiyadan gətirilir. Yerli istehsalın olmaması isə qiymətləri idxal xərclərindən, valyuta dəyişikliklərindən və logistika amillərindən birbaşa asılı edir. Bu səbəbdən bazarda qiymət sabitliyinin reallaşması getdikcə çətinləşir.

**Pediatr Vəli Usubov** qeyd edir ki, körpələr üçün ən ideal və təhlükəsiz qida ana südüdür. Lakin müxtəlif tibbi və sosial səbəblərdən bütün körpələrin ana südü ilə qidalanması mümkün olmur. Belə hallarda isə süni qidalardan istifadə edilir. Bu zaman məhsulun qiymətindən çox tərkibinə önəm verilməli, gizli şəkərin olmaması, qidanın körpənin yaş qrupuna uyğun gəlməsi və balanslaşdırılmış qida komponentləri əsas meyarlar kimi diqqətdə saxlanılmalıdır. Əksinə, dadlandırıcıların, rəngləndiricilərin və aromatizatorların çoxluğu məhsulun keyfiyyətini aşağı sala və körpənin sağlamlığı üçün arzuolunmaz nəticələr doğura bilər.




### Ekspert rəyi



**X.KƏRİMLİ,**
**iqtisadçı-ekspert**

Azərbaycanda körpə qidalarının qiymətinin artması son illər valideynlərin ən çox narahat olduğu məsələlərdən biridir. Xüsusilə süni qida ilə qidalanan uşaqlar üçün aylıq xərclərin yüksək olması bir çox ailənin büdcəsinə ciddi təsir göstərir. Apteklərdə və uşaq məhsulları mağazalarında satılan qidaların qiyməti brenddən və tərkibdən asılı olaraq geniş diapazonda dəyişir. Ən ucuz məhsullar, təxminən, 10 manatdan başlasa da, bəzi xüsusi formulaların qiyməti 200-300 manata qədər yüksəlir. Ən çox tələbat olan məhsullar isə əsasən 15-45 manat aralığında satılır.

Bu sahədə yaranan əsas problemlərdən biri Azərbaycanın uşaq qidaları bazarının demək olar ki, tam şəkildə idxaldan asılı olmasıdır. Hazırda ölkədə satılan körpə qidalarının böyük hissəsi xaricdən gətirilir. Yerli istehsalın olmaması isə qiymətlərin beynəlxalq bazar qiymətlərindən, valyuta dəyişikliklərindən və logistika xərclərindən birbaşa asılılığına səbəb olur.

Azərbaycanda uşaq qidalarına tələbat gündən-günə artır. Ancaq son vaxtlar bütün dünyada ciddi nəzərəçarpan qida böhranı və qiymət artımı bu sahədən də yan keçmir. Təkcə qida deyil, uşaq geyimləri və oyuncaqları da sürətlə bahalaşır. Bu durum isə aztəminatlı ailələr üçün vəziyyəti daha da çətinləşdirir.

Bu sahədə qiymətlərin artmaması üçün ən doğru çıxış yolu Azərbaycanda uşaq qidalarının istehsalına başlanılmasıdır. Ərzaq məhsullarının yarısının ölkədaxili istehsal olduğunu nəzərə alaraq respublikada uşaq qidaların da hazırlanmasına başlamaq olar. Belə halda, hətta bəzi inqrediyentlər Azərbaycana idxal edilsə belə, hər bir halda, maya dəyəri düşəcək və qiymət daha ucuz olacaq.

Azərbaycana süni uşaq qidaları xaricdən idxal edildiyindən son illər qiymətlərdə fantastik artım baş verib. Dünya bazarında da qiymətlər qalxıb, logistika bahalaşıb, ona görə bizdə uşaq yeməklərinin qiymətində ciddi bahalaşma nəzərə çarpır. Bunun qarşısını almağın yolu, təbii ki, yerli istehsalın təşkilidir. Bu məsələ ilə bağlı kompleks tədbirlər görülməlidir. Uşaqlara çəkilən xərclər artdıqca, ailə qurmaq istəyənlərin, ailələrdə uşaqların sayı azalır. Bu baxımdan hesab edirəm ki, bu, çox təhlükəli tendensiyadır. Aidiyyəti qurumlar bu məsələni nəzarətə götürməlidir. Körpə uşağa bahadır sözü demək olmur. Qiymət elə tənzimlənməlidir ki, hər kəsin cibinə uyğun olsun.

Bahalaşmanın səbəbləri çoxdur, bunlar arasında idxal qiymətlərinin yüksəlməsi, hökumət tərəfindən verilən əlavə yük və daşıma xərclərinin artması da var. Məsələn, yanacaq qiymətlərinin, kommunal xərclərin artırılması, minimum əməkhaqqının yüksəlməsi sahibkarların ölkə daxilində, həm də ölkə xaricində anbar saxlanma xərclərini artırır. Bütün bu amillər nəticədə məhsulların bahalaşmasına gətirib çıxarır.

Yuxarıdakı fikri bir qədər də konkretləşdirib vurğulaya bilərik ki, valideynlər üçün əsas problem qiymətlərin yüksək olması ilə yanaşı, məhsulların keyfiyyəti barədə dəqiq məlumat əldə etməyin çətinliyidir. Bir çox ailələr üçün uşaq qidasının seçimi yalnız qiymət amilinə əsaslanır. Halbuki mütəxəssislər bu məhsulların seçilməsində əsas meyarın təhlükəsizlik və qida dəyəri olmasını tövsiyə edirlər.

Beləliklə, Azərbaycanda körpə qidaları bazarı bir neçə mühüm problemlə – idxaldan yüksək asılılıq, qiymətlərin tez-tez dəyişməsi və keyfiyyətə nəzarət məsələləri ilə üzləşir. Bu sahədə vəziyyətin yaxşılaşdırılması üçün həm dövlət nəzarətinin gücləndirilməsi, həm də yerli istehsal imkanlarının araşdırılması zəruri hesab olunur. Eyni zamanda, gələcəkdə ölkədə uşaq qidaları istehsalının təşviqi və idxal olunan məhsulların laborator monitorinqinin gücləndirilməsi, eyni zamanda, qiymətlərin sabitləşməsinə və körpələrin qida təhlükəsizliyinin daha etibarlı şəkildə reallaşmasına kömək edə bilər.

### Bəs yerli istehsala nə mane olur?

Ekspertlər tərəfindən uşaq qidalarının bahalaşmasının əsas səbəblərindən biri kimi ölkədə bu sahədə yerli istehsalın olmaması göstərilir. Onların fikrincə, belə müəssisələrin yaradılması bazarda qiymətlərin optimallaşmasına və idxaldan asılılığın azalmasına kömək edə bilər. Lakin bu sahədə investisiya cəlb etmək o qədər də asan məsələ deyil. Çünki uşaq qidalarının istehsalı yüksək texnologiya, ciddi keyfiyyət nəzarəti və böyük istehsal həcmi tələb edir. Yalnız böyük istehsal miqyası formalaşdığı halda maya dəyərini aşağı salmaq və məhsulu əlçatan qiymətə təqdim etmək mümkün olur.

Digər tərəfdən, mütəxəssislərin əksəriyyəti idxal olunan bəzi məhsulların keyfiyyəti ilə bağlı risklərin də mövcudluğunu vurğulayır. Ümumiyyətlə, uşaq qidalarının təhlükəsizliyi məsələsi hər zaman beynəlxalq miqyasda daim diqqət mərkəzində saxlanılır. Azərbaycanda körpə qidalarının əsas hissəsi isə beynəlxalq brendlər tərəfindən istehsal olunur. Bu sahədə dünya bazarında üstün mövqe tutan şirkətlərdən biri Nestle hesab olunur. Şirkətin istehsal etdiyi SMA, BEBA və NAN kimi məhsullar Azərbaycan bazarında da geniş yayılıb.

Lakin son illər dünya miqyasında bu məhsulların təhlükəsizliyi ilə bağlı bir sıra qalmaqallar da baş verib. Cari ilin əvvəlində onların bəzilərinin tərkibində ürəkbulanma və qusma halları yarada biləcək toksinin olması ehtimalı səbəbindən həmin məhsulların müəyyən qismi bir sıra ölkələrdə geri çağırılıb. Məlumata görə, geri çağırış 25 ölkəyə məxsus zavodlarda istehsal olunan yüzlərlə məhsul partiyasına təsir göstərib. Bu hadisə beynəlxalq qida sənayesində uşaq qidalarına nəzarətin nə qədər vacib olduğunu bir daha gündəmə gətirib.

**Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynovun** fikrincə, bəzi hallarda Avropa İttifaqında geri çağırılan və ya satışına məhdudiyyət qoyulan məhsullar digər ölkələrin bazarlarında da görünə bilir. Bunun əsas səbəbi qlobal ticarət zəncirinin mürəkkəbliyidir. Belə ki, uşaq qidalarının satışında çox vaxt istehsalçı şirkət → regional distribütor → topdansatış şirkəti → yerli idxalçı → aptek və ya mağaza zənciri mövcuddur. Bu zəncirin uzun olması səbəbindən geri çağırılma qərarı bütün satış nöqtələrinə eyni vaxtda çatmır. Digər səbəb isə paralel idxal adlandırılan ticarət mexanizmidir. Bəzi hallarda məhsullar rəsmi distribütorlar deyil, üçüncü tərəf şirkətlər tərəfindən başqa ölkələrdən alınaraq bazara gətirilir. Belə məhsulların hamısı rəsmi idxal prosedurlarından keçmədiyinə görə onların üzərində nəzarət də getdikcə zəifləyir.

Yeri gəlmişkən, ölkədə satılan uşaq qidaları qiymətlərinin formalaşması birbaşa xarici bazar amillərindən asılıdır. Bu məsələdə beynəlxalq xammal qiymətləri, logistika və daşınma xərcləri, valyuta məzənnələrinin dəyişməsi, eləcə də idxal və distribütor marjaları əsas rol oynayır. Bu amillərin hər hansı birində baş verən dəyişiklik bazarda qiymət artımı ilə nəticələnə bilər. Məsələn, son illərdə qlobal logistika xərclərinin artması və xammal bazarında baş verən bahalaşma uşaq qidalarının qiymətlərinə də təsir göstərib. Bu sahədə bahalaşmanın əsas iqtisadi səbəbləri isə son illər qlobal xammalın, körpə qidalarının əsas komponentləri olan süd zülalı, bitki yağları, vitamin kompleksləri və xüsusi yağ turşularının dünya bazarında qiymətlərinin sürətlə artmasıdır.

### Xarici ölkələrin ciddi nəzarət sistemi

İnkişaf etmiş ölkələrdə uşaq qidalarının istehsalı və satışı çox sərt qaydalarla tənzimlənir. Məsələn, Avropa İttifaqında (Aİ) bu sahəyə Avropa Qida Təhlükəsizliyi İdarəsi nəzarət edir. ABŞ-da isə uşaq qidalarının təhlükəsizliyinə görə məsul qurum Amerika Qida və Dərman Agentliyi hesab olunur. Bu qurumlar tərəfindən müəyyənləşdirilən qaydalara əsasən hər bir məhsul dövlət qeydiyyatından keçirilməli, istifadə olunan xammalın mənşəyi ciddi şəkildə yoxlanılmalı, istehsal prosesi steril şəraitdə aparılmalı və məhsulların hər partiyası laborator analizdən keçirilməlidir. Bundan əlavə, Aİ-də qida təhlükəsizliyi ilə bağlı çətinliklər barədə ölkələr arasında operativ məlumat mübadiləsini gerçəkləşdirən xüsusi xəbərdarlıq sistemi mövcuddur. Bu sistem sayəsində təhlükəli məhsullar bazardan çox qısa müddətdə çıxarılır.

Göründüyü kimi, Avropa İttifaqında uşaq qidaları ən sərt şəkildə nəzarət olunan məhsullar sırasındadır və şübhəli qida malları da dərhal geri çağırılır. Lakin qlobal ticarət zənciri və paralel idxal səbəbindən bu məhsullar bəzən digər ölkələrin bazarlarına da yol tapa bilir. Azərbaycan kimi idxaldan asılı bazarlarda isə əsas həll yolları yerli istehsalın yaradılması, idxal nəzarətinin gücləndirilməsi və laborator monitorinq sisteminin genişləndirilməsidir. Buna görə də ölkəmizdə körpə qidaları bazarında həm qiymət, həm də keyfiyyət məsələləri daim diqqət mərkəzində saxlanılmalıdır. Yerli istehsalın təşviqinə, idxal məhsullarının keyfiyyətinə və valideynlərin məlumatlandırılmasına prioritet istiqamətlər kimi yanaşılmalıdır. Ekspertlərin fikrincə, dövlət dəstəyi ilə bu sahədə istehsal imkanlarının yaradılması uzunmüddətli perspektivdə həm qiymət sabitliyini təmin edə, həm də ölkənin qida təhlükəsizliyinə mühüm töhfə verə bilər.

Uşaq qidalarının istehsalı yüksək texnologiya tələb edən sahə olduğundan bu bazara yeni şirkətlərin daxil olması asan deyil. Məhsulların tərkibi, təhlükəsizliyi və qidalanma dəyəri ilə bağlı beynəlxalq standartlar olduqca sərtdir. Buna görə də istehsal prosesində steril laboratoriyalar, avtomatlaşdırılmış qablaşdırma xətləri və çoxpilləli keyfiyyət nəzarəti tətbiq edilir.

Bütün bunlar göstərir ki, körpə qida istehsalı qlobal qida sənayesinin ən sürətlə inkişaf edən və eyni zamanda, ən ciddi nəzarət olunan sahələrindən biridir. Analitik araşdırmalara görə, dünya üzrə uşaq qidaları bazarının həcmi artıq yüz milyardlarla dollarla ölçülür və yaxın illərdə də bu sektorun genişlənməsi gözlənilir. Artımın əsas səbəbləri arasında urbanizasiya, işləyən qadınların sayının artması və süni qidalara olan tələbatın yüksəlməsi göstərilir.

Ekspertlərin fikrincə, dövlət nəzarətinin gücləndirilməsi, idxal olunan məhsulların laborator monitorinqinin genişləndirilməsi və uzunmüddətli perspektivdə yerli istehsal imkanlarının yaradılması bu sahədə vəziyyətin yaxşılaşdırılmasına mühüm töhfə verə bilər. Bu addımlar həm qiymətlərin optimallaşmasına, həm də körpələrin qida təhlükəsizliyinin daha etibarlı şəkildə təmin edilməsinə müsbət təsir göstərər. Dövlət nəzarətinin gücləndirilməsi, idxal olunan məhsulların laborator monitorinqinin genişləndirilməsi və uzunmüddətli perspektivdə yerli istehsal imkanlarının yaradılması da bu sahədə vəziyyətin yaxşılaşdırılmasına mühüm töhfə verə bilər.

***Vaqif BAYRAMOV***
***XQ***

# Uşaqlarda zəif boy artımı nələrdən qaynaqlanır?

**Milli Məclisin Səhiyyə Komitəsinin sədr müavini, deputat Rəşad Mahmudov uşaqlar arasında boy artımının zəifləməsinin ciddi genetitik problemə çevrilməsindən söz açaraq bildirib ki, son illər Azərbaycanda uşaqların fiziki inkişaf göstəriciləri, xüsusilə boy artımı ilə bağlı səsləndirilən narahatlıqlar təsadüfi deyil.**

Tanınmış kardiocərrah qeyd edib ki, uşağın boyu yalnız genetik göstərici deyil, əksinə, genetik potensialın nə dərəcədə reallaşması uşaqlıq və yeniyetməlik dövründə qidalanma, həyat tərzi, hormonal balans, fiziki aktivlik və erkən profilaktik tədbirlərlə birbaşa bağlıdır. Yəni boy artımında müşahidə edilən geriləmə, əslində, cəmiyyətin sağlamlıq, qidalanma və sosial mühit göstəricilərinin güzgüsüdür.

**Müasir tibb elminin qənaətinə istinad edən Rəşad Mahmudov problemin əsas səbəbləri sırasında keyfiyyətsiz və balanssız qidalanma və ekoloji tarazlığın pozulmasının xüsusi yer tutduğunu vurğulayıb:**

– Şəkərli içkilər, ultra-emal olunmuş məhsullar, "fast-food" mədəniyyəti kalorili, lakin bioloji dəyəri zəif qidalanma forması yaradır. Bu isə sümüklərin inkişafı üçün vacib olan zülal, kalsium, D vitamini, sink və digər mikroelementlərin xroniki çatışmazlığına gətirib çıxarır. Bunun üzərinə fiziki hərəkətsizliyi, ekran asılılığını, yuxu rejiminin pozulmasını və erkən yaşlarda vitamin-mineral profilaktikasının sistemli aparılmamasını əlavə etdikdə, problemin miqyası daha aydın görünür.

Bəzən bu məsələnin həlli kimi məktəb ətrafında qida satışına inzibati məhdudiyyətlərin tətbiqi təklif olunur. Lakin belə yanaşma problemin köklü həlli ola bilməz. Əsl və davamlı həll yolu uşaqlara hələ bağça yaşlarından etibarən sağlam qidalanma vərdişlərinin və qidanın bioloji dəyərinin nə olduğunu öyrətməkdir.

Uşaqlar anlamalıdırlar ki, şəkər əlavəli, süni qidalar tez doyma və ani enerji hissi yaratsa da, orqanizm üçün real fayda daşımır, əksinə, metabolik pozuntuların və xroniki xəstəliklərin əsasını qoyur. Erkən yaşda bu şüurun formalaşdırılması elə bir nəsil yetişdirə bilər ki, onlar təkcə öz sağlam seçimlərini etməsin, eyni zamanda, sağlam qidalanmanı dərk etməkdə çətinlik çəkən böyüklər üçün də yolgöstərən mövqeyinə yüksəlsin.



***Dünya təcrübəsindən söz açan komitə sədrinin müavini bildirib ki, belə problemlər fərdi deyil, məhz dövlət siyasəti səviyyəsində həll olunur. Bir çox ölkələr uşaqların sağlam böyüməsini milli prioritet kimi qəbul edib:***

– Türkiyədə məktəblərdə uzun illərdir dövlət tərəfindən süd paylanması proqramları həyata keçirilir, erkən yaş dövründə D vitamini və dəmir preparatları sistemli şəkildə verilir. Skandinaviya ölkələrində məktəb yeməkləri dietoloqlar tərəfindən hazırlanmış balanslı menyular əsasında təqdim olunur. Yaponiyada isə məktəb qidalanması sadəcə sosial layihə deyil, gələcək insan kapitalının qorunması strategiyasıdır.

Bu yanaşmaların hamısını birləşdirən əsas fikir ondan ibarətdir ki, uşağa qoyulan sərmayə gələcəyə qoyulan sərmayədir. Məktəblərdə uşaqlar üçün xüsusi menyuların hazırlanması yalnız sağlamlıq məsələsi deyil, bu, sosial bərabərliyin təmin edilməsi, regionlararası fərqlərin azaldılması və gələcək nəsillərin fiziki və intellektual potensialının qorunması deməkdir. Belə menyular yüksəkkeyfiyyətli zülalları, süd və süd məhsullarını, təbii tərəvəz və meyvələri, tam taxılları əhatə etməli, şəkərli və zərərli qidaların payı minimuma endirilməlidir.

***Deputat daha sonra qeyd edib ki, boy artımının əsasən qızlarda 16–17, oğlanlarda isə 18–19 yaşa qədər mümkün olduğu nəzərə alınarsa, məktəb və yeniyetmə dövrü həlledici mərhələdir:***

– Bu dövrdə düzgün qidalanma, fiziki aktivlik və sağlam həyat tərzi yalnız boy göstəricilərini deyil, gələcəkdə ürək-damar xəstəliklərinin, metabolik pozuntuların və bir çox xroniki xəstəliklərin riskini də əhəmiyyətli dərəcədə azaldır. Bəzən bu cür proqramlar dövlət üçün əlavə iqtisadi yük kimi təqdim olunur. Halbuki strateji və uzunmüddətli baxış göstərir ki, sağlam böyüyən uşaq gələcəkdə daha məhsuldar işçi qüvvəsi, daha az səhiyyə xərci və daha yüksək iqtisadi dəyər deməkdir.

Sağlam insan daha çox yaradır, daha az itirir və cəmiyyətə daha böyük töhfə verir. Bu baxımdan məktəb qidalanması və uşaq sağlamlığına yönəlmiş proqramlar xərc deyil, ölkənin iqtisadi və sosial dayanıqlılığına edilən ağıllı investisiyadır.

***Hazırladı:***
***Zərifə BƏŞİRQIZI***
***XQ***

## Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva “Yaşama Dəstək” Mərkəzində olublar





**Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva “Yaşama Dəstək” Mərkəzini ziyarət ediblər.**

Qonaqlar Mərkəzdə xidmət alan uşaqlarla görüşüb söhbət edib, onların qayğıları ilə maraqlanıblar.

***XQ***

*Təqvim yada salır*

# XX əsr nəsr və poeziyamızın klassikləri

*Onlar “Yoxuşlar”la “Ələmdən nəşəyə” doğru yüksəlmişlər*




**Xalq yazıçısı Əbülhəsən Ələkbərzadə və Xalq şairi Süleyman Rüstəm eyni ilin eyni günündə anadan olublar. Azərbaycan ədəbiyyatını gözəl əsərləri ilə zənginləşdirmiş qələm sahiblərinin bu gün 120 yaşı tamam olur. Hər ikisi 1934-cü ildən AYB-yə üzv qəbul edilib və 50 ildən çox yaradıcılıq yolu keçib.**

Əbülhəsən Əlibala oğlu Ələkbərzadə İsmayıllı rayonunun Basqal kəndində, Süleyman Rüstəm isə Bakının Novxanı kəndində dünyaya göz açıb. Hər ikisi yaradıcılığa şeirlə başlayıb, Əbülhəsən sonradan nəsrə keçib və ilk müasir Azərbaycan romanının (“Yoxuşlar”) müəllifi olub.

Əbülhəsənin doğum tarixi bəzi mənbələrdə 1904-cü il göstərilsə də, ay və gün eynidir. Yazıçının 100 illiyinin 2006-cı ildə qeyd olunduğu da faktdır. Yazıçının “Müharibə”, “Dostluq qalası”, “Utancaq”, “Dünya qopur”, “Sədaqət”, “Gəlin” bir vaxtlar orta məktəblərin ədəbiyyat dərsliklərinə salınmış “Tamaşa qarının nəvələri” əsərlərini az adam olardı ki, oxumasın, eşitməsin. Bu roman və povestlər nəşr edilməkdən savayı, həm də səhnələşdirilib, radio teatrı onları məşhur aktyorların ifasında vaxtaşırı səsləndirib.

Əbdülhəsən Ələkbərzadənin ədəbi irsində tarixi romanlar və dram əsərləri xüsusi əhəmiyyətə malikdir. “Babək” romanı Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsini, qəhrəmanlıq və vətənpərvərlik hisslərini coşğu ilə əks etdirir. “Ağ ləkələr” povestində isə o, sovet ideologiyasının cəmiyyətə təsirini, fərdi faciələri, insan psixologiyasını dərinliklə işıqlandırır.

* * *

Süleyman Rüstəm isə şair-dramaturq, ictimai xadim kimi tanınıb. 20 ilədək Azərbaycan SSR Ali Sovetinin sədri olub. “Ələmdən nəşəyə” adlı ilk şeir kitabı 1927-ci ildə nəşr edilib. İkinci Dünya müharibəsi illərində o, xalqın qəhrəmanlıq mübarizəsini tərənnüm edən gözəl əsərlər yazıb: “İldırım”, “Qafurun qəlbi”, “Əzizlərdən əzizlərə” və s. Müharibə dövrü yaradıcılığında Cənubi Azərbaycan mövzusu xüsusi yer tuturdu: “Təbriz şeirləri silsiləsi”, “İki sahil” kitabı çox məşhur olub. 1960–1980-ci illər yaradıcılığında ictimai-siyasi və məhəbbət lirikası əsas xətti təşkil edib: “Günəşli sahillərdə”, “Keçilməmiş yollarda”, “Ürəyimin gözüylə”, “Mənim günəşim” və s. kitabların, “Yanğın” (H.Nəzərli ilə birgə) pyesinin, “Qaçaq Nəbi” mənzum dramının, “Durna” komediyasının müəllifidir.

XX əsr Azərbaycan ədəbiyyatının korifeyləri olan hər iki yazarın xalq, vətən qarşısındakı xidmətləri layiqincə qiymətləndirilib. Əsərləri müxtəlif xarici dillərə tərcümə olunub. “Unudulmur məna dolu ömür sürüb ölənlər” – deyən şairin ruhu arxayındır ki, o da, yaşdaşı da xoş xatirələrlə anılırlar.

***Ə.DOSTƏLİ***
***XQ***

*Təqdimat*

# Qədim tariximiz haqqında yeni tədqiqat

**Bakı Konqres Mərkəzində Azərbaycanın görkəmli ictimai-siyasi və dövlət xadimi, diplomat, tarixçi-alim, tarix elmləri doktoru Həsən Həsənovun müəllifi olduğu “Atropatena - Adorbayqan adlı dövlətin yaranması” kitabının təqdimat mərasimi keçirilib.**



Kitabın nəşr olunmasının məqsədi qədim dövlətçilik ənənələrimiz barəsində gənc nəslin və dünya ictimaiyyətinin məlumatlılıq səviyyəsini artırmaqdır.





Təqdim olunan nəşrdə Azərbaycanın qədim dövlətçilik tarixinin mühüm mərhələlərindən biri olan Atropatena - Adorbayqan adlı ölkənin yaranmasından öncə olan hadisələr, ölkənin mənşəyi və sərhədlərinin müəyyənləşdirilməsi, ölkənin yaranmasından sonra baş verən hadisələr qədim mənbələrə və tarixi faktlara istinad edilərək oxucu kütləsinə çatdırılıb.

Təqdimat mərasimində çıxış edən H.Həsənov kitabın elmi və tarixi əhəmiyyəti, nəşrin hazırlanma prosesi və əsas elmi tezisləri haqqında qonaqlara ətraflı məlumat verib.

Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi ilə təşkil olunan tədbirin yekununda kitabın imzalanma mərasimi keçirilib və qonaqlar müəlliflə xatirə şəkilləri çəkdiriblər.

***XQ***

# Gəncə dahi Nizaminin 885 illiyini qeyd edəcək

**Bu il iyulun 7-də Gəncə şəhərində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 885 illiyinə həsr olunmuş “Azərbaycan və dünya nizamişünaslığının aktual problemləri” mövzusunda II Beynəlxalq elmi konfrans keçiriləcək.**

Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzi, eləcə də Azərbaycanın Türkiyə və Özbəkistandakı mədəniyyət mərkəzlərinin təşkilatçılığı ilə gerçəkləşəcək məclisdə Nizami Gəncəvinin yaradıcılığının müxtəlif yönləri üzrə elmi məruzələr dinləniləcək. Müzakirələrdə şairin Türk dünyası ilə əlaqələri, Azərbaycan şifahi xalq ədəbiyyatı ilə bağlılığı, dünya ədəbiyyatına təsiri, yaradıcılığında din və irfan mövzuları, incəsənətlə əlaqələri və bəşərilik ideyaları kimi məsələlər diqqət mərkəzində olacaq.

Konfransda Nizami irsinin sələflər və xələflər kontekstində araşdırılması, onun humanist ideyalarının müasir dünyada əhəmiyyəti barədə fikir mübadiləsi aparılması da nəzərdə tutulur. Beynəlxalq toplantı nizamişünaslığın inkişafına və böyük şairin zəngin irsinin daha geniş təbliğinə töhfə verəcək.

AMEA Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzinin rəhbəri Əlimuxtar Muxtarov söhbət zamanı bildirib ki, konfransın keçirilməsində məqsəd dahi şairin zəngin ədəbi-fəlsəfi irsinin daha dərindən araşdırılması və dünya elmi ictimaiyyətinə çatdırılmasıdır. Beynəlxalq elmi məclis müxtəlif ölkələrin alim və




tədqiqatçılarını bir araya gətirərək nizamişünaslıq sahəsində yeni elmi müzakirələrə və əməkdaşlığa geniş imkan yaradacaq.

***Hamlet QASIMOV,***
***XQ-nin Gəncəbasar müxbiri***

# Azərbaycan kinosuna həsr olunmuş ilk ensiklopediya




**Dünən bp şirkətinin dəstəyi ilə nəşr olunmuş 4 cildlik Azərbaycan kinematoqrafiyası ensiklopediyasının ictimaiyyətə təqdimat mərasimi keçirildi. “Azərbaycan kinosu. Yığcam ensiklopediya” adlı yeni nəşr 1898–2025-ci illəri əhatə etməklə milli kinonun inkişaf tarixi haqqında bu günə qədər fundamental mənbədir.**

Mərasimdə bp-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli bildirdi ki, Azərbaycan kinosunun 1898-ci ildə yarandığı gündən bəri keçdiyi tarixi yol mədəni inkişafımızın çox əlamətdar bir hissəsidir. Qeyd olundu ki, tanınmış sənətşünas alim, toplunun müəllifi Aydın Kazımzadə kinematoqrafiya yaradıcılığının bir əsrdən çox tarixini dəqiqlik və fədakarlıqla sənədləşdirməklə incəsənət və akademik ictimaiyyətimiz üçün uzunmüddətli dəyər daşıyan bir əsər yaradıb.

bp-nin mədəni irsimizin qorunmasına və Azərbaycan kinematoqrafçılarının irsininin gələcək nəsillər üçün daim ilham mənbəyi olmasına xidmət edən belə bir layihəni dəstəkləməkdən qürur duyduğunu vurğulayan B.Aslanbəyli dedi: “Tanınmış kinoşünas Aydın Kazımzadənin müəllifi olduğu bu elmi-tədqiqat əsərində milli kinematoqrafiyanın inkişaf yolu dərin və hərtərəfli araşdırılır. Geniş arxiv tədqiqatlarına əsaslanan ensiklopediyada filmlər, kino yaradıcıları, studiyalar və Azərbaycanda kino sənayesinin yaranması və formalaşmasına təsir etmiş tarixi və mədəni mühit öz geniş əksini tapıb”.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova Azərbaycan kinosunun keçdiyi zəngin inkişaf yolundan, ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin kino sənətinə göstərdikləri qayğı və diqqətdən geniş bəhs etdi. Qeyd olundu ki, son illər dövlət qayğısı nəticəsində ölkəmizdə kino sənayesi özünün yeni inkişaf mərhələsinə qədəm qoyub, sənət adamlarına diqqət xeyli artırılıb.

Ensiklopediyasının müəllifi, tanınmış kinoşünas, Əməkdar incəsənət xadimi və Əməkdar mədəniyyət işçisi Aydın Kazımzadə çıxış edərək toplunun ərsəyə gətirilməsinə göstərilən maliyyə dəstəyinə görə bp şirkətinin rəhbərliyinə minnətdarlığını bildirdi.

Mərasimdə tanınmış kino xadimləri – Cəmil Quliyev, Fəxrəddin Manafov, Təşəbbüslər və Layihələr Mərkəzinin direktoru Ceyhun Osmanlı çıxış edərək ensiklopediyanın kino sənətimizin tarixinin araşdırılması baxımından əhəmiyyətini vurğuladılar, toplunun müəllifinə uğurlar arzuladılar.

Qeyd edək ki, tədqiqat Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında, eləcə də digər studiyalarda, kino şirkətlərində və televiziya kanallarında 1898–2025-ci illərdə istehsal olunmuş bütün növlərdən olan filmlərin filmoqrafiyasını əhatə edir. Ensiklopediyaya tammetrajlı və qısametrajlı bədii filmlər, televiziya filmləri, animasiya filmləri və 1898–2018-ci illərdə çəkilmiş “Mozalan” satirik kinojurnalları daxil edilib.

Nəşrin ilk 2 cildində Azərbaycan kinosu tarixinin tam ensiklopedik təsviri təqdim olunur, qalan 2 cild isə “Tammetrajlı bədii və animasiya filmlərinin əlifba göstəricisi” və “Kinorejissorların adlar göstəricisi” adlanır. Ensiklopediyaya müəllifin, eləcə də ilkin kino yaradıcılarının və müxtəlif dövrlərdə kino sənayesinin inkişafına töhfə vermiş digər şəxslərin şəxsi arxivlərində qorunan nadir fotoşəkillər də daxil edilib. Bundan başqa, Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasının arxiv şöbəsi və Azərbaycan Dövlət Film Fondunun materiallarından da istifadə olunub.

Əsas istinad mənbəyi kimi nəzərdə tutulmuş bu nəşr kino mütəxəssisləri, tarixçilər, tədqiqatçılar, müəllimlər və televiziya, mədəniyyət və incəsənət sahələrində çalışan mütəxəssislər, eləcə də Azərbaycan kinematoqrafiyasının yaranışı və yüz ildən çox inkişaf tarixinə maraq göstərən geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

bp-nin Azərbaycanın zəngin mədəni irsinin qorunması və təşviqinə dəstək öhdəliyini əks etdirən bu layihə şirkətin dəstəyi ilə həyata keçirilən böyük mədəni irs proqramının bir hissəsidir.

***XQ***

*Beynəlxalq həyat*

# Yaxın Şərqdə hərbi qarşıdurma davam edir

## *ABŞ–İsrail–İran gərginliyinin xronologiyası*



**Fevralın son günündən etibarən Yaxın Şərqdə qarşılıqlı hərbi əməliyyatlar və gərginlik kəskin şəkildə artdı. İsrail ABŞ-la birlikdə İranın nüvə və raket infrastrukturlarına zərbələr endirməyə başladı. Bunun qarşılığında rəsmi Tehran regiondakı yaşayış və strateji obyektlərə qarşı genişmiqyaslı raket və dron hücumları həyata keçirdi. Nəticədə, ABŞ və İran arasında hərbi qarşıdurma daha da dərinləşdi. İsrail-İran-ABŞ qarşıdurmasının qısa icmalını oxucularımıza təqdim edirik:**

**28 fevral:** İsrail hökuməti rəsmi Tehranın nüvə və raket proqramının qarşısını almaq məqsədilə İrana zərbələr endirdiyini elan etdi. ABŞ da eyni vaxtda İranın strateji obyektlərini bombaladı. İran Dövlət Televiziyası bu hücumlarda rəsmi olaraq rəhbər Ayətullah Əli Xameneinin həlak olduğunu təsdiqlədi. Xameneinin meyiti Tehranda tapıldı və mərhumun ikinci oğlu Müctəba Xamenei Ali Rəhbər Məclisinin sədri oldu. Hərbi əməliyyat ABŞ-ın "Epik qəzəb" adlı əməliyyatının başlanğıcı kimi təqdim edildi. İsrail müdafiə naziri bildirdi ki, ölkəsi bu hərbi kampaniyanı sülh istəyən İran xalqının azadlığı üçün həyata keçirib.

**1 mart:** İran İsrailə hücum etdi. Təyyarə və dronlarla Təl-Əvivdə yaşayış binasına və Beyt-Şeməşdəki məhəlləyə zərbə vuruldu. İran bu hücumlarda yüzlərlə raket və kamikadze dronundan istifadə etdiyini bildirdi. İsrail tərəfi yaşayış obyektlərinin hədəflənməsini pislədi. İsrailin təcili tibbi xidməti roket hücumunda yaralananları müalicə etdi. Eyni gündə İran roketlərini Əbu-Dabi, Dubay, Doha və Manama istiqamətində işə saldı. Həmin raketlərin bəzisi Dubay hava limanının ətrafına düşdü, bir neçəsi də Bəhreyndəki ABŞ-ın 5-ci Donanmasının bazasını vurdu. Körfəz ölkələri bu hücumları "kənar müdaxilə" adlandırıb qınadı. Dubay və Əbu-Dabi şəhərlərindəki obyektlərə zərər dəydi, ABŞ konsulluğu hücumdan sonra ilk açıqlamasında işçilərin təhlükəsiz olduğunu bildirdi.

**3 mart:** İsrail və ABŞ aviasiyası Tehran və Qum şəhərlərinə yeni hava zərbələri endirdi. Tehranda İran dövlət telekanalının binası və şəhərin hava limanı yaxınlığı bombalandı. İsrail ordusu Qum şəhərində İranın Ali Ekspertlər Məclisinin binasını dağıtdığını bildirdi. Bu hücumun nəticəsində İranın yeni idarə heyəti hədəfə alındı. Eyni gün İran dronları ABŞ səfirliklərindən ikisinə, Səudiyyə Ərəbistanı və Küveytə hücum etdi. ABŞ-ın Səudiyyə səfirliyinin parkinq zolağını zərərsizləşdirmək cəhdi diqqət çəkdi.

**4 mart:** Amerika ordusuna məxsus sualtı qayıq Şri-Lanka sahillərində İran Donanmasının "İRIS Dena" adlı gəmisini torpedo zərbəsi ilə batırdı. Amerika tərəfi bu əməliyyatın ABŞ qüvvələrinə gələcək hücumların qarşısını almaq üçün zəruri olduğunu vurğuladı. Hücum zamanı ABŞ-la əməkdaşlıq edən İran donanmasının bütün imkanları məhv edildi.

**5 mart:** İran Naxçıvan Muxtar Respublikası istiqamətinə dron hücumları etdi. 4 İran dronu Naxçıvan hava limanı və yaxın kənd obyektlərini bombaladı, yaralananlar oldu. Azərbaycan Prezidenti İlham Əliyev bu terror aktını pisləyərək cavab tədbirlərinə hazırlaşdıqlarını bildirdi. Hadisə ilə bağlı İran Prezidenti Məsud Pezeşkian martın 8-də İlham Əliyevlə telefon danışığında insidentin İranla əlaqəsi olmadığını və hadisənin araşdırılacağını bildirdi.

**6 mart:** İran bir neçə raket və dron dalğasını İsrail və ABŞ-ın regiondakı müttəfiqlərinə doğru buraxdı, Təl-Əviv daxil olmaqla bir neçə şəhərdə hava hücum siqnalları çalındı. ABŞ və İsrail hava əməliyyatlarını davam etdirərək İranın hava müdafiə sistemlərini və hərbi obyektlərini hədəfə aldı. Dünya neft bazarında qiymətlər yenidən yüksəldi, Hörmüz boğazının blokadası səbəbindən enerji tədarükü riskləri artdı.

**7 mart:** İsrail və ABŞ qüvvələri Tehran ətrafındakı neft anbarlarını, emal və logistika obyektlərini hədəfə aldılar. Nəticədə şəhər üzərində böyük qara tüstü buludları əmələ gəldi və havanın çirklənməsi ilə bağlı narahatlıq yarandı. İran rəsmiləri bunu "müharibənin təhlükəli yeni mərhələsi" kimi qiymətləndirərək vəziyyətin mülki əhaliyə ciddi təsir göstərə biləcəyini bildirdilər.

**8 mart:** Müharibə daha da gərginləşdi və artıq regionun digər hissələrində də əməliyyatlar müşahidə olundu. İran rəhbərliyi "şiddətli müharibəni davam etdirə biləcəyini" bəyan etdi və bir sıra qonşu ölkələr də hücumlara məruz qaldıqlarını açıqladılar.

**9 mart:** İran raketlər və dronlar vasitəsilə İsrail ərazisinə hücumlarını davam etdirdi. İsrail Səhiyyə Nazirliyinin məlumatına görə, bu dövrdə yüzlərlə insan müxtəlif dərəcəli yaralanmalarla xəstəxanalara yerləşdirilib. ABŞ və İsrailin hava zərbələri də İranın geniş bölgələrini əhatə etdi, çoxsaylı strateji hədəflər məhv edildi.

**10 mart:** ABŞ və İsrail qüvvələri ən intensiv hücumlarını həyata keçirdilər. İranın ilkin hərbi infrastrukturu ilə yanaşı, iqtisadi hədəflər və enerji obyektləri də vuruldu. İran Müdafiə Nazirliyi bəyan etdi ki, bu hücumlar "qanunsuz"dur və cavab olaraq ABŞ-İsrail iqtisadi və bank obyektlərinə zərbə endirilə bilər. Eyni gün İranın Baş Prokurorluğu ABŞ və İsraili dəstəkləyən iranlıların xarici əmlaklarının müsadirə olunacağını açıqladı. Almaniya və digər Avropa rəsmiləri müharibənin başa çatdırılması üçün vahid planın olmamasından narahatlıqlarını ifadə etdilər.

**11 mart:** İsrail və ABŞ hava zərbələri İranın iqtisadi və maliyyə hədəflərinə yönəldi. Həmçinin Hörmüz boğazı yaxınlığında İran minadüzən gəmi hədəfləri məhv edildi. İran pilotsuz uçuş aparatları və raketlərlə ticarət gəmilərini, Dubay hava limanı yaxınlığını vurdu. Hücumlar Fars körfəzində təhlükəsizliyi kəskin zəiflətdi və enerji bazarlarında narahatlıq yaratdı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan müharibənin dayandırılması üçün çağırış etdi və regionda gərginliyin dünyaya təsirlərinə diqqət çəkdi. Rəsmi Tehran bildirdi ki, son hücumlara cavab olaraq regionda ABŞ və İsraillə əlaqəli banklar, iqtisadi infrastrukturlar vurula bilər. İran hərbi komandanlığı bunu "məcburi cavab" adlandırdı.

Sonda qeyd edək ki, hazırkı mərhələdə beynəlxalq təşkilatlar və aparıcı dövlətlər gərginliyin azaldılması üçün diplomatik təşəbbüsləri gücləndirməyə çalışırlar. Azərbaycan bu prosesdə aktiv iştirak edən tərəflərdəndir. Mövcud vəziyyət göstərir ki, getdikcə səngiyən münaqişənin davam etməsi Yaxın Şərqdə yeni hərbi bloklaşmaların yaranmasına, təhlükəsizlik balansının dəyişməsinə və uzunmüddətli geosiyasi qarşıdurmanın dərinləşməsinə səbəb ola bilər.

***N.BEYDİYEVA***
***XQ***

*Xaqani Şirvani – 900*

# Klassik poeziyamızın şirvanlı Xaqanı

**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Azərbaycan İntibah dövrü ədəbiyyatının ilk qüdrətli nümayəndəsi Əfzələddin Xaqani Şirvaninin 900 illik yubileyinə həsr olunmuş "Sözün Xaqanı" adlı ədəbi-musiqili mərasim keçirilib.**



Muzeyin direktoru, akademik Rafael Hüseynov məclisi açaraq yazın təravətini elimizə gətirən Yel çərşənbəsi münasibətilə iştirakçıları təbrik edib.

O, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Böyük Azərbaycan şairi Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd edilməsi haqqında" 28 yanvar 2026-cı il tarixli Sərəncamına əsasən ölkəmizdə görkəmli şairin yubileyinin geniş şəkildə qeyd edildiyini bildirib. Alim vurğulayıb ki, bu Sərəncam Xaqani Şirvani irsinin milli-mədəni yaddaşımızdakı yerini bir daha təsdiq etməklə yanaşı, onun zəngin ədəbi-fəlsəfi irsinin daha geniş miqyasda öyrənilməsi və beynəlxalq elmi ictimaiyyətə təqdim olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Akademik Rafael Hüseynov sözügedən sərəncama əsasən Ədəbiyyat Muzeyində də Xaqani Şirvaninin 900 illiyi ilə bağlı silsilə tədbirlərin keçiriləcəyini diqqətə çatdırıb.

Muzey direktoru poeziyamızın klassiki, böyük mütəfəkkir Xaqani Şirvaninin həyatı və zəngin ədəbi irsi barədə məlumat verərək bildirib ki, görkəmli şair Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi ən qiymətli söz sərvətlərindəndir.

Nizaminin müasirləri arasında Xaqani Şirvaninin ən yüksək zirvədə durduğunu söyləyən akademik Rafael Hüseynov qeyd edib ki, hər iki ədib yalnız Azərbaycanın deyil, Yaxın və Orta Şərqin zövqünün, düşüncəsinin, poeziyasının, ədəbiyyatının inkişafına böyük təsir göstərib.

Akademik əlavə edib ki, 1126-cı ildə Şamaxıda anadan olan Xaqani Şirvani Azərbaycana sığmayıb, daim səyahətlərdə olub. Yaxın Şərq ölkələrində səfərdə olan şair təəssüratlarını poetik əsərlərdə verib. Azərbaycan rəssamlarından biri Xaqani Şirvaninin səyahətlərinin xəritəsini çəkib. Ədibin 1156-cı ildə qələmə aldığı "Töhfətül-İraqeyn" ("İki İraqın töhfəsi") əsəri Azərbaycan ədəbiyyatında ilk mənzum səfərnamə hesab olunur.

"Xaqani Şirvani mübarizliyi, ictimai-siyasi-düşüncəsi və vətənpərvərliyi ilə müasirlərindən fərqlənir", – deyən muzey direktoru qeyd edib ki, əsrlər keçsə də, Xaqani poeziyası öz aktuallığını və estetik cazibəsini qoruyub saxlayıb.

O, Xaqani Şirvaninin saray həyatından da bəhs edərək şairin Şirvanşahlar sarayında yaşayıb-yaratdığını, burada yüksək nüfuz qazandığını söyləyib. Bildirib ki, saray həyatı Xaqaninin yaradıcılığında ziddiyyətli izlər qoyub.

Çıxışının sonunda akademik Rafael Hüseynov qeyd edib ki, böyük şair poetik irsi, mürəkkəb bədii dili və fəlsəfi düşüncələri ilə müasir ədəbiyyatşünaslığın diqqət mərkəzində qalmaqdadır.

Daha sonra Bakı məktəblilərinin ifasında ana dilində, eləcə də fars, ərəb və ingilis dillərində Xaqani yaradıcılığından nümunələr səsləndirilib, şairin saray mühitində keçən dövrü məktəblilərin ifasında canlandırılıb.

Muzeyin "Məktəblərlə və ictimaiyyətlə iş" şöbəsi, o cümlədən Həmkarlar İttifaqının təşkilatçılığı ilə baş tutan mərasim sonunda istedadlı gənclərə sertifikatlar təqdim olunub.

***Q.YUSİFOĞLU***
***XQ***

*Yeni tamaşalar*

# "Sonuncu qonaq" Sumqayıt səhnəsində

## *Teatrın ünlü yetirməsi Valeh Kərimov doğma ocağa qayıdıb*





**Milli Teatr Günündə Sumqayıt səhnəsində Xalq artisti Valeh Kərimovun quruluşunda tatar dramaturqu Tufan Minnullinin pyesi əsasında səhnəyə qoyulmuş "Sonuncu qonaq" tamaşasının premyerası uğurla təqdim olunub.**

Valeh Kərimov 1969-cu ildə İncəsənət İnstitutunun təyinatı ilə Sumqayıt Dövlət Dram Teatrına gələrək, uzun illər burada çalışıb. Səhnədə 70-dən çox dramatik və komik obraz yaradıb, eyni zamanda, bir neçə tamaşanın rejissoru olub. Bir sıra mükafata, o cümlədən Prezidentin fərdi təqaüdünə layiq görülüb.

Sənətsevərlərin daha çox Moşu ("Bəxt üzüyü") deyə çağırdığı istedadlı aktyorun parlaq ifalarına, yüksək koloritli oyunlarına ehtiyac duyulduğu üçün, təqaüdə çıxandan bir müddət sonra o, yenidən doğma teatrın səhnəsinə dəvət edildi və "Sonuncu qonaq" əsərinə həm quruluş verdi, həm də baş rolu – Əlməndəri layiqincə canlandırdı. Onun interpretasiyaları maraqlı alındı. Ömrünün 82-ci baharında səhnəyə qayıdan Valeh Kərimov əsəri örnək ifa, bol gülüş, dinamika ilə dolğunlaşdırdı, gənc həmkarlarına əsl ustad dərsi keçdi.

"Sonuncu qonaq" fəlsəfi çalarları, incə yumoru və dramatik qarşıdurmaları ilə seçilən səhnə əsəridir. Hekayətin mərkəzində Əzrailin (Füzuli Qərənizadə) "gözündən yayınmış" 91 yaşlı, həyata sıx bağlı olan qoca Əlməndər dayanır. Həyat eşqi sönməyən, yenidən sevgi və macəra axtarışında olan Əlməndər gözlənilməz qonağı – Əcəllə (Oqtay Mehdiyev) üz-üzə qalır...

Tamaşa boyunca həyat və ölüm, insanın iradəsi, zaman və taleyin qaçılmazlığı dərin fəlsəfi prizmadan təqdim olunur. Sonda isə Əlməndər hamını başına yığıb vəsiyyətini edir və taleyi ilə barışaraq son qərarını verir...

Tamaşanın quruluşçu rəssamı Nizami Dadaşov, musiqi tərtibatçısı Gülcahan Yusifova, rejissor köməkçisi Ləman Məmmədli, rəqslərin quruluşçusu Kamil Ağazadədir. Səhnə əsərində Əməkdar artistlər - Fəranə Musayeva, İlahə Səfərova, aktyorlar Akif Mirzəyev, Şəms Abdullayeva, Əjdər Zeynalov, Elay Xasiyev və Aynur Hümmətova oynadıqları rolların öhdəsindən bacarıqla gəldilər.

Böyük anşlaqla keçən, seyrçilərin sürəkli alqışları ilə başa çatan tamaşadan sonra Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının 1-ci müavini Teymur Səmədov çıxış edərək teatrın yaradıcı heyətinə təbriklərini çatdırdı və bir qrup aktyora şəhər rəhbərliyinin fəxri fərmanlarını təqdim etdi.

**Tamaşanı izləyənlərin arasında olan Xalq şairi Sabir Rüstəmxanlı XQ-yə müsahibəsində dedi:**

- Maraqlı səhnə əsəri hər kəsdə zəngin təəssürat yaratdı. Mən pyesin müəllifini – görkəmli yazıçı-dramaturq, ictimai xadim, Tatarıstanın Xalq yazıçısı, Rusiya Federasiyasının Əməkdar incəsənət xadimi olmuş Tufan Minnullini şəxsən tanıyırdım. Onun "Əldərməşli Əlməndər" pyesi klassik əsərlər sırasında olub. Bu tamaşanın Sumqayıtda yüksək peşəkarlıqla səhnəyə qoyulması – rejissor işi, dekorasiya tərtibatı, aktyor ifaları tərifəlayiqdir. Məni daha çox sevindirən salondakı tamaşaçı bolluğu oldu. İnternetin, sosial şəbəkələrin "hökmran" olduğu bir vaxtda bu, sənətin hər cür elmi-texnoloji tərəqqidən yüksəkdə durduğunu bir daha göstərdi. Valeh Kərimova və onun gənc həmkarlarına uğurlar diləyirəm.

***Əli NƏCƏFXANLI***
***XQ***


## "İmişli-Avtonəqliyyat" ASC səhmdarlarının nəzərinə!

15 may 2026-cı il saat 17.00-da "İmişli-Avtonəqliyyat" ASC səhmdarlarının cəmiyyətin inzibati binasında (İmişli şəhəri, A.Ələsgər küçəsi 21) növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələ:**

**1.** "İmişli-Avtonəqliyyat" ASC-nin 2025-ci il üçün illik hesabatının təsdiq edilməsi.

***"İmişli-Avtonəqliyyat" ASC-nin müşahidə şurasının sədri***

## "Sabunçuavtomatikaquraşdırma "ASC-nin
*2025-ci il dekabrın 31-nə mühasibat balansı*

**manatla**

| Bölmələrin, maddələrin adları | Hesabat dövrü üzrə 2025-ci il | Əvvəlki dövr üzrə 2024-cü il |
|---|---|---|
| AKTİVLƏR | | |
| Uzunmüddətli aktivlər | | |
| Torpaq, tikili və avadanlıqlar | 69717.55 | 70819.75 |
| CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR | | |
| Qısamüddətli aktivlər | | |
| Ehtiyatlar | 15129.56 | 12427.79 |
| Qısamüddətli debitor borcları | 225229.04 | 178507.92 |
| Sair qısamüddətli aktivlər | 107433.94 | 155100.50 |
| CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR | | |
| CƏMİ AKTİVLƏR | 417510.09 | 416855.96 |
| Kapital | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 152354 | 152354 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 185344.06 | 185518.59 |
| CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | |
| Qısamüddətli öhdəliklər | | |
| Qısamüddətli kreditor borcları | 79812.03 | 78983.37 |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 417510.09 | 416855.76 |

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 46 (31015) 12 mart 2026-cı il, cümə axşamı

## İDMAN

## Serbiyada 2 gümüş, 3 bürünc medal




**Serbiyanın Zrenyanin şəhərində güləş üzrə U23 Avropa çempionatı davam edir.**

Yarışın 2-ci günündə sərbəst güləş üzrə 5 çəkidə medalçılar müəyyənləşib.

Vasif Bağırov (57 kq) finalda rusiyalı Ayanday Ondarla qarşılaşıb. Görüşə yaxşı başlayan güləşçimiz 3:0 hesablı üstünlük əldə etsə də, sona doğru təşəbbüsü əldən verib – 3:7. Nəticədə gümüş medalla kifayətlənib.

Musa Ağayevin (65 kq) ermənistanlı Arman Musikyanla görüşü dramatik alınıb. Sonuncu dəqiqəyədək 0:4 hesabıyla geridə olan həmyerlimiz əsl əzmkarlıq nümayiş etdirərək yekunda 6:4 hesablı qələbəyə sevinib. Bununla da bürünc medalı boynundan asıb.

Ramik Heybətov (70 kq) təsəlliverici görüşdə gürcüstanlı Qoqa Otinaşvilidən güclü olub – 6:2. Bürünc medal uğrunda qarşılaşmada ukraynalı Mikita Sariyevə şans tanımayan (10:0) Heybətov fəxri kürsünün 3-cü pilləsinə yüksəlib.

Səbuhi Əmiraslanov (79 kq) finalda rusiyalı İsmayıl Xaniyevlə bacarmayıb – 0:11. Xaniyev çempionatı 2-ci pillədə başa vurub.

Zəfər Əliyev (97 kq) üçüncü yer uğrunda türkiyəli Emirhan Kılıçla gücünü sınayıb. Görüşə yaxşı başlamayan milli üzvü 0:9 hesabıyla geri düşsə də, mübarizəni sonadək davam etdirib. Əsl xarakter nümayiş etdirən Əliyev 19:9 hesablı qələbəylə bürünc medala sahib çıxıb.

Dünən 92 kiloqramda çıxış edən Azərbaycan təmsilçisi Ali Tsokayev finalda türkiyəli Fatih Altunbaşla qarşılaşıb. Gərgin keçən görüş idmançımızın qələbəsi ilə yekunlaşıb.

Beləliklə, millimiz qitə birinciliyinə 1 qızıl, 2 gümüş və 3 bürünc medalla start verib.

## Çempionlar Liqasında 1/8 final



**UEFA Çempionlar Liqasının 1/8 final mərhələsinə start verilib. İlk oyun günündə Türkiyə təmsilçisi "Qalatasaray" İngiltərənin "Liverpul" komandası ilə qarşılaşıb. İstanbul komandasında yeganə qolu matçın 7-ci dəqiqəsində Mario Lemina vurub. Digər qarşılaşmalarda aşağıdakı nəticələr qeydə alınıb:**

"Atletiko" (İspaniya) – "Tottenhem" (İngiltərə) 5:2, "Nyukasl" (İngiltərə) – "Barselona" (İspaniya) 1:1, "Atalanta" (İtaliya) – "Bavariya" (Almaniya) 1:6.

Dünən axşam UEFA Çempionlar Liqasının 1/8 final mərhələsində daha 4 oyun keçirilib.

## Bakıda UEFA seminarı

**Bakıda UEFA Milli Assosiasiyaların Kommunikasiyalar Bölməsi tərəfindən milli assosiasiyalara öz potensiallarını həyata keçirməyə kömək etmək üçün UEFA Grow proqramı çərçivəsində Strateji Kommunikasiyalar üzrə seminar təşkil olunub.**

AFFA-dan verilən məlumata görə, iki gün davam edən tədbirdə strateji kommunikasiyanın vacibliyi, maraqlı tərəflərin auditi və komanda potensialının qiymətləndirilməsi, AFFA-nın imic və reputasiyasının gücləndirilməsi, strateji prioritetlərin kommunikasiya baxımından planlaşdırılması, hədəf auditoriyaların müəyyənləşdirilməsi, əsas mesajların formalaşdırılması məsələləri ilə bağlı müzakirələr aparılıb.

Seminar çərçivəsində beynəlxalq turnirlərə ev sahibliyi edən AFFA və Azərbaycan üçün kommunikasiya yanaşmaları, turnirin təşkili, təşviqi və irs kommunikasiyası müzakirə olunub. Bununla yanaşı, iştirakçılar üçün interaktiv qrup işləri təşkil olunub, müvafiq mövzular üzrə fikir mübadiləsi aparılıb və praktiki yanaşmalar müzakirə edilib. Qrup müzakirələri zamanı yerli təcrübə, beynəlxalq yanaşmalar və inkişaf imkanları əsas diqqət mərkəzində saxlanılıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Təbiət abidələrimiz*

# Yanardağ – Odlar yurdunun qaynar nəbzi

**Ölkəmizdə mövcud tarixi, dini, mədəni abidələrin bərpası dövlət siyasətində mühüm yerlərdən birini tutur. Bu siyasət mədəni abidələrə dövlətimiz tərəfindən nə qədər həssaslıqla yanaşıldığını və Azərbaycanın qədim diyar olduğunu bir daha sübut edir.**





Abşeron rayonunun Məmmədli kəndində yerləşən Yanardağ abidəsinin ərazisi Prezident İlham Əliyevin 2007-ci ildə imzaladığı Sərəncamla Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu elan edilib. Qoruğun fəaliyyəti Dövlət Turizm Agentliyi tərəfindən tənzimlənir.

"Yanardağ" təbiət abidəsi yerin dərinliklərindəki mövcud neftli-qazlı çöküntü laylarında vulkanik-tektonik proseslərdən yaranan çatlar vasitəsilə səthə çıxan təbii qaz axınlarının alışıb yanması nəticəsində əmələ gəlib. Ərazidə aparılan geoloji tədqiqatlar, həmçinin orta əsrlərə aid tarixi mənbələr sübut edir ki, Bakı və ətraflarında həm quru, həm də dəniz üzərində daimi yanan alovlar hələ qədim dövrlərdən bəri müşahidə olunur.

Paytaxtdan 27 km uzaqlıqda yerləşən qoruq bir təbiət möcüzəsidir. Heyranedici Təbiət Qoruğu əsrlər boyu Azərbaycanın geoloji zənginliyinin və mədəni irsinin simvolu kimi ziyarətçilərin marağına səbəb olmuşdur.

Qoruq 64,55 hektar ərazini əhatə edir. Aparılan yenidənqurma işləri nəticəsində qoruğun ərazisində 3 tematik zonadan ibarət muzey, açıq hava konsertləri üçün nəzərdə tutulan 500 nəfərlik amfiteatr, sənətkar emalatxanaları və mağazalar, yerli sənətkarlar tərəfindən keramika, şüşə, taxta və parça kimi təbii materiallardan hazırlanan suvenirlərin satışı məntəqəsi, parkinq turistlərin ixtiyarına verilib.

Bu qeyri-adi qoruq min illərdir ki, davamlı olaraq yanır və qayalı səthinin üstündə daim rəqs edən alovlar yayır. Rəvayətə görə, alov bir çobanın ehtiyatsızlığı siqaret çəkməsi nəticəsində baş verib. Bununla belə, alimlər bu hadisəni yer qabığından sızan və oksigenlə təmasda alovlanan təbii qazın bolluğu ilə əlaqələndirirlər. Yanardağ ziyarətçiləri öz qeyri-dünya təmaşası ilə valeh edir. Qaranlıq çökdükcə alovlu tamaşa dəmək olar ki, mistik bir aura alır və heyranediciliyi ilə diqqəti cəlb edir. Əsrlər boyu yerli sakinlər Yanardağa əbədi məşəl rəmzi, Azərbaycan torpağının tükənməz ruhunun sübutu kimi ehtiramla yanaşırlar.

Qoruğun tərkibində Yanardağ – əbədiyaşar alov təbii abidəsi ilə yanaşı, digər maddi-mədəni irs nümunələri və təbiət abidələri də var. Bu abidələrə "Qurd yuvası" adlanan ilkin ibtidai icma dövrünə aid mağaralar, çoxəsrlik tarixə malik və qədim sanduqələrlə zəngin iki qəbiristanlıq, müalicəvi kükürdlü su bulaqları, hələ də aktiv fəaliyyətdə olan Qırməki palçıq vulkanı, Əlidaşı piri, Kardaşı iri təbii qaya daşları, Qırməki vadisi, qədim kurqan aiddir. Məlumat üçün qeyd edək ki, sanduqələr–əsasən orta əsrlər Türk-Oğuz və alban qəbiristanlıqlarında rast gəlinən, daşdan yonulmuş qutu formalı qəbirüstü abidələrdir.

Bəs ölkəmizə gələn turistlərin turizm məkanlarına diqqətini necə cəlb etmək olar? **Turizm üzrə ekspert Rəhman Quliyev** mövzu ilə bağlı XQ-yə açıqlamasında bildirdi ki, bu gün



Azərbaycanda turizmi inkişaf etdirmək üçün bütün elementlər, bütün infrastruktur mövcuddur. Amma ən əsası tarixi yerlərimiz daha vacibdir. Bu, Azərbaycanın tarixini tanıtmaq üçün, turistlər üçün çox maraqlı ola bilər. Dünya təcrübəsinə əsaslansaq, görərik ki, hər bir ölkə turist cəlb eləmək üçün müəyyən vasitələrdən istifadə edir. Təbii ki, bunlar həm dəniz çimərliyi turizmi, sağlamlıq turizmi (tibbi turizm) və eyni zamanda, dağ-meşə, dağ-xizək kurort kompleksi ola bilər.

Yanardağ turistlər üçün, xüsusən də Asiya turistləri üçün çox maraqlı bir destinasiyadır. Qeyd edim ki, destinasiya ziyarətçinin ən azı bir gecə keçirdiyi və müəyyən edilmiş idarəetmə, fiziki, inzibati sərhədləri və yaxşı tanınan imiclə tamamlanan turistik yerlər, dəstək xidmətləri və turizm resursları kimi məhsulları nümayiş etdirdiyi unikal yerdir. Odur ki, Yanardağın ərazisinin daha da genişləndirilməsi, ətrafında böyük hotellərin salınması, əyləncə mərkəzlərinin yaradılması istiqamətində geniş bir proqram hazırlamaq olar. Elə bir işlək sistem yaradılmalıdır ki, Azərbaycana gələn bütün turistləri Yanardağa yönləndirmək mümkün olsun.

Türkiyənin təcrübəsinə nəzər salsaq görərik ki, ölkəyə gələn turistlərin bir günlük proqramına 10-dan yuxarı destinasiya şamil edilir ki, bu da qısa-qısa da olsa, çoxlu sayda tarixi yerləri göstərməyə imkan verir. Hesab edirəm ki, həmçinin muzeylərin də qiymətlərinin aşağı olması çox zəruridir. Əslində, muzeylər sadəcə pul qazanmaq vasitəsi deyil. Çünki muzeylər, Yanardağ kimi yerlər və vulkanik ərazilər həm tariximizi əks etdirən vasitələr, həm də tarixi yerlər turistlər üçün Azərbaycanın keçmişi barədə məlumat almaq imkanıdır. Bizim üçün çox vacib olan bəzi destinasiyalar var ki, turistləri ora, lazım gələrsə, pulsuz aparmaq və girişin pulsuz olmasını təmin etmək olar.

Bir sözlə, qoruqların turizm məkanına çevrilməsi onların həm qorunmasını təmin edir, həm də ölkə iqtisadiyyatına böyük gəlir gətirir. "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu da tarixi irs kimi ölkəmiz üçün əvəzsiz əhəmiyyətə malikdir.

*M.MİRZƏ*
*XQ*

# Bədənlə ruhun sağlamlıq tandemi

**Ramazan ayı insanın səbrini, iradəsini və mənəvi gücünü sınayan müqəddəs aylardan biridir. Gün ərzində oruc tutan insanlar gün batdıqda iftar süfrəsi ətrafında toplaşaraq həm fiziki ehtiyaclarını qarşılayır, həm də mənəvi rahatlıq tapırlar. Lakin bəzi insanlar üçün oruc tutmaq xüsusi diqqət tələb edir. Xüsusilə şəkərli diabetdən əziyyət çəkən şəxslər qidalanma rejiminə daha həssas yanaşmalıdırlar. Bu səbəbdən mövzu ilə bağlı endokrinoloq həkim Vüsalə Babayevaya müraciət etdik.**

Həkim endokrinoloqun sözlərinə görə, diabet xəstələrinin oruc tutması məsələsi fərdi şəkildə qiymətləndirilməlidir. Onun sözlərinə görə, bəzi xəstələr həkim nəzarəti altında oruc tuta bilsə də, digərləri üçün bu riskli ola bilər: "Oruc ibadəti bir çox insanlar üçün mənəvi rahatlıq və intizam mənbəyidir. Lakin şəkərli diabet xəstələri üçün oruc xüsusi diqqət və tibbi yanaşma tələb edən bir vəziyyətdir". V.Babayeva vurğulayır ki, yanlış planlama hipoqlikemiya, hiperglikemiya, susuzlaşma və hətta həyati risklər yarada bilər. Buna görə diabetli xəstələr üçün oruc məsələsində əsas prinsip "icazəlidir, amma təhlükəsiz olmalıdır" yanaşmasıdır.

Diabetli xəstələr yalnız aşağı risk qrupuna daxildirsə, misal üçün qan şəkəri stabildir, tez-tez düşmə olmur, son aylarda ağır hipoqlikemiya keçirməyib, HbA1c adətən 7–7.5 faizdən aşağıdırsa, oruc tuta bilər. Müalicə rejimi aşağı riskli olanlar – pəhrizlə idarə olunan diabet, metformin, DPP-4 inhibitorları, GLP-1 agonistləri (semaglutid, liraglutid, tirzepatid və s.), aşağı dozalı bazal insulin qəbul edənlər həkim nəzarəti ilə oruc tuta bilərlər. Xəstə qan şəkərini ölçməyi, simptomları tanımağı və lazım olduqda orucu dərhal pozmağı qəbul etməlidir. Tip 1 diabet, hamilə diabetlilər, tez-tez hipoglikemiya keçirənlər,



ağır böyrək, ürək, qaraciyər çatışmazlığı, yaşlı, tək yaşayan və huş itkisi riski olan xəstələrə oruc tövsiyə edilmir və dini baxımdan da məqbul sayılmır. Bu hallarda sağlamlığın qorunması ibadətdən üstündür.

Həkimin sözlərinə görə, oruc zamanı qan şəkəri səhər (sübh namazından əvvəl) – oruca təhlükəsiz başlanğıc üçün, günorta saatları (12:00–14:00) – erkən hipoglikemiya riski vaxtı, iftardan 1 saat əvvəl, iftardan 2 saat sonra isə hiperglikemiya nəzarəti üçün qeyd olunan saatlarda ölçülməlidir. Qan şəkərinin ölçülməsi orucu pozmur və həyati əhəmiyyət daşıyır. Simptom olduqda isə saatdan asılı olmayaraq dərhal ölçülməlidir. Bayılma, başgicəllənmə, görmə pozğunluğu, titrəmə varsa, səhər (sübh) qidalanmasına 1–2 yumurta, kəsmik və ya ağ pendir, 1 dilim tam buğda çörəyi və ya az miqdarda yulaf, zeytun, qoz, badam, xiyar, pomidor, göyərti, 2 stəkan su, şəkərsiz çay əlavə olunmalıdır. Səhər yeməyi düzgün seçilməzsə, gün ərzində şəkər kəskin düşə bilər. Səhər vaxtı bal, mürəbbə, ağ çörək, şirə və şirin çay qadağandır".

İftar qidalanması isə mərhələli və ölçülü olmalıdır. Çünki iftarı birdən-birə ağır yeməklə açmaq şəkərin kəskin qalxmasına səbəb olur. Belə ki, 1-ci mərhələdə 1 stəkan su, 1 ədəd xurma (şəkər stabildirsə), tərəvəz şorbası qəbul edilir, 10–15 dəqiqə fasilə vacibdir. 2-ci mərhələdə isə toyuq, balıq, ət (120–150 qram), qarabaşaq, bulqur (az miqdarda), tərəvəzli salat (1 xörək qaşığı zeytun yağı ilə), desert ehtiyacı varsa: alma, armud və ya giləmeyvə qəbul edilməlidir. İftardan sahura qədər kifayət qədər su içmək lazımdır. Qazlı və şəkərli içkilər əvəzinə, su, ayran və ya şəkərsiz bitki çayları daha faydalıdır.

V.Babayeva diqqətə çatdırdı ki, şəkər, bal, mürəbbə, ağ çörək, paxlava, tort, paket şirələri və kompot, ağ düyü, makaron, qızardılmış yeməklər – fast food və yağlı kabablar şəkəri sürətlə qaldırıb sonra isə kəskin düşməyə səbəb olduğu üçün arzuolunmazdır. Mütəxəssis, həmçinin diabet xəstələrinə iftardan sonra yüngül fiziki hərəkətlər etməyi tövsiyə edir. Qısa gəzintilər qanda şəkərin səviyyəsinin daha stabil qalmasına kömək edə bilər. Şəkərli diabet xəstələri üçün oruc fərdi yanaşma tələb edən ciddi tibbi məsələdir. Doğru qidalanma, vaxtında şəkər ölçümü və şirin istəyinin idarəsi ilə oruc təhlükəsiz şəkildə tutula bilər. Vüsalə Babayeva əlavə etdi ki, əsas prinsip budur: Oruc ibadətdir, amma sağlamlıq əmanətdir.

Bəli, Ramazan ayı insanı sağlam həyat tərzi barədə daha çox düşünməyə sövq edən bir dövrdür. Diabet xəstələri üçün isə bu dövrdə ən vacib məsələ sağlamlığı qorumaqdır. Həkimlərin tövsiyələrinə əməl etmək və qidalanma rejimini düzgün qurmaq iftar süfrəsini həm təhlükəsiz, həm də faydalı edə bilər. Unutmaq olmaz ki, Ramazan ayının əsas mahiyyəti insanın özünə zərər verməsi deyil, mənəvi saflaşma və sağlam həyat prinsiplərinə daha məsuliyyətlə yanaşmasıdır. Bu baxımdan hər bir insan, xüsusilə diabet xəstələri, ibadət və sağlamlıq arasında düzgün tarazlıq tapmağa çalışmalıdır.

*Nurəngiz ADİLQIZI*
*XQ*

## HAVA

# Paytaxtda yağmursuz, rayonlarda yağıntılı...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-5, gündüz 7-12 dərəcə isti olacaq. Atmosfer təzyiqi 775 millimetr civə sütunundan 772 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 55-60 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə az yağıntılı olacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə



arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-7, gündüz 8-13 dərəcə isti, dağlarda gecə 7-12 dərəcə şaxta, gündüz 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti olacağı ehtimal edilir.

*Q.ƏLİYEV*
*XQ*

***"NJR İNŞAAT" MMC-nin dairəvi möhürü, qeydiyyat şəhadətnaməsi və nizamnaməsi itdiyi üçün etibarsız sayılır. (VÖEN-1007476681).***

***2016-cı il fevralın 12-də Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən "EPOTOS-BAKI" MMC-yə verilmiş 088395 nömrəli lisenziya itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

"Xalq qəzeti"nin kollektivi redaksiyanın keçmiş əməkdaşı Təranə Nuriyevaya qardaşı

**HİKMƏT NURİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2960
SİFARİŞ 349
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00